Əlì MAHMUD,
Nurəddìn ƏDÌLOĞLU

# Halallığın haləsində

(Publìsìsìtìk məqalələr,
ədəbì-bədìì düşüncələr)

«APOSTROFF»
BAKI – 2013

**Redaktor:** **Minaxanım Təkləli,**
*filologiya elmləri doktoru,*
*professor*

Əli Mahmud, Nurəddin Ədiloğlu
**M15 HALALLIĞIN HALƏSİNDƏ.**
Bakı, «**Apostroff**», 2013. 368 s

**“Qarabağa aparan yol”**
**qəzetinin nəşri**

***Kitabın istifadəsi ilə bağlı bütün müstəsna hüquqlar müəlliflərə məxsusdur.***

© ***Əli Mahmud,***
***Nurəddin Ədiloğlu, 2013***

*ÖN SÖZ*

# BƏŞƏRƏ SEVGİSİ TÜKƏNMƏYƏN YAZAR

"Yazıçı – qələm əhli əbədiyyət yolçusudur...", "Yazıçı sözün qələsinə doğru gedən fatehdir...", "Yazıçı söz mülkünün soltanıdır". Bu fikirlər müasir Azərbaycan ədəbiyyatının görkəmli simalarından olan yazıçı-dramaturq Hüseynbala Mirələmovun yaradıcılığına həsr olunmuş "Yazıçı ömrünə üvertüra" adlı monoqrafik variasiyalar kitabından götürülmüşdür. Tanınmış ədə-



biyyatşünas, tədqiqatçı-alim, professor Nizaməddin Şəmsizadə bu kitabda yazıçının son on ildə qələmə aldığı əsərləri ətraflı təhlil edib. Onun fikrincə, yazıçının əsərlə-

rinin mətnində Azərbaycan xalqının milli taleyi üçün narahat bir ürək döyünür. Qələmə aldığı əsərlər eyni zamanda Hüseynbala Mirələmovun öz tərcümeyi-halıdır. "Hüseynbala Mirələmov vətənkeşliyini görmək üçün "Xəcalət"i, humanizmini dərk etmək üçün "Cəza"nı, casarətinə bələdlik üçün "Qırxıncı otağı", sevgisini duymaq üçün "Gəlinlik paltarını" oxumaq lazımdır... O, ədəbiyyat limanında əzmlə lövbər salıb...

Yazıçının istedadından, şəxsiyyətindən bəhs edən böyük türk ədibi, dünya şöhrətli qırğız yazıçısı Çingiz Aytmatov yazırdı ki, Hüseynbala ilə hər görüşəndə ondan müsbət enerji qəbul edirəm, mənən bəhrələnirəm.

Hüseynbala müəllim, sözün həqiqi mənasında böyük vətəndaşdır. Ümumiyyətlə onun yaradıcılığı çoxşaxəlidir və qələmə aldığı əsərlər məhdud mövzü çərçivəsində deyil. O, geniş diapozona malık bir yazıçıdır və insanı narahat edən bütün mövzular Hüseynbala müəllim üçün doğmadır. Yazı-

çını yazı masası arxasına çəkən də məhz bu hisslərdir.

Mərhum Xalq şairi Qabil Hüseynbala Mirələmov barədə ürək sözlərini belə dilə gətirmişdi: “Yer üzündə yazıçı, şair çoxdur. Hüseynbala da bunlardan biridir. Yazıçını bəyənmək də olar, bəyənməmək də. Əsas şərt insanlıqdır ki, bu da mənə görə, Hüseybalanın ən gözəl məziyyətidir”.

Yazıçının səxavəti də, cəsarəti də insanlığından irəli gəlir. Yaşadığı cəmiyyətin, bulunduğu həyatın, içərisinə alındığı zamanın eyblərini yalnız cəsarətli yazıçı açıb göstərə bilər. Yazıçının şəxsiyyətini ucaldan, ona hörmət gətirən bu cəhəti millət vəkili, AMEA-nın müxbir üzvü, görkəmli tənqidçi Nizami Cəfərov çox doğru qeyd edir: “Hüseynbala Mirələmov əsərlərində yalnız bir yazıçı kimi deyil, bir cəmiyyətşünas-mütəfəkkir kimi də irəli gedir, insanlığın, XÜSUSƏN YENİ HƏYAT TƏRZİNƏ başlamış Azərbaycan insanının hansı qlobal fəlakətlər qarşısında qaldığını cəsa-

rətlə açıb göstərir"

Azərbaycanda onun ədəbi yaradıcılığı, xüsusilə də Qarabağ mövzusunda qələmə aldığı əsərlər barədə qısa müddətdə 15-dən çox kitab işıq üzü görmüşdür.

Bu gün Azərbaycanın ədəbi prosesində bir çox tənqidçilər əbəs yerə Hüseynbala Mirələmovu oxucusunu tapan, ədəbi-ictimai fikrin diqqət mərkəzində olan yazıçı adlandırmır. Hər şeydən öncə onun "Xəcalət", "Cəza", "Coğrafiya çubuğu", "Qumru yumurtaları", "İlanlar gecə sürünür", "Taledən qaçmaq olmur", "Alatoran", "Əclaf" povestləri, "Gəlinlik paltarı", "Yanan qar", "Qırxıncı otaq", "Sonuncu fateh" romanları, "Güllələnmiş heykəllərin fəryadı" essesi ilə tanış olanlar müəllifin Avropa təfəkkürlü, Şərq ruhlu bir müasir azərbaycanlı yazar olduğunu vurğulayırlar. O, ədəbiyyata 14 yaşında paytaxtdan uzaq bir əyalət qəzetində çap olunmuş "Bir tikə çörək" hekayəsi ilə gəlib. (Sonra həmin hekayə Bakıda nəşr edilən və o vaxt məktəblilər üçün ən dəb-

də olan " Azərbaycan pioneri" qəzetində dərc olundu). Bundan 25 il sonra – 1986-cı ildə onun "Tənha durna uçuşu" adlı ilk kitabı nəşr edilmişdi. Və müəllifi ədəbi aləmdə dərhal tanıtdı. Həmin vaxtdan 25 ildən çox keçir. Çağdaş ədəbi tənqidin nümayəndələri isə yazıçı Hüseynbala Mirələmovu XXI əsr Azərbaycan sosial-psixoloji romanının yaradıcılarından biri adlandırmaqdadırlar... İnsan taleyini həll edən ani bir məqamı ciddi sosial-psixoloji hadisə miqyasında genişləndirə bilmək Hüseynbala Mirələmovun yazıçı fərdiyyətinə, onun nəsr və dramatik üslubuna xas olan başlıca cəhətdir.

Hüseynbala Mirələmov "Xəcalət" povestində bir ailənin timsalında iyirminci əsrdə türkün düşmənləri tərəfindən Azərbaycan xalqının başına gətirilən müsübətləri qələmə alıb.

Yeri gəlmişkən, qeyd etmək lazımdır ki, Azərbaycanın Xalq şairi Bəxtiyar Vahabzadə yazıçıya ünvanladığı açıq mək-

tubunda əsərdə tanış olduğu gerçəklərin acılığından qəhərləndiyini və keçirdiyi xəcalət hissindən kitabı axıra kimi oxuya bilməmisini etiraf edirdi. "... göz yaşlarımı saxlaya bilmədim, bacarmadım. Bu boyda dərdlə qol-qola, baş-başa yaşaya bildiyimə xəcalət çəkdim. Bəli, biz hamımız babalarımızın bizə əmanət verib getdiyi cənnətməkan Qarabağı düşmənə təslim edəndən sonra yenə də yaşaya bildiyimizə görə, o müqəddəs torpaqda yetişən dahilərimizin ruhundan utanmalıyıq". Əslində Xalq şairinin bu etirafı Hüseynbala Mirələmovun əsərinə verilən ən yüksək qiymət idi. "Xəcalət"də müəllifin qəhrəmanının adının Vətən olması da təsadüfi deyil.

Əsərdə böyük ustalıqla qələmə alınmış hadisələrdən biri də kimsəsiz meşədə can üsdə olan anası, həyat yoldaşı və körpə balaları isə məşəqqətli saatlar yaşdığı Vətənin canavarla göz-gözə, üz-üzə qalması səhnəsidir. Psixoloji cəhətdən çox ağır olan bu səhnələrdə Vətən Xocalı soyqrımına məruz

qalan adamların meyidlərini bir-bir yoxlayır. Ona elə gəlir hər hər tərəfi qan gölündə boğan ölüm onu da haqlayıb. Hətta əsən küləkdən də ölüm qoxusu gəlir.

...Hətta yırtıcı canavar da erməni vəhşiliyinə dözmür, qəzəbindən ulayır diş atıb özünü qapır. “Xəcalət”in bədii-fəlsəfi məqamı bu son ulartıdır. Qurd ulayırsa, həyat davam edir. Müəllif burada türk mifoloyi təfəkkürünün qan yaddaşından istifadə edir. Və əsərin baş qəhrəmanının anasını ölümün pəncəsindən qurtara bilməsə də ailəsini xilas edəndən sonra köçkün həyatını qələmə alır. Cibində xəstə qızına dərman almaq üçün bircə qəpiyi belə olmayan Vətən əslində qəhrəman bir oğul, vətənpərvər, əyilməz bir şəxsiyyətdir. Bir çox dillərə tərcümə olunan bu əsər bəşəriyyətin diqqətini Azərbaycanın Qarabağ ağrısına – qaçqınların taleyinə yönəltdi. Bu mənada Xocalı faciəsini, Qarabağ itkisini real boyalarla əks etdirən “Xəcalət” həm də bəşəriyyət üçün böyük ibrət dərsidir.

Xatırladaq ki, bu əsərin əsasında yazılmış eyniadlı tamaşa ötən ilin sentyabrında Yaltada "Teatr, Çexov, Yalta" IV Beynalxalq teatr sənəti festivalında Qran-pri mükafatına layiq görüləndən sonra festivalın rəsmi saytında "Xəcalət" tamaşası haqqında maraqlı şəhrlər vermiş, pyes "müasir dünyanın reallıqları ilə səsləşən əsər" kimi qiymətləndirilmişdir. Xocalı soyqrımı ilə bağlı həqiqətləri dünya ictimaiyyətinə təqdim edən tamaşa barədə bu günəcən əcnəbi tamaşaçılar da öz təəssüratlarını şəxsi saytlarında yerləşdirirlər. BlackSeaNews saytında Anna Xoroşko adlı ukraynalı tamaşaçı yazır: "Azərbaycan Milli Dram Teatrı kollektivi ("Xəcalət" tamaşası, müəllif Hüseynbala Mirələmov, rejissor Bəhrəm Osmanov) jüri üzvlərinin tamamilə ədalətli şəkildə qeyd etdikləri kimi, "yüksək aktyor məharəti" nümayiş etdirdilər. Hüseynbala Mirələmovun Qarabağ qaçqınlarından danışan ictimai-publisistik, hadisələrin inkişaf tempinə görə ağır, açıq siyasi mahiyyətli

"Xəcalət" pyesi bəlkə hər kəsin zövqünə xitab etməyə bilərdi. Ancaq zal, hamı bir nəfər kimi ayağa qalxdı. Və demək olar ki, hamı bir nəfər kimi göz yaşlarını sildi".

***

Müəllifin "Yanan qar" romanının mövzusu müharibə və xalqdır. Müharibələr xalqların həyatından keçən qara bir zolaqdır. O qara zolağı böyüməyə, millətin üstündə əbədi kölgəyə çevrilməyə imkan vermək olmaz. "Yanan qar" əsəri Qarabağ müharibəsində partizan hərakatını əks etdirən ilk romandır. Əsas obrazlardan biri olan bəy Kamran Azərbaycan kişilərinə məxsus ən dəyərli keyfiyyətləri təcəssüm etdirir. O, atılmış köhnə dəyirmanı vətənin azadlığı uğrunda mübarizə qərərgahına çevirir. Əsərdə əhvalatlar canlı təsvir olunur; oxucu bir anlığa özünü baş verən hadisələrin içində hiss edir. Ədəbiyyat sahəsində araşdırmalarına görə Azərbaycanın Dövlət mükafatına layiq görülən professor Nizaməddin

Şəmsizadə yuxarıda adı çəkilən kitabında qeyd edir ki, "Yanan qar"da təsvir olunan xalq qəhrəmanı bəy Kamranın bir neçə güc mənbəyi var. Onun birincisi qəhrəmanın mənsub olduğu bəy nəslidir. Yazıçı onu sovet rejiminə qalib gəlmiş sonuncu bəy kimi təqdim edir. İkincisi, bəy Kamran Azərbaycanın tarixi qəhrəmanlıqlarla dolu Laçın bölgəsinin Bəylik kəndində doğulub, boya-başa çatıb. Yazıçı onun xarakterində Laçın, Kəlbəcər dağlarının əzəmət və vüqarından gələn xüsusiyyətləri sənətkarlıqla toplayıb. Bəy Kamranın üçüncü güc mənbəyi, onun qarı düşmənə nifrətini korşalmağa qoymayan yanıb külə dönən kəndi (köyü), ev-eşiyi, erməni vandallarının əlində sökülüb dağılan gor yurdu – qəbiristanlıq idi. Bəy kamranın gücü bundadır ki, o, dövlətdən heç bir kömək, ümid gözləmir. Onun məfkurəsi türkün qüdrət mənbəyi olan VƏTƏN ƏXLAQINDADIR. Bəy Kamran müasir Azərbaycan ədəbiyyatında böyük Azərbaycançı qəhrəman obrazıdır. Nizaməddin bəy

çox haqlı olaraq qeyd edir ki, "Yanar qar" romanını Qaraba bölgəsinin çikindən-bikinə qədər bələd olan adam yaza bilər. Hüseynbala Mirələmovun romanında bu ərazilərdə qarış-qarış gəzib vuruşmuş döyüşçülərin isti, təzə-tər xatirələri, barıt qoxulu təəssüratları öz əksini tapır.

Əsərdə qəbiristanlıq vətənin, əcdadın simvolu, yurd yeri kimi rəmzləşdirilir.

Təsadüfi deyil ki, ata-baba qəbiristanlığının erməni goreşənləri tərəfindən dağıdıldığını görən gənc partizan Bəxtiyar təkbaşına bir dəstə silahlı erməni quldurlarına hücum edir və onları maşınqarışıq sıldırım dərəyə – gedər-gəlməzə göndərir. Romanda Azərbaycan xalqının qəhrəmanlığı ilə mənəvi ucalığı, humanizmi bir vəhdət şəklində təsvir olunur. Ağsaqqal Həmid kişinin erməni qadını – Vartanuşu qəbiristanlıqda azad etməsi dediklərimizə parlaq misaldır.

Əsirlikdən azad olan bu erməni qadını öz qan qardaşlarının – ermənilərin azərbaycanlı əsirlərə – xüsusilə qadın və uşaq-

lara qarşı vəhşiliyini belə xatırlayır: "...Hər şey elə bil indicə, Livan ermənilərinin Xoznavarın yuxarı hissəsində tikdirdikləri kilsənin qabağında baş verirdi: Anasının döşünü əmən körpəni Kor Tiqran süngüyə keçirib başı üstündə yelləyir. Daşnakların komandir adlandırdıqları Qurgen Falçıyan dünyaya gəlməyə macal tapmayan körpəni avtomatın qundağı ilə anasının bətnində qətlə yetirir. Eçmiədzindən gəlmiş saqqallı cavan keşiş qaynayan samovarı ağbirçək qadının kürəyinə şələlətdirir: "Ay arvad, səni bağışlayırıq əl açıb köməyə çağırdığın Allahına, qaç canını qurtar", – deyir. Gəlin və qızların paltarları gözləri qan çanağına dönmüş dığaların əlində şiltə-şiltə olur. Əlləri, qolları bağlı oğlanları sıraya düzüb ən yaxşı nişançı müəyyənləşdirilir, qalıbə doqquz, on yaşlı qızları hədiyyə verirlər" (s.268-269)

Bəli, bu azərbaycanlılar tərəfindən humanistcəsinə, heç bir zor işlətmədən, təmənna güdülmədən üç övladının yanına bu-

raxılan erməni gəlinin – Vartanuşun gördüklərindən bir epizoddur. Yazıçı onun timsalında türk millətinin erməni əsirinə, qadına və anaya insani münasibəti ilə adına heç vəchlə xalq, millət deyilməsi mümkün olmayan bir toplumun amansız, antiinsani vəhşiliklərini qarşılaşdırır. Gənc erməni keşişinin hərəkəti onun boynundan asdığı xaçın antihumanist mahiyyətini, vahid Allaha olan antibəşəri xislətini açıb göstərir.

Bəy Kamran və onun silahdaşları belə bir ANTİBƏŞƏRİ zülmə qarşı vuruşurlar.

Bu roman Azərbaycan xalqının düçar edildiyi ədalətsiz müharibədə qalib gələcəyinə, tarixi ƏDALƏTİN bərpa olunacağına böyük inam hissiylə yazılıb. Oxucu əsərdən bu İNAMIN İŞİĞINDA ayrılır. Poman hələ bitməyib, çünki müharibə də, Azərbaycana qarşı haqsızlıqlar da davam edir...

***

Ədəbiyyat həyatın gur nəfəsi, reallığı ilə güclüdür. Çünki həyatın verdiyi mövzular, qurduğu sujetlər hətta ən istedadlı yazıçının da fantaziyasını üstələyir. Xalq şairi Sabir Rüstəmxanlıya aid olan bu fikirlər Hüseynbala Mirələmovun yaradıcılığı barədə "Azərbaycan elm və mədəniyyət xadimləri" seriyasından M.F.Axundov adına Azərbaycan Milli kitabxanasının nəşr etdirdiyi "Biblioqrafiya"da əksini tapmışdır.

2004-cü ildə Bakıda "Gənclik" nəşriyyatında Hüseynbala Mirələmovun "Gəlinlik paltarı" romanı nəşr olundu. Mənəvi-əxlaqi mövzuda yazılmış bu əsər dərhal ədəbi ictimaiyyətin diqqətin özünə cəlb etdi. Əsər haqqında Azərbaycanın dövrü mətbuatında yüzlərlə məqalələr, oxucuların ürək sözləri dərc olundu. Və çox çəkmədi ki, bu əsər Türkiyədə "Gəlinlik" adı ilə işıq üzü gördü.

Əsərin məzmunundan aydın görünür ki, bu gün Azərbaycanın – eləcə də dünyanın üzləşdiyi durum onun siyasətçilərindən,

yüksək mövqelər tutmuş məmurlardan daha çox yazıçısını düşündürür, narahat edir! Bəli, bu əsəri ilə H.Mirələmov vaxtın fövqündə dayana bilib, əsərdə bədii həllini tapan problemlərin də cəmiyyət həyatında öz əksini tapması üçün həyəcan təbili döyür.

***

Alman filosofu Hegelin belə bir kəlamı var: "Dahiyanə heç nə ehtirassız yaradılmır". Hüseynbala Mirələmovun son illərdə qələmə aldığı "Qırxıncı otaq" əsəri ehtirasla sosial-mənəvi düyünlərini açan, tarixilik və bəşərilik duyğusuyla yazdığı bir romandır. Bu əsər həm də terror əleyhinə yazılmış və insanın yaşamaq haqqını təsdiq edən talelər romanıdır. "Qırxıncı otaq" əsərinin mövzusu onun müəllifin real müşahidələri əsasında yazıldığını təsdiq edir. Əsər işıq üzü görəndən az sonra Bakıda "Atatürk" mərkəzində geniş müzakirə olundu.

Əsərin qəhrəmanı qocaman hakim Adil Hüseynli təqaüdə çıxdığı gün bütün ömür yolunu və taleyini xatırlayır. Bu xatirələrin

bir ucunda 1937-ci ildə şərə düşərək Sibirə sürgün olunan atası Həmidin məktubla ona verdiyi öyüd – nəsihət dayanır: “Oğlum, mən sənin adını Adil qoyanda, dünyanı ədalətsizlik bürümüşdü... Bilirəm körpəsən... Amma böyüyəcəksən. Mənə söz ver ki, heç vaxt ədalətsiz iş tutmayacaqsan. Elə buna görə də adını Adil qoydum, oğlum... Unutma ki, “ədalət koması yıxılan yerdə rəzalət sarayı ucalır” Bu ata öyüdü romanın bəddii-fəlsəfi konsepsiyasını müəyyən edir.

Yazıçı qoca hakimi ömrün və taleyin ən həlledici psixoloji vəziyyətində təsvir edir və qəhrəmanını bədii təhkiyənin mərkəzinə gətirərək işığı onun daxili aləminə yönəldir. Bu cəhət böyük ruz yazıçısı F.M.Dostayevskinin romanları üçün xarakterikdir. Müəllif Adil Hüseynlinin psixoloji durumunu ülviyyətlə rəzalət arasındakı məqamda təqdim edir: “Mən öz insanlıq vəzifəmi yerinə yetirmişəm” – qoca hakim özündən cavan görünən atasının şəklinə baxa-baxa qəlbinin səsini dinləyirdi. “Cəmiy-

yət həyatında elə vəzifələr var ki, adamdan insanlıq, mədəniyyət və cəsarət tələb edir. Mənəviyyat, insani dəyərlərə hörmət etmək isə bütün peşələr üçün əsas şərtdir. Adamlar həmişə ədalətli cəmiyyətdə yaşamağı arzu edirlər. Hansı quruluş olursa – olsun, insanın özünü müdafiəsiz hiss etməyi dəhşətdir". Bu qənaət təkcə Adil Hüseynlinin ata ruhu ilə həsbi-halı deyil, həm də Hüseynbala Mirələmovun yazıçılıq qayəsinin ifadəsidir.

40-cı otaqda oturan gənc həmkarı ömrü boyu namusla işləmiş Adil Hüseynlini aparacağı son məhkəmə işində rüşvət almağa təhrik edəndə qoca hakim qəzəblənir: "Mən Şahin bala, uşaq vaxtı atadan, gəncliyimdə anadan, ahıl çağımda elimdən, obamdan yetim qalmışam. Atasızlığa vərdiş elədim, anasızlığa dözdüm. Amma vətənsiz – o dağlarsız yaşaya bilmirəm... Ona görə də, oğlum, yava-yava danışma. Sən dediyin son məhkəmə isə indi yox, qiyamət günü olacaq!"

Adil Hüseynli həm də ailədən yetim qalmışdı, arvadı, oğlu, qızı metroda terror zamanı həlak olmuşdu. Onun haqqını müdafiyə etdiyi qadının adı Cahandır.

Hüseynbala Mirələmov Cahanın qadın həbsxanasında başına gələnləri sərt boyalarla təsvir etsə də bu obrazın timsalında mənəvi təmizliyin, dözüm və dəyanət mələyinin mücəssəməsini yaradır. "Bura bizim azadlığımızı əlimizdən alıb, insanlığımızı, yaşamaq həvəsimizi, geriyə dönmək istəyimizi yox!" deyən Cahan da qırxıncı otağın qurbanlarından biridir.

... Azərbaycan nağıllarında qəhrəman otuz doqquz otağı aça-aça gəlib yetişir bütün sirlərin gizləndiyi qırxıncı otağa. Adil Hüseynlinin yazdığı tale kitabının adı da "Qırxıncı otağın sirri" adlanır. Bir gün həmin kitabın əlyazması oğurlanır. Ən maraqlısı budur ki, 40 illik hakimlik dövründə ona müəmmalı qalan sirlərin hamısı romanda konfliktin mənfi qütbünü təmsil edən Şahin Verdiyevin oturduğu 40-cı otaqdan

sökülüb açılır. Məlum olur ki, Cahanı azadlıqdan məhrum edən, qocaman hakimə rüşvət verməklə ona ömürlük cəza kəsmək istəyən gənc hakim “Qara Xan” adlı ən iri holdinqin sahibi akademik Aşur Qaraxanlının aşnası, Cahanın düşməni Aypara Kazımzadənin oğlu imiş. Sən demə bir çox cinayətlərin başında duran akademik Qaraxanlı 37-ci ildə Adil Hüseynlinin atası Həmidi (və digər namuslu adamları) “pantürkist” adı ilə şərləyib Sibirə sürgün etmiş, vaxtilə 40-cı otaqda oturan Ali Məhkəmə Kollegiyasının üzvü Qaraxan Şubayevin oğlu imiş...

Lakin ədalət uğrunda mübarizə aparan qoca hakim 40-cı otağın sirrini faş etsə də, özü də cəmiyyətdə baş verməkdə olan terrordan yaxa qurtara bilmir. Lakin bununla belə əsərin bədii-fəlsəfi gücü, Cahanın azadlığa çıxması və s. oxucuda haqqın, ədalətin qələbəsinə böyük inam hissi yaradır.

***

Görkəmli ədəbiyyatşünas, Akademik Bəkir Nəbiyevin ön söz yazdığı «Sonuncu fateh» ədibin ilk tarixi romanıdır. Qeyd edək ki, Bəkir Nəbiyevin ön sözündən sonra müəllif əsər üzərində daha 2 il işləmişdir.

Attiladan üzü bəri ən görkəmli türk sərkərdələrinə həsr edilmiş elmi və bədii əsərlərin son illərdə bir sıra maraqlı nümunələrinin meydana gəlməsi xalqın özünün mənəvi istəklərindən doğduğu üçün məqbul, qərəzli və arzuedilən bir əlamətdir. Hüseynbala Mirələmovun «Sonuncu fateh» romanı da bu mənəvi tələbatdan doğan qiymətli əsərlərdən biridir.

Ümumiyyətlə, tarixi mövzuda əsər yazmağın, özəlliklə də məlum mövzularda sanballı tarixi roman meydana qoymağın özünə görə çox ciddi yaradıcılıq mürəkkəblikləri var. Yazıçı bədii təsvirini verdiyi dövrün mühüm ictimai-siyasi hadisələrini,

adət-ənənələrini, bu adət və ənənələrin daşıyıcısı olan insanları, onların psixologiyasını, konkret zaman kəsiyində həmvətənlərinin həyat və dolanışıq tərzini, geydikləri əlbisəni, işlətdikləri alətləri, vətənin, yurdun müdafiəsinə gedəndə qurşandıqları silahları, habelə bir-biri ilə ünsiyyətdə danışdıqları dilin xüsusiyyətlərini, ən vacib söz və ifadələrin işlədilməsi tezliyini, xalqın folklorunu, musiqisini və s. və i.a. yaxşı öyrənməli, bütün bunlardan da əsərində yaradıcılıq yolu ilə faydalanaraq təsvir etdiyi dövrlə bu günün oxucusu arasında zaman səddini aradan qaldırmağı bacarmalıdır. H.Mirələmov həmin vəzifənin öhdəsindən müvəffəqiyyətlə gələrək, bütün mətləblərin məcmusunu özünün əsas fikri – bədii məqsədinə yönəldə bilmişdir.

Roman ilk səhifələrindən oxucunu gərgin hadisələr burulğanına salır. Oxucu ekspozisiyada Nadirin uşaqlıq çağlarında otardığı ilxını xilas etdiyi zaman təbiətin tuğyana gəldiyini görür, 12-13 yaşlı Nadi-

rin qorxmazlığının, böyük igidlik və fərasətinin şahidi olur. Hakimiyyətinin sonlarına doğru səltənəti bürümüş separatizmin hökmdarın daxili aləmində yaratdığı böyük həyəcanları, bir-birini təqib edən, bəzən də biri-digərinə zidd olan fikir və duyğular seli, təlatümlü hallar canlı təhkiyə əsasında lövhə-lövhə göz önündən keçir.

Romanda əlvan obrazlar qalereyası var. Onlardan elin-obanın dərdini-odunu yaxşı bilən, gəncləri vətənpərvərlik ruhunda tərbiyə edən, yeri gəldikcə Nadir xana da ərklə öyüd-nəsihət verən el ağsaqqalı Qədirqulunun, şahın ilk məhəbbəti olan, sədaqətli, qeyrətli Zöhrənin, Nadirin müdrik və cəsur anasının mübarək adlarını çəkmək vacibdir.

Yazıçı öz qəhrəmanının şan-şöhrətinin az qala bütün dünyaya yayıldığı, artıq təkcə yaxın ölkələrin deyil, bir çox Avropa dövlətlərinin də onunla hesablaşdığı bir vaxtda şahın həyatının ən mühüm mərhələləri, taleyüklü hadisələri haqqında düşüncə-

lər axarını, özünün özü ilə həsb-halını, özünün özünə bir növ hesabat verməsini canlandırır. «Sünbüllü tac», «Başsız qalmış tac», «Qətl gecəsinə gedən yol», «Baş tutmayan sui-qəsd», «Sülh naminə güzəşt» və s. başlıqlar altında verilmiş bu düşüncələr öz növbəsində üstündən uzun illər keçmiş vacib hadisə və əhvalatların üzərindən məchulluq pərdəsini götürməklə ibrətamiz səciyyə daşıyır, Nadirin özünün və onu əhatə edən digər obrazların xarakterinin mühüm cəhətlərinin açılmasına kömək edir.

Tarix kitablarında Nadirə güllə atılmasında oğlu vəliəhd Rzaqulu xanın əli, tapşırığı olduğunu göstərənlər də var, onun bu işdən xəbərsiz olduğunu təsdiq edənlər də. Əlbəttə, insanı dünya işığına həsrət qoymaq, özəlliklə də oğlunun gözlərini çıxartdırmaq heç nə ilə müqayisəyə gəlməyən ağır bir cinayətdir. Cəzalanandan sonra Rzaqulunun atasına dediyi yeganə cümlə mənbələrdə yazılanlara görə bu olub ki,

«Sən tək mənim gözümü çıxartmadın, bütün səltənəti kor qoydun».

Əsərin dili aydın, təbii, axıcıdır. Ayrı-ayrı məqamlarda Azərbaycan xalq yaradıcılığından, məlum və az məlum rəvayətlərdən istifadə olunması, yeri gəldikcə təhkiyəyə bəzi şeir nümunələrinin daxil edilməsi, Dədə Qorqudun hansısa bir kəlamının yada salınması, nəhayət, bu deyilənlərin kompozisiyada əsas yer tutan müharibə səhnələri ilə müəyyən ölçu daxilində növbələşdirilməsi və tarazlaşdırılması təsvirlərə oxucu marağını daha da artırır. Əsərdəki çoxsaylı tarixi hadisələri bir-biri ilə vahid bir xəttə bağlamaq, bütün bunlar haqqında oxucu təsəvvürünün tamlığına nail olmaq üçün H.Mirələmov bir neçə yerdə uyarlı bir vasitədən istifadə etmişdir. O, təhkiyənin «ardıcıllığını pozaraq» kiçik bir xülasədə bir neçə il irəlinin bəzi mühüm olaylarını yada salmaqla, yenə də təsvirlərinə bir canlanma aşılaya bilir. «İlk donanma» bölümünün əvvəlində məğlubiyyətə uğramış os-

manlılarla sülh danışıqları və bu sülhün mühüm şərtləri barədə söz açan, burada müəyyən təfərrüatlara gedən yazıçı birdən-birə mövzuya təzə bir vaxt ahəngi gətirir, imperiyanın hərbi dəniz qüvvələrini, özünə məxsus donanmasını təsis etməyin vacibliyini açıqlayır və felin keçmiş zamanına məxsus xəbərlərə son verib felin gələcək zamanına məxsus xəbərlərdən istifadə etməyə keçir:

"...Ölkənin dənizdən təhlükəsizliyini donanmasız təmin etməyin çətinliyini Birinci Pyotrun yürüşləri zamanı anlamısdı. ...Ona görə də Nadir xanın göstərişi ilə Lətif xan Buşəhri yeni yaradılacaq donanmadan ötrü liman yaratmaqla məşğul oldu. Az sonra bu liman Nadiriyyə adlandırılacaqdı, 1735-ci ilin baharında Əlvənd çayına 30 böyük, 50 orta gəmi və bir neçə qayıqdan ibarət donanma gətiriləcəkdi. İki il sonra Lətif xan Bəhreyn limanının açarını Nadir xana göndərəcəkdi, bu da Ommanı Səfəvi səltənətinə birləşdirmək, Kəngər körfəzini

öz ağalığı altına salmaq üçün Nadir xan Əfşara tarixi imkan yaradacaq, üzərində qırmızı qılınc şəkli olan ağ bayraq dalğalanan donanmaya təkan verəcəkdi...” və i.a.

Hüseynbala Mirələmovun qələmə aldığı bir-birindən maraqlı kitablarından (hekayələrindən tutmuş dram əsərlərinəcən) çox söhbət açmaq olar. Son olaraq bir fikri qeyd etmək istəyirik ki, ədəbiyyat yaradıcı insanın özünə ucaltdığı möhtəşəm abidədir. Özü və əsərləri barədə qısa söhbət açdığımız görkəmli Azərbaycan yazıçısı Hüseynbala Mirələmov da öz ölkəsini ləyaqətlə təmsil edərək, oxucuların könlündə TAXT qurub, öz abidəsini yaradan dünya yazarlarındandır.

# ÖMRÜN ƏBƏDİLƏŞƏN TARİXİ

Hüseynbala Fazil oğlu Mirələmov 1964-cü ildə orta məktəbi gümüş medalla bitirərək 1965-ci ildə Azərbaycan Politexnik İnstitutuna daxil olmuş, 1970-ci ildə inşaatçı-mühəndis ixtisasına yiyələnmişdir. Təhsil aldığı illərdə "Azərbaycan pioneri" qəzetilə əməkdaşlıq etmiş, ədəbi işçi, daha sonra baş ədəbi işçi vəzifələrində çalışmış, yüzlərlə hekayə, oçerk yazıb çap etdirmişdir.

















1970-1971-ci illərdə ordu sıralarında xidmət etmişdir.

1971-1986-cı illərdə Lənkəran şəhər 4 saylı Qaz Tikinti-Quraşdırma idarəsində iş icraçısı, baş mühəndis və idarə rəisi vəzifələrində çalışmışdır. 1986-1988-ci illərdə "Azqaztəmirtikinti" trestində (Bakı şəhəri), 1988-1989-cu illərdə Maye Qaz İstehsalat Birliyində rəis olmuşdur. 1989-1992-ci illərdə Azərbaycan Dövlət Yanacaq Komitəsi sədrinin birinci müavini vəzifəsinə irəli çəkilmişdir.

1992-1996-cı illərdə İnşaat Mühəndisləri Universitetində laboratoriya müdiri, 1996-1998-ci illərdə "Bakqaz" İstehsalat idarəsində rəis müavini olmuşdur. 1998-ci ildə Azərbaycan Qaz Emalı zavodunun direktoru vəzifəsinə təyin olunmuşdur. 10 ilə yaxın müddətdə zavoda rəhbərlik etmişdir. Üçüncü və

dördüncü çağırış Azərbaycan Respublikası Milli Məclisinin deputatıdır. Hazırda Yeni Azərbaycan Partiyası Xətai rayon təşkilatının sədridir.

Azərbaycan Dövlət Neft Akademiyasında "Neftin, qazın sıxılması və nəqli" kafedrasının müdiridir.

Texnika elmləri doktoru, professordur. İşlədiyi akademiyada ixtisaslaşdırılmış doktorluq müdafiə şurasının sədridir. Azərbaycan Mühəndislər Akademiyasının müxbir üzvüdür.



# ELMİ VƏ ƏDƏBİ YARADICILIĞI

Neftin, qazın emalı texnologiyasına aid 40-dan çox elmi məqalənin; “İnşaat fizikası", “Qaz kondensatları", “Karbohidrogen qazlarının emalı texnologiyası", “Qaz emalı zavodlarında təhlükəsizlik qaydaları", “Aşqarlar kimyası" və “Qazların təmizlənməsi" adlı ali-texniki təhsil müəssisələri üçün dərs vəsaitlərinin, “Nanotexnologiyanın əsasları”, “Neftin və qazın boru kəmərləri ilə nəqli” dərsliklərinin müəllifidir.

Zaman keçdikcə müəllifin aşağıda adları sadalanan kitabları işıq üzü görmüşdür.

“Tənha durna uçuşu"; "Qayada çiçək"; "Xəcalət", "Xəcalət"in rus variantı; “Simuzər"; "Daha bir ümid sabahı"; “Hər söz bir inci" (aforizmlər, müdrik fikirlər); “Gəlinlik paltarı" (roman); "Vicdanın cəzası" (povest, hekayə və es-


AR ALIEV
ГЕЙДАР АЛИЕВ
ГЕЙДАР АЛИЕВ


ЗАРИФА АЛИЕВА
AKADEMİK










Hüseynbala MİRƏLƏMOV
Güllələnmiş Heykəllərin fəryadı



se); “Hәyat eşqi" (povest); “Bir gecәnin sehri".

Müәllifin Azәrbaycan xalqının görkәmli oğlu, qüdrәtli ictimai-siyasi xadim Heydәr Әliyevә hәsr olunmuş "Amalın İşığında"; "Hәqiqәt" (publisistik düşüncәlәr); "Zәfәr yolu" (esse, Azәrbaycan, rus vә ingilis dillәrindә); "Bir günәş var" (tarixi publisistik düşüncәlәr); "İşığın izi ilә" (tarixi-әdәbi esse); "Heydәr Әliyev" (Görkәmli Adamların Hәyatı seriyasından – 23 dildә); “İlham Әliyev” vә “Zәrifә Әliyeva” kitabları isә bir neçә dilә tәrcümә olunaraq oxucuların ixtiyarına verilmişdir.

H.Mirәlәmovun yazdığı "Vicdanın hökmü", "Xәcalәt" (eyniadlı povestin motivlәri әsasında), "Yaddaş ağrısı", "Lәyaqәt", "Cavad xanın son döyüşü", "Pәnahәli xan" pyeslәri "Azәrbaycan", "Ulduz", "Mars" jurnallarında çap olunmuş, Azәr-

baycanın müxtəlif dövlət teatrlarında səhnəyə qoyulmuş, bir neçə povest və essesi əsasında bədii və televiziya filmi çəkilmişdir:

"Tənha durna uçuşu" (bədii televiziya filmi); "Durnalar qayıtdı" (bədii televiziya filmi); "Güllələnmiş heykəllərin fəryadı" (bədii televiziya filmi); "Son arzu" (televiziya filmi); "Simuzər" (bədii televiziya filmi); "Toy" (televiziya filmi); "Yeni həyat" (televiziya filmi).



# TӘLTİF VӘ MÜKAFATLARI

1979-cu ildə səmərəli əmək fəaliyyətinə görə "Qırmızı Əmək Bayrağı" ordeni ilə təltif olunmuşdur.

1999-2005-ci illərdə MDB ölkələrinin keçirdiyi “Birliyin 100 Sənaye və Elm Lideri” müsabiqəsində 7 dəfə ilin direktoru adına layiq görülmüşdür.

2001-ci ildə Parisdə “Fransa Sənayesinə Köməklik Assosiasiyası”nın keçirdiyi müsabiqədə “Qızıl medal”la təltif olunmuşdur.

2003-cü ildə Fransa Sənayeçilər Assosiasiyasının təsis etdiyi “Napoleon” qızıl medalına layiq görülüb.

Azərbaycan Yazıçılar Birliyinin üzvüdür və bir sıra diplom və mükafatlarla təltif edilmişdir.

Azərbaycan kütləvi informasiya vasitələri işçiləri həmkarlar ittifaqı rəyasət heyətinin təltif etdiyi "VƏTƏN" fəxri diplomu, "Qızıl Qələm" media mükafatı laureatı diplomu, Abdulla Şaiq mükafatı, Teatr Xadimləri İttifaqının təsis etdiyi



"Qızıl Dərviş" mükafatı "Vicdanın hökmü" pyesinə görə, "Milli birlik" təşkilatının "Qara Qalxan" mükafatı, mətbuatda uğurlu, publisistik fəaliyyətinə görə Azərbaycan Jurnalistlər Birliyinin "Diplom"u, "Qafqaz-Media" İctimai Birliyinin 10 min tamaşaçı arasında apardığı sorğulara əsasın "İlin dramaturqu" diplomu, “Akademik Yusif Məmmədəliyev” adına medalla təltif olunmuşdur.

"Heydər Əliyev" kitabına görə Moskvada keçirilən ənənəvi beynəlxalq kitab



sərgisində "Sodrujestvo" və "Kosıçin" mükafatlarına layiq görülmüşdür.

"Qızıl Buta", Mədəniyyət və Turizm nazirliyinin təsis etdiyi "Qızıl kəlmə", Beynəlxalq Rəsul Rza mükafatına, "Zərifə Əliyeva" kitabına görə Moskva Meriyasının Juri Dolqoruki mükafatına layiq görülmüşdür.

"Sonuncu Fateh" romanına görə AMEA onu 2012-ci ilin yazıçısı adına layiq görmüşdür.

# "XƏCALƏT"İN XOFU

## Xalq şairi Bəxtiyar Vahabzadəyə açıq məktub

***Çox hörmətli Bəxtiyar müəllim!***

*İkinci dəfədir ki, Sizə məktubla müraciət edirəm. Yaxşı yadımdadır və inanıram ki, Siz də unutmamısınız. 1991-ci il oktyabrın 25-də "Qarabağ" qəzetinə, şəxsən mənə ünvanladığınız "İşıq gətirin" adlı məktubunuzda yazırdınız: "Qəzetinizi ürək ağrısı ilə oxuyuram. Qəhər məni boğur, səhifə əlimi yandırır, gözlərim sərlövhələr içində xoş bir xəbər axtarır, tapa bilməyəndə canımı qoymağa*

*yer tapmıram. Sizi qınamıram. Çünki qəzetiniz həyatımızın aynasıdır. Həyatın eybəcərliyini ayna düzəldə bilməz ki?!*

*Siz odun-alovun içində hər gün üzləşdiyiniz min cür təhlükəyə məhəl qoymadan bu günlərin tarixini yaradırsınız.*

*Əziz həmkarlarım, Sizdən bir ricam var, ricamı deməmişdən əvvəl çətinliyini də bilirəm. Amma yenə sözümü deyirəm: Oxucularınıza iynə gözü qədər olsa da, işıq verməyə çalışın. Şuşa camaatının, ətraf kəndlərimizin nə çəkdiyini yaxşı bilirəm. Çəkdiklərinizin bir ucu bizim qəlbimizdədir. Bununla belə, yenə ümiddən əl çəkməyin. Oxucularımızdan qığılcım kimi yanıb-sönən işığınızı əsirgəməyin.*

*Bəlkə, deyəcəksiniz ki, işıq heç yoxdur, əgər yoxdursa, onda təsəlli üçün uydurun, çünki işıq işıq gətirər".*

O vaxt mənsə "Qarabağ" qəzetinin 28 noyabr 1991-ci tarixli nömrəsində Sizə "Açıq Məktub"la cavab yazmışdım.

*Həmin məktubdan bir neçə sətri olduğu kimi vərəqə köçürmüşəm: “Torpağımız oda, alova bürünüb, qan gölündə, zülmətdə boğulur. Sovet ordusunun və erməni silahlı birləşmələrinin birgə apardıqları əməliyyatlar nəticəsində Qarabağ hər gün boşaldılır. Polyaniçkonun bu günlərdə saxta “təəssüf hissi” ilə dediyi ifadələri xatırlayıram: “Tuğ, Xocavənd, İmarət-Qərvənd, Salakətin... boşaldı. Deməli, bizə qalan Xocalı və Şuşadır”. Saxta “təəssüf”, böyük “təəssübkeşlikdi”. Xocalı-Əsgəran-Noraguğ, Şuşa-Stepanakert-Şüşükənd-Muxətər döyüşlərini hər gün rus əsgərləri başlayırlar. Sonuncu göy və ya qırmızı işıqlı gülləri də onlar atırlar.*

*İndi Dağlıq Qarabağ, Laçın, Kəlbəcər, Ağdam, Tərtər, Füzuli, Cəbrayıl, Qazax, Goranboy tankların, BTR-lərin, minomyotların, pulemyotların və raketlərin işığında hədəfə çevrilib. O ölüm saçan işıqlar tüstümüzü göylərə bülənd*



*edir. Moskva erməni və imperiya “işığı” salır üstümüzə.*

*Bu gün Vətənə (məktubda Heydər Əliyev kimi oğul gərəkdi yazılsa da, o vaxt senzor “Heydər Əliyev kimi” sözlərini ixtisar etmişdi) oğul gərəkdi. O oğul ki düşmən üstünə od kimi parlaya bilən qılınc sıyıra! O oğul ki millətin qəddini dikəldərək ordusuna sərkərdəlik edə bilə! Azərbaycan adlı məmləkət (Heydər Əliyev kimi – red) oğula möhtacdı, Bəxtiyar müəllim!”*

*Ulum, ustadım, bütün bunlar düz 11*

*il əvvəlin söhbətidi. O vaxtlar erməni qədər qatı və qəddar düşmənlər öz içimizdə də pərvəriş tapıb yetişmişdilər. Onlar vəd edilmiş kürsülər naminə millət, qeyrət, torpaq hissini itirmişdilər. Yarasalar kimi işıqdan qorxurdular, qaranlığı, dumanlığı, bulanlığı istəyirdilər. Belədə Qarabağımızı düşmənlərə ərməğan etmək daha asan idi.*

*Heyhat, xalqımız bu gün də naqislərdən, milli xəyanətkarlardan xali deyil. Qarabağa düşmən istəyən işığa, barmaq tıxamaqdan həzz alan, hətta o torpağın adı gələndə allergiya xəstəliyinə tutulanlar çoxdur. İş o yerə çatıb ki, onlar Qarabağ mövzusunun ədəbiyyata yenidən gəlişindən darıxırlar. Darıxırlar ki, indiyə kimi qaranlıq qalan çox mətləblərin üstünə işıq düşər. Belə əsərlərdən biri yazıçı Hüseynbala Mirələmovun son vaxtlar mətbuatda çaxnaşma yaradan "Xəcalət" povestidir.*

*Sizin Hüseynbala Mirələmova ün-*

*vanladığınız və "525-ci qəzet"in 31 oktyabr 2002-ci il tarixli nömrəsində dərc etdirdiyiniz "Xəcalət" – xəcalətli günümüzün güzgüsü adlı məktubunuzu diqqətlə oxudum: "Hörmətli Hüseynbala Mirələmov, "Xəcalət" povestinizi yalnız yarıya qədər oxuya bildim. Qəhər məni boğdu, göz yaşlarımı saxlaya bilmədim, bacarmadım. Bu boyda dərdlə qol-qola, baş-başa yaşaya bildiyimə xəcalət çəkdim. Bəli, biz hamımız babalarımızın bizə əmanət verib getdiyi cənnətməkan Qarabağı düşmənə təslim edəndən sonra yenə də yaşaya bildiyimə görə o müqəddəs torpaqda yetişən dahilərimizin ruhundan utanmalıyıq (Mənim bu barədə "Utanıram" adlı bir şerim var). Əsərinizdə məni bir daha utandırdığınıza görə Sizdən üzr istəyirəm, əfv edin, təsvir etdiyiniz o dəhşətli səhnələri yaşamaq qəlbi və vicdanı olan hər kəs üçün çox ağırdır...*

*Deməк, Siz məni bir daha utandır-*

*maqla, ürəyinizdə göynəyib yazıya köçürülən dərdinizi oxucuya çatdıra bilmək məharətinizlə məqsədinizə nail olmusunuz. Bu isə yazıçılıqda əsas şərtdir".*

*Bəli, bunlar Sizin, xalq şairi, millət vəkili, əlinə qələm aldığı gündən xalqının dili, torpağı, mənəvi-əxlaqi dəyərləri keşiyində Fərhad kimi külüng çalan Bəxtiyar Vahabzadənin fikirləridir.*

*Bəs adını jurnalist qoyub, yağışdan sonra göbələk kimi çıxan, ictimai-sosial mühitdə yalnız dolaşıqlıq yaradan və yaxud hansısa partiya orqanı olmaqdan rahatlıq və məmnunluq duyan, nəşrində, yayımında heç bir problemlə üzləşməyən, hətta mənsub olduğu partiyanın daxilində qruplaşma ideoloqu kimi tanınan qəzetlər, redaktorlar və jurnalistciklər nə fikirdədirlər?*

*"SPACE" telekanalı əvvəlki verilişlərində Yazıçılar İttifaqı Bədii Ədəbiyyatın Təbliğ Bürosunun "Milli mənəvi qa-*

*yıdışı təbliğ edən və Qarabağ mövzusunda yazılan ən yaxşı bədii əsərlər üçün təsis etdiyi "Yaddaş" birinci mükafatını almış Hüseynbala Mirələmovun "Xəcalət" povesti barədə gen-bol söhbət açdığı halda, son verilişlərinin birində bu uğura kölgə salaraq müəllifin zavod direktoru olmasına təəssüfləndiyini bildirir.*

*"Reytinq" qəzetinin Bahar adlı yazarı isə baş mükafatın qaz emalı zavodunun direktoru Hüseynbala Mirələmova verilməsində Azərbaycan Yazıçılar Birliyini günahlandırır, əsəri oxumadığı halda, məntiqsiz, dolaşıq fikirlər söyləməkdən belə çəkinmir.*

*Kəbutər adlı birisi isə "Yeni Azərbaycan" qəzetində hirsini, hikkəsini "Qarabağ" qəzetinin üstünə tökməklə yüngüllük tapır. Hətta utanıb-çəkinmədən öz xisləti, əqidəsi müqabilində "Qarabağ"ı gərəksiz bir qəzet adlandırır. Yeni Azərbaycan Partiyasının orqanı olan "Yeni Azərbaycan" qəzetinin Qarabağa və*

*“Qarabağ”a belə münasibəti yalnız təəssüf doğurur.*

*Bu qəbildən olan yazılardan biri isə “A.O.” imzası arxasında gizlənən müəllifin qələmi ilə “Ədalət” qəzetinə yol tapmışdır. “A.O.” yazır: “Əsas mükafat (nədən ibarət olması mətbuatdan gizli saxlanılır) “Xəcalət” adlı povestə görə qaz emalı zavodunun direktoru (!!! – İ.D.) Hüseynbala Mirələmova verilib. Sən demə: Hüseynbala Mirələmov eyni zamanda Azərbaycan Yazıçılar Birliyinin üzvü imiş. Mükafat komissiyası onu bu cür qələmə verir. Lakin Yazıçılar Birliyinin “Soraq kitabçası”nda belə bir yazıçının adına rast gəlmədik”.*

*Yeri gəlmişkən, “A.O.” bilməlidir ki, həmin əsərə verilən mükafat üçün göynəməyə dəyməz. Mükafatın nə özü, nə də adı “A.O.”-nun imzası kimi heç kimdən gizli saxlanılmayıb. At fiquru müəllifə murad simvolu kimi təqdim olunub. Hüseynbala Mirələmovun yazıçılığına*

*gəldikdə isə, indiyə kimi onun "Tənha durna" (1986), "Qayada çiçək" (2001), "Amalın işığında" (2002), "Xəcalət" (2002) kimi əsərləri çap olunub. Arxiv tökməyə ehtiyac qalmaması naminə isə elə bu məktubda Yazıçılar Birliyi tərəfindən ona verilən vəsiqənin nömrəsini xatırladıram: 727.*

*Bəxtiyar müəllim, "Xəcalət" povestinə ön sözü tənqidçi dostum Vaqif Yusifli ilə birgə yazmışıq. Sizə bu məktubu yazmaqda isə məqsədim heç də Hüseynbala Mirələmovu müdafiə etmək deyil. Ancaq ədalət naminə deyim ki, "Xəcalət"i oxuyandan sonra o məşəqqətli, müdhiş günləri yenidən yaşadım. Yandırılan, yerlə-yeksan edilən Göyçənin, Zəngəzurun, Şuşanın, Meşəlinin, Xocalının, Ağdamın, Laçının, Ağdərənin, Zəngilanın, Füzulinin, Kəlbəcərin, Cəbrayılın faciələrə düçar olunmuş 1 milyondan çox günahsız insanları ilə nəfəs-nəfəsə, baş-*

*başa qaldım. İmperiya cəlladları qorbaçovların, volskilərin, polyaniçkoların, ümumiyyətlə, Qarabağda törədilən soyqırımlarına şərait yaradan, rəvac verən xəyanətkarların iyrənc simaları ilə təkrar qarşılaşmalı oldum.*

*Uşağına, qocasına və xəstəsinə aman verilməyən o kəndi Xocalım, Meşəlim bildim. Vətənin qətlə yetirilmiş anası Yaxşı həm də mənim anamdır. Meyidlərin arasındakı "80 yaşlı qoca hər yerdən əli üzüləndən sonra son ümidini zoğal ağacından düzəltdiyi çəliyinə bağlamış, onu doğması, əzizi kimi sinəsinə sıxmış" Allahverdi kişi tanınmış şair Ələmdar Quluzadənin atasıdır.*

*Əsərdə təsvir olunan hər dağ, hər cığır, hər oymaq doğulub boya-başa çatdığım yerlərdir. Bağrıqan dağının sinəsindəki güllər hələ 1905-ci ildə babalarımızın erməni daşnakları tərəfindən axıdılmış qanından rəng alıb. Ölkənin ilanmələyən düzlərindəki çadır viranəliyində,*

*Bakıdakı və rayonlardakı rütubətli yataqxanalarda, uşaq bağçalarında sığınacaq tapmış Vətənlər qardaşımdı, Fərqanələr anam, bacımdı, Didarlar övladlarımdı. Dostlar, doğmalar arasında qaçqın, köçkün adı ilə damğalanan mənəm! Mənim dərdlərim, faciələrim barədə yazılan əsərdən isə yalnız mənim düşmənlərim xoflana bilər və bu, həqiqətdə də belədir.*

*Bəxtiyar müəllim! Mən Hüseynbala müəllimlə 1988-ci ilin o müdhiş fevral günlərindən – ermənilərin Qarabağ iddiası başlanan gündən tanışam. O dövrdən başlayaraq Dövlət Yanacaq Komitəsinin sədr müavini, sədr əvəzi işlədiyi illərdə Qarabağı kənd-kənd, qəsəbə-qəsəbə gəzib. Erməni və rus vəhşiləri tərəfindən söndürülən çıraqlara, ocaqlara işıq paylayıb. Dəfələrlə ölümlə üz-üzə, göz-gözə dayansa da, insanlara köməyini əsirgəməyib, Qarabağ elinin xeyir-şər*

*məclislərinin iştirakçısı olub. Hamını – el ağsaqqallarını, el ağbirçəklərini yaxşı tanıyıb, torpaq uğrunda qanından, canından keçmiş şəhidlərimizlə çiyin-çiyinə olub. Bütün bunlara görə son mükafatını qaragüruhçular işdən çıxarmaqla veriblər.*

*"Xəcalət" povesti də o doğmalığın, dərin yazıçı müşahidələrinin, ürəkdə yaşanan dərdlərin bəlli ifadəsi kimi meydana çıxıb.*

*Bəli, Hüseynbala müəllim zavod direktorudur. Bu, onun tutduğu vəzifədir. "Xəcalət" povesti isə vətəndaşlıq, yazıçılıq borcunun təzahürü; xalqına, Vətəninə, bayrağına, gerbinə, dövlətinə sədaqətlə xidmət edən Azərbaycan oğlunun ürəyinin qanı ilə yazılmış dəyərli əsərdir.*

*"Xəcalət" doğma yurdu, Qarabağı qoruya bilməmək XƏCALƏTİDİR.*

*Bu, Azərbaycanın ağır günündə xalqın sınaqdan çıxmış uzaqgörən liderini vaxtında köməyə çağırmamaq XƏCALƏTİDİR.*

*Bu, doğma ananın, minlərlə şəhid yurddaşının ruhları qarşısında çəkilən XƏCALƏTDİR.*

*Bu, övladının daxili iztirablarına cavab verə bilməməyin, dost köməyinə vaxtında çata bilməməyin XƏCALƏTİDİR.*

*Nəhayət, bu, həm də övladlarının törətdikləri cinayətlərə görə, gələcəkdə bəşəriyyət qarşısında cavab tapa bilməyəcək erməni xalqının XƏCALƏTİDİR.*

*Bu dəyərli əsərə verdiyiniz dəyərli qiymətə görə Sizə minnətdaram, Bəxtiyar müəllim!*

Dərin hörmətlə
**Əli MAHMUD**

# Ağrılarımızın zirvəsi

***(Yazıçı-dramaturq Hüseynbala Mirələmovun "Yaddaş ağrısı" səhnə əsərinə interpritasiya)***

İlk məqam. Bilmirəm mən tamaşaya gecikmişdim, yoxsa gördüklərim səhnədə deyil, həyatda baş verirdi. Gözlərimin qarşısında qaranlığa bürünmüş bir aləm vardı... Adamın təkcə gözlərinə yox, baxanda QƏLBİNƏ də qaranlıq çökür...

Hə yaxşı ki, "XƏSİSLİK" də etsələr, bir azca işıq düşür – yupyumru AY işığı

– göydən yox, – bir az yuxarıdan – projektordan süzülür.

Aşağıda dəyirman çarxına bənzəyən çevrədə yaralı bir ana əsgər oğlunun dizləri üstündə can verə-verə doğma vətən göylərinə son dəfə ümidlə baxır, buluddardan mədət umur.

Ana-Yaxşı, oğlu Vətəndir... Ananın gözlərində həyat işığı getdikcə sönür... Azğın ermənilərin ÖLÜM dəhşətləri yağdıran gülləsinə hədəf olan ANA oğlunun dizləri üstündə gözlərini əbədi yumur. Yaxşı ANANIN timsalında doğma QARABAĞI itirən VƏTƏNƏ yalnız atasının RUHU təsəlli verir...

Qolları üstündə YAXŞI analar itirən VƏTƏN elə bizik – mənəm, sənsən, odur! Ürəklər kövrəlir, gözlər dolur: adamın qulağında Nəsiminin məşhur kəlamı səslənir: "Ağlamayım, neyləyim, çün gövdədən can ayrılır". Bu Vətənin – Azərbaycanın naləsidir – gövdə odur, bir

parçası Seyid Nigarının vәsf elәdiyi "sevgili yarım Qarabağ..."

...O işğal olunmuş gözәl diyarın adamları yolların ağına düşüb özlәrinә sığınacaq axtarırlar.

İkinci mәqam. Çarx fırlanır – dәndanında qәm üyüdәn, İNSAN ÖMRÜ çürüdәn Dәyirman – zaman öz işindәdir. Vәtәn Bakıda uçuq-sökük, tikintisi yarımçıq qalmış xәstәxananın bir küncünә qısılıb, daha ucaboylu, enlikürәk Vәtәndәn әsәr-әlamәt qalmayıb – ürәyi daima vәtәn eşqiylә döyünәn, sözünün hәr kәlmәsi Qarabağ olan inşaat mühәndisi Vәtәn ailәsini dolandırmaq üçün tikintidә fәhlә işlәyir – maaşını vaxtında ala bilmәdiyi üçün qızdırma içindә yanan qızı Gülyaza dәrman ala bilmәyәn, dözülmәz şәraitdә TALEYӘ boyun әyәn, ürәyi dil açıb danışan VӘTӘN...

Hәyat yoldaşı Fәrqanә yalvarır ki, uşaqlıq dostu Muradın yanına getsin, im-

kanlıdır – ona – Vətənə köməyi dəyər. Fərqanənin göz yaşları, qızı Gülyazın (ifaçı Nurlanə Əhmədova) ürək parçalayan sözləri – öz vətənində VƏTƏNSİZ qalanların, TALEYİ oğurlanmışların ahnaləsidir... Dəyirmanın daşı fırlanır, çaxçaxı ürək ağrıdır. Hardasa hıçqırıq səsi eşidilir. Yox, bu səhnədən deyil, zaldan – tamaşaçılar arasından gəlir. Hər kimdisə öz DƏRDİNİ unudub, ümumi DƏRDİMİZİN ZİRVƏSİNDƏN baxır səhnədə baş verənlərə – Orda Köhnə Dəyirman təzə-təzə DƏRDLƏR üyüdür.

– "Yox, Murad məni unudub, Qarabağı unutduğu kimi" deyir Vətən. Qarabağı unutmaq, elə Vətəni unutmaq deməkdir. Getmir. Çünki deputat olmağa hazırlaşan Muradın vaxtı yoxdu, əli hər yana çatsa da, Vətən onu çox da qınamır. Muradın da ətrafda baş verənləri öz arşını ilə ölçüb-biçmək tərzi var. Çünki bir qaçqın kimi o Bakıya gələndə görür



ki, Bakı Qarabağ kimi cənnət diyarı itirən ölkənin paytaxtına heç bənzəmir. O da BİZNES aləmində nəfəs alıb, baş girlə-məyə məcbur olur... Özünün etirafına görə vaxtilə Vətəni əsirlikdən qurtarmaq üçün erməni Rubendənə çırpışdırdığı puldan əlinə maya salıb, xaricilərlə ŞİR-KƏT qurub. "Biz çoxlarının əlində vasitə olmuşuq" deyir.

TƏZAD. Dəyirman daşı fırlanır, Mu-rad günlərin bir günü Vətənin uçuq-sal-xaq sığınacağına gəlir, dar məqamda Qa-rabağın iyini aldığı sürücüsü Kürənlə!

Əvvəl seyrçiyə elə gəlir ki, böyük imkanlara malik olan Murad Vətənin xəcalətindən on il ayrılıqdan sonra yeyib-içmək məclisi qurmaqla çıxmaq istəyir. Tez-tez kasıblıqlarına eyham vurub, pis yaşadıqlarını Murada eşitdirən Fərqanə (aktrisa Şəfəq Əliyevanın sayısində) o qədər özünü inandırıcı göstərir ki, guya onun bu qəfil gəlişinin səbəbkarı o deyil.

Bir tərəfdə bağrı yurd həsrətindən didik-didik olan Vətən – o təkcə qaçqın deyil, həm də öz döyüşkən ruhunu, əzmini qoruyub saxlayan əsgər kimi dayanıb, o bir tərəfdə – ağ qiyafəli, Vətənin ironiya ilə ağ atlı oğlana bənzətdiyi – “Qarabağ romantika, illüziyadır, elə biz vətəndəyik” deyə özünə təsəlli verən Murad!.. (Əməkdar artist Azər Mirzəyev)

Bəlkə bu təzaddan çox günümüzün reallığı – Dərdimizin ən yüksək pilləsidir. Və mən o gün dərdimizin ən uca zirvəsindən Gənc Tamaşaçılar Teatrının

səhnəsinə baxa-baxa nə qədər Muradlar, Vətənlər, Fərqanələr, Gülyazlar gördüm. Tamaşa boyu taleyi oğurlanmıq və insan taleyi oğurlayan, Ömürlər baltalayan nə qədər adam yada düşür.

...Vaxt axarı, zaman sonsuzluğu, ala-yarımçıq xəyallar və yuxular, qarabasmalar, nigaran ruhlar aləmi, Vətənində vətənsizləşmək FACİƏSİ və müasir dramaturgiyamızda yazıçı-dramaturq Hüseynbala Mirələmovun yaddaşımızda açdığı QƏM PƏNCƏRƏSİ – bu pəncərədən səhnədə obrazı olmasa da dövlət məmurlarımız görünür...

PAFOS. Murad biznes dünyasında özünə nə qədər dostlar tapıb. Ancaq Vətənin yerini verənlər yoxdur. Yəni dostu Vətəni, həm də Qarabağı nəzərdə tutur. "Aləm cənnətə dönsə, yaddan çıxmaz Qarabağ..." Və neçə sürgün "yaşamış" TARı dostunun sığınacağında görəndə heyrətlənir. Əslində, Tar da özlüyündə



canlı obrazdı. O Vətənin ağuşunda qəmli hekayələr söyləyir – Zaman-zaman torpağı daralan, yurdu yağmalanan, musiqi-

si oğurlanan YURDUN ACI TALEYİNDƏN DANIŞIR.

...Muradı öz köynəyindən keçirən YAXŞI ana xatırlanır, on il öncə Qırxqızın təpəsinə çıxdığı günlər Vətənlə Muradın yadına düşür. Ordan başı müsibətlər çəkmiş vətənin nə keçmişi, nə də faciələrlə dolu gələcəyi görünürdü. Əslində, bu görməməzlik hamını sülh və əmniyyət içində görmək istəyinə vərdiş etmiş xalqımızın içindən gəlir...

Səhnə fırlanır, Dəyirmanın çarxı geri döünr: Vətən erməni əsirliyində olduğu günləri xatırlayır. Daha bir MƏQAM. Bu tarixin ermənilərin xeyrinə işlədiyi məqamlardan biridir.

"Ermənilər öz tarixindən də çox tarixçilərinə borcludur". Və bu həqiqəti rus alimi söyləyib. "Tarix saxtakarlıq sevmir" deyən professor Tumanyan belə inşaat mühəndisi Vətənin sadaladığı tarixi faktların qarşısında mat-məəttəl qalır.

Ancaq daşnakların iştahası böyükdür, onlar əsir Vətəndən və "belə saqqal saxlamağı nə vaxt öyrəndiniz?" deyən professordan öz məqsədləri üçün istifadə etmək istəyirlər... Dəyirman daşı fırlanır, dəndanı qəm üyüdən çarx cırıltısı sanki hələ bu XƏMİR çox su aparacaq, deyir...

Və daha bir məqam. Müəllif, quruluşçu rejissor (Bəhrəm Qasımov) və aktyor (əməkdar artist Rafiq Hüseynov) üçlüyünü seyrçi gözləri önündə məharətlə canlandırdığı qəmli bir hekayət nəql olunur.

...Əsirlikdən qurtarmış Vətəni – yorğun-arğın insanı – yırtıcı bir canavar pusur. Amma kəndlərinin qurtaracağında kitabının cilidi sökülmüş vərəqlər kimi yollar, cığırlara, çöllərə səpələnmiş insan cəsədləri görən canavar bir anlıq çaşır. Bu insanlar ermənilər tərəfindən güllə-boran edilmişdi. Canavar bir-bir o cəsədlərə yaxınlaşır, hərəkətsiz adamlara elə bil TARİXİN gözüylə baxır. Əgər o ana

qədər Tarix erməni qiyafəsinə bürünüb azəri türkünün ətini parçalayan VƏHŞİLİK idisə, yırtıcı CANAVAR özü belə vəhşilikdən dəhşətə gəlir. Orta əsr vəhşiliyi ilə həyata keçirilmiş azəri "türkünün soyqırımına qiyam edən canavar donuq gözləriylə nəfəsi güclə gedib-gələn Vətənə baxır və öz köksünü didir, dərd əlindən yaxasını cırıb ulayır. Erməni vəhşiliyinə Canavarın qiyam məqamı əsərdə mən deyərdim ki, BƏŞƏRİ anlam daşıyır. Belə qırğın, Azərbaycanın üzləşdiyi faciələr dünyanın hər bir ölkəsində ola bilər. Amma Canavarın etiraz etdiyi Azərbaycan Faciəsinə Dünyanın aparıcı dövlətləri susdu... Və bu gün də yenə Azərbaycanın sərvətini daşıya-daşıya susurlar.

Tamaşanın finalı. Bu məqam içi düşündüklərindən, çölü gördüklərindən qəlpə-qəlpə olan Vətənin İMTİNA ETMƏK kişiliyi məqamıdır.

Çox az seyrçi tapılar ki, bu səhnəyə

təəssüflənsin. Amma Vətən özünü itirmir. Söz yox ki, Kürən (əməkdar artist Yasin Qarayev) epizodik rol olsa da göz yaşı içində gülüş yaradan və öz faciəsini zorən "Əhmədibiqəm" kimi yaşayan bir qəhrəmandı. O Vətən torpağını – Qarabağ torpağını təbərrik kimi boynundan asıb, özüylə gəzdirir. Əsərin finalında Vətənə: "Ə, nə vətən, vətən deyirsən, al, bu da sənə sinə torpağı..." deyir və boynundan çıxartdığı xırda torpaq kisəciyini onun üstünə atır. Ən ağır günündə – dərman pulu tapmayanda Muradın bağışladığı tapançanı satmayan Vətən ağır düşüncələrə dalır. Bir yanda Muradın avans kimi verdiyi pullar və ona böyük ümidlə baxan həyat yoldaşı Fərqanə, qızı Gülyaz, o biri yanda ATASININ Ruhu – Vətəni və Vətən kimilərini ruhsuzlaşmağa qoymayan müqəddəs Ruh (aktyor Bəxtiyar Kərimov).

Ruhun səsini dinləyəndən sonra Və-

tәn tapançanı götürür... "Ya Mәn, ya pullar, indi seçin" – deyir... Azәrbaycan qadını Vәtәni seçir. Әgәr hәr kәs puldan imtina etmәyi, Vәtәn kimi bacarsaydı, Qarabağı itirmәzdik. Hәlә çox Dәrdlәrimizә ÇARӘ tapılardı...). Seyid Nigarinin sözlәrinә yazılmış gözәl mahnı ilә tamamlanır.

İrad vә ya absurd irad. Kimsә – bәlkә Mәdәniyyәt Nazirliyinin әmәkdaşı – Atanın Ruhunun sәhnәdә dolaşmasını rejissora irad tutdu.

Görәsәn, niyә Hollivud rejissorları Ruhu gәzdirәndә alqışlanır, bizim rejissorlar gәzdirәndә qәbahәt sayılır? Sağ ikәn Ruha çevrilәn Vәtәn ölüykәn Ruhu tәslim olmayan Ata әslindә bizlәrә – QARABAĞIN taleyinә biganә qalan milyonlara İBRӘT DӘRSİ verir.

Bu әsәr Hüseynbala Mirәlәmovun – Qarabağ mövzusunda yazdığı silsilә әsәrlәrinin içindә daha mühüm mәqam-

larıyla fərqlənir. Tamaşa boyu adamın içinə axan göz yaşı kirlənmiş RUHLARIN gözünü açır, vicdanlarını silkələyir. Bizcə, bu tamaşa təkcə gənc tamaşaçılar teatrının səhnəsində yox, Qürbətdə vətənsizləşən vətəndaşlarımızın qarşısında nümayiş etdirilsə, daha çox fayda verər. Biz bütün yaradıcı heyətə uğurlar diləməklə: – kor ruhların gözünü açan yollarınız həmişə aydın olsun – deyirik.

# MÜASİR AZӘRBAYCAN REALLIĞINI ӘKS ETDİRӘN ROMAN



İmzası geniş oxucu kütləsinə yaxşı tanış olan vətənpərvər yazıçı-dramaturq Hüseynbala Mirələmov bu günlərdə çağdaş Azərbaycan nəsrinə daha bir romanını töhfə verdi. "Gənclik" nəşriyyatında işıq üzü görmüş "Gəlinlik paltarı" əsərinin mövzusu müasirlərimizin yaşantısından, cəmiyyət həyatında baş verən acı həqiqətlərdən, ailə münasibətlərindən milli dəyərlərimizə kölgə salan mənəviyyat dəllallarının iştəkləri və belə var-dövlət düşkünlərinin aqibətindən götürülüb. Müəllifin lirik-psixoloji səpkidə qələmə aldığı yeni kitabı çoxşaxəli DƏRDLƏRİMİZİ əks etdirən sosial romandır: o, həyat hadisələrində, gözlərimiz önündə dəyişən insanın mənəvi dünyasında çat verən əxlaq normalarına, ifrat zənginləşmə ehtiraslarından, xəyallarından "hamilə" olan "zəmanə adamları"nın talelərinə laqeyd qalmadığını istedadlı bir qələm sahibi kimi, bu əsərində də sübut edib.

Xalq şairi Bəxtiyar Vahabzadənin “Xəcalət” povesti haqqında dediyi: “Ürəyində göynəyib, yazıya köçürdüyü DƏRDİ oxuculara çatdıra bilmək məharətiylə məqsədinə nail olub” fikrini müəllifin “Gəlinlik paltarı” romanına da şamil etmək olar.

Cəmiyyətdə hər təzə nəsil özündən əvvəlkilərindən fərqlənməyə meylli olur. Bəzilərinin xarakteri süni və boyalı münasibətlər axarında əzəliliyini itirir, milli hissləri DƏBƏ uyğun dəyişir.

“Gəlinlik paltarı” romanı ata-baba adət-ənənələrinə sadiq qalan Sərrafla Sadiqənin toy məclisindən bir fraqmentlə başlayır. Üz-gözlərindən məhəbbət nuru əskik olmayan bəylə-gəlinin tələbə yoldaşları və dostlarının iştirak etdiyi məqam “Vağzalı” sədaları altında başa çatır. Sadə başlanğıcdır, amma maraqlıdır. Elə bu maraq romanın ilk səhifələrindən oxucunu özünə çəkir. Bəyin anası Həyat xalanın məcməyidən xış-

ma-xışma atdığı konfetlərdən biri gəlinlə bir qrupda oxuyan Fənayənin üzünə dəyir. Əsərin əsas qəhrəmanı olan bu qızın varlığı titrəyir. O, gəlinlik paltarında gözəl mələyi xatırladan Sadiqə ilə özü arasında dərin bir uçurum görür. Və ömrünün son beş ili kino lenti kimi gözlərinin önündən gəlib keçir. Bəxt aynasından boylanan kişiləri xəyalında canlandırır... "Axı bu gəlinlik paltarını mən də geyə bilərdim" deyir.

Geyinə bilərdi! Ancaq keçmişi xatırlayanda nə özünə haqq qazandıra, nə də qınaya bilir. Bu andan başlayaraq Fənayənin peşmançılıq hissi, iztirabları artırmağa başlayır. Şerlərində RUHUN azadlığını tərənnüm eləyən gənc şairənin öz ruhu sıxılır:

*"Çimmək istəyirəm*
*bir sevgi dənizində.*
*Bu dənizin suları*
*yuyar günahlarımı..."*

Bir vaxtlar "bacarana baş qurban" deyə, rəvac verdiyi ehtiraslara bakirəliyini qurban vermişdi. Elə həmin gün nənəsindən əmanət qalan üzüyünün qaşını itirmişdi: "Bəxtimi itirmişəm, yoxsa üzüyümün qaşını?" Bu poetik sualın cavabını artıq HƏYAT vermişdir. Amansız mübarizə meydanı olan həyat!.. Hər hansı cəmiyyətdə heyvanlar aləmində mövcud olan QANUNLARIN hökm sürməsi, mövcud şəraitin hiyləgərlərə, riyakarlara, ŞƏR qüvvələrə rəvac verməsi və bütün bunlara demokratik "don" geyindirməsi böyük sosial bəlalar törədir.

Hüseynbala Mirələmovun üstünlüyü ondadır ki, bu əsərində təbiətdə cəmiyyətin həyatında baş verən hadisələrin paralelliyini təbii boyalarla göstərə bilib.

Haris – qəlbinin dərin guşəsində TAMAH yuva salmış, amma üzdə xeyirxah, sevən kişi təsiri bağışlayan bir "iş adamının" obrazıdır. Öz bakirəliyini təmən-

nasız ona təslim edən gənc Fənayəyə belə, o, bazara çıxarılacaq mal kimi baxır. Ərəblərlə işbirliyi quran Haris öz ölkəsinin gənc qızlarına vəhşi heyvan iştahıyla baxır, onları Dubaya yollamaq – satmaq yolu ilə günü-gündən varlanıb, şişir.

“Mənə sənin uşağın lazım deyil. Mənə sənin gətirəcəyin gəlir lazımdır. Sən artıq mənim üçün pulsan, valyutasan” – deyə düşünən Haris Fənayəyə: “Əgər imkanım olsaydı, Azərbaycandakı bütün qızları yığıb, göndərərdim Dubaya” fikrini də utanıb-çəkinmədən bəyan edir. Gözlərindən vəhşi, canavar hərisliyi yağan bu var-dövlət düşkünü Fənayənin fikrincə, öz doğma anasını, bacısını, hətta onun özünü də Dubaya göndərməyə qadirdir.

Haris isə öz hərisliyinin günahını yaşadığı CƏMİYYƏTDƏ görür: “Bu cəmiyyətdə ən şərəfli iş pul qazanmaqdır” deyən işbazın maşınları, şirkətləri, res-

toranları, bir çox obyektləri olsa da, Bakının ən varlı adamı olmağı qarşısına məqsəd qoyub: Dərbənddən Azərbaycanın cənub sərhədlərinəcən gözəl istirahət evləri, külli miqdarda qazanc gətirən nəhəng ticarət mərkəzləri yaratmaq istəyir. Bu məqsədə nail olmaq üçün şirin vədlər verdiyi gənc qızları yoldan çıxarıb, Dubaya göndərir.

Bəli, Vətənə xəyanətdən tutmuş hər cür cinayətlərə səbəb olan TAMAH hissi, özbaşınalıq görün müəllifin naturadan kağıza köçürdüyü müasir Azərbaycanımızı nə hallara salıb? Bu başabəla iş adamlarının hərraca çıxarıb, xaricə satdığı təkcə maddi sərvətlərimiz deyil, həm də xalqımızın mənəvi dəyərləridir... Görəsən, zəngin keçmişə, gözəl milli adət-ənənələrə malik olan bir millətin indiki övladlarının öz talelərinə biganəlik hissi nə vaxtacan hökm sürəcək?!

Ancaq əsərdə Haris kimilərinin AQİBƏTİ – ona verilən "ilahi cəza" bütün

çirkin əməl sahiblərinə İLAHİ xəbərdarlıqdır... Məncə, bu mənada “Gəlinlik paltarı” romanı bütövlükdə məsləksiz “iş adamlarına” yaxşı ibrət dərsidir.

Harislərin, zinayələrin, rahibələrin faciəsinə səbəb olan amillərdən biri də vicdanlı, təmiz adamlara az qala keçmişin qalığı kimi baxmaqlarıdır.

Abırlı-ismətli, dərslərini yaxşı oxuyan tələbə yoldaşı Sadiqə barədə düşünəndə “elə bil ki, bu əsrin qızı deyildir”-deyə düşünür Fənayə. “Gəlinlik paltarın, kim düşünüb görəsən bu bəmbəyaz qəfəsi? O bəzəkli, zər-zibalı qəfəs ancaq zəifləri, cılızları qorxuda bilər” (səh 156) “fəlsəfəsiylə” yaşayır.

“Fənayənin ağlına gəldi ki, vaxtı keçmiş, üfunət qoxuyan adət-ənənələrdən bu dünyanı təmizləmək üçün yağır bu yağış” (səh 213).

Rahibə “yaxşı yaşamağın bircə yolu var, o da puldur, pullu adamı hamı ağıllı, namuslu hesab edir” (səh 421) “Sevgi-

ni, mәhәbbәti kim uydurub? Onun bu zәmanәyә heç bir dәxli yoxdur. Әgәr, indi pul ağılsızı ağıllı, çirkin gözәl göstәrә bilircә, demәk ölçülәr dәyişib, düşüncәlәr dәyişib, mәn nә vaxtacan evdә oturub rahibәlik edәcәyәm? "(sәh.422) düşünür. Әsәrdә fәlsәfi düşüncәlәr, paradoksal mәqamlar, tәbii çalarlar çoxdur.

Romanda yüksәk ustalıqla qәlәmә alınan obrazlardan biri dә rәssam Yusifcandır. Әsasәn zirzәmi şәraitindә yaşayıb-yaradan sәnәt adamlarını "tәmsil" edәn bu personajın fәrdi taleyini, yaradıcılıq eşqini, xarakterini müәllif oxuculara çox sәmimi, poetik dillә tәqdim edir. Hәr bir şair, yazıçı, bәstәkar, rәssam yeni әsәrini "meydana qoyanda" ona elә gәlir ki, daha güclüsünü, yaxşısını yarada bilәr. Vә hәr bir yaradıcı adam kimi Yusifcanın da öz aurasında, halәsindә bir qanadlı mәlәk, ilham pәrisi dolaşır. O nә qәdәr әlçatmazdırsa, yaradıcılığı boyu onu arayıb-axtarır, "vü-

salına" can atır. Yusifcanı yeni-yeni tablolar, rəsm əsərləri yaratmağa sövq edən EŞQ onu yeni yaradıcılıq axtarışlarına səsləyir. Sənətkar bu məqamda sanki Məcnun kimi "Yarəb, bəlayi eşq ilə qıl aşina məni" deyə nalə çəkir. Və günlərin bir günü öz ilham pərisinə qovuşanda şam kimi əriyib-tükənir, həm mənən, həm də cismən ölür. Yazıçı bu obrazın ruhi aləminə səriştəli bir rəssam kimi işıq zolağı salır.

Rəssamın yaratdığı son tablonu və onun öz ölüm səhnəsini müəllif o qədər duyğulu qələmə alır ki, sanki əlinə fırça götürüb, rəngli boyalarla Yusifcanın portretini oxucunun gözləri qabağında çəkir.

"Çılpaq Maxa", "Yatmış Venera", Harisin "Ehtiras" mənasını verən "Satir" restoranının divarlarındakı yarımvəhşi kişi və qadın rəsmləri barədə bədii təsvirləri əsərin müəllifinin rəssam-

lıq sənətindən hali olduğundan soraq verir.

Keçmiş insanla bu günkü insan arasında bənzərlik əsərin məzmununun alt qatlarında olan dərin mənaların üzə çıxarılmasında müəllifin istifadə etdiyi özünəxas, bədii üslubdur. Bu bənzərliyin fövqündə insanın öz iç dünyasında bənzərsiz, qəribə xislətə malik olduğu duyulur.

Həyatda talelərin qəribə yarışı gedir. Əsərdə isə cıdırda yarışan atların birinə Fənayə “Güclü”, digərinə-Harisin seçdiyinə “Qismət” adı verəndə: “Adlar nəyi həll eləyir ki?” soruşan Harisə belə cavab verir: “Ad da taleyin qismətidir. Bəlkə də bütün canlılar öz adlarına uyğun yaşayırlar”.

...Finişə çathaçatda gözlənilməz hadisə baş verir “Qismət” büdrəyən atlardan birinə toxunub, aşır və boynu qırılır. “Güclü”– Fənayənin atının təsadüfi qələbəsi haradasa, romanın bədbin fina-

lından ilkin soraq verən, yaddaqalan, maraqlı səhnələrindən biridir. Bu səhnəyə görə yarış təşkilatçılarının tamaşaçılardan üzr istəməsini Harislə Fənayə başsağlığına oxşadırlar.

Fənayənin fikrincə, cəmiyyətdə olan zalımlıq həm də onun yaşam gücüdür. Və təsəvvüründə canlandığı güclü at obrazı da Fənayənin ideallarına uyğun gəlirdi. Lakin "mənəviyyat həmişə döyüşdədir" deyən keçmiş döyüşçü Fədai ona cıdıra gələrkən xəbərdarlıq eləmişdi:

– "Ayağınızı ehtiyatla atın". Və Fənayənin: "Minalanmış sahə ola bilər? ... Müharibə zonası Bakıdan çox uzaqlardadır" sözünə ayağı minaya düşmüş Fədai: "Burada talelərin müharibəsi gedir. Talelərin döyüşü daha dəhşətlidir" – deyə cavab vermişdir. Bu sərrast məntiqin qarşısında Fənayə daxilən səntirləyib, büdrəmişdi.

Yeri gəlmişkən, qızın sevgisini sədəqə kimi istəməyən qəzetsatan Fədai ob-

razını yaradarkən müəllif öz ənənəvi üslubuna sadiq qalaraq bu əsərində də Qarabağ mövzusunu unutmur. Əslində unudulan, talelərinə biganə münasibət bəslənən, torpaq, vətən uğrunda döyüşmüş və yenə döyüşməyə hazır olan Fədai kimi oğulların güzəranını təəssüf hissiylə qələmə alır.

"Gün gələcək, qızlar sizi cəngavər kimi qarşılayacaq, sizin arvadınız olmaqla fəxr edəcəklər. Yaralananları, əlil olanları xalq gözünün üstündə saxlayacaq". Bu sözləri düşmən əhatəsində olarkən komandiri demişdi Fədaigilə. İndi isə şəhərdə aşiq olduğu qızın qəlbində tamam başqa hava çalındığını duyub, geri çəkilməyə məcbur olmuşdu.

Fənayənin Fədai ilə söhbətləri, xəyali dialoqları, həmişə iç dünyasına boylananda bu qəzetsatanı, keçmiş döyüşçünü görməyi, hətta intihar ərəfəsində: "Kaş Fədaini son dəfə görüb ona deyə biləydim, tüpür bu Harisəoxşarların

murdar sifətinə" arzusu "Gəlinlik paltarı" romanında BÜTÖVLÜK yaradır.

Bu bütövlük, mükəmməllik namusu VƏTƏN kimi, Vətəni də NAMUS kimi qorumağa ÇAĞIRIŞDIR. Özü də bu çağırış başı daşdan-daşa dəyən, müəllifin öz təbirincə desək, keçmişini xəyalında "vərə-vurd" edən, doğma atası, köksünə baş qoyduğu kişi tərəfindən fahişə kimi Dubaydakı şəriklərinə satılmasından duyuq düşən Fənayənin dilindən səslənir.

Fədai obrazı əslində Hüseynbala Mirələmovun "Yaddaş ağrısı"nda yaratdığı Vətənin RUHİ qardaşıdır. Qəlblərində Vətən, Torpaq sevgisi tükənməyən bu obrazlarla zəngin mənəviyyatı olan adamların maddi durumu, kasıb gün-güzaranı ön plana çəkilir.

Doğrudanmı, sivilizasiya bu qədər qəddar və amansızdır, insanları əqli bərabərsizliyə, maddi və mənəvi bataqlıqlara sürükləyir?

Eynən "Gəlinlik paltarı"ndakı rəssam Yusifcan kimi, yazı masasının arxasında keçinən Nikolay Berdyayev deyirdi ki, azadlıq axtarışları bəşər övladını dönə-dönə aldadıb, onu bir köləlikdən başqa bir köləliyə aparıb.

Bəlkə cəmiyyətin həyatında baş verən proseslərə seyrçi münasibət bəsləmək meyli də mənəvi köləliyin acı nəticəsidir?!

Müəllifinsə hər əsərində olduğu kimi, "Gəlinlik paltarı"nın mayasında da aydın yazıçı mövqeyi ilə yanaşı, vətəndaş təəssübkeşliyi, əsl Azərbaycan kişisinə xas olan QEYRƏT hissi dayanır.

"Xarici ölkələrdən Azərbaycana mənəviyyat ixrac eləmək olmaz. Bu bir qürur məsələsidir və bizi sındırır" (səh.191).

Və ya "Bir zaman bu suyu çəkdirən kişinin ağlına da gəlməzdi, elə zaman gələcək ki, onun dağlardan yüz kilometrlərlə uzaq məsafədən çəkib gətirdi-

yi bulaq suyunu əcnəbilər onun öz millətinə satacaqlar" (səh.316). Kim bilir, bəlkə elə kimyəvi dərmanlar qatıb, plastik qablara doldurub, müxtəlif adlarla bizlərə satılan o suların "sayəsində" DOĞMA DƏRDLƏRİMİZƏ bu qədər ÖGEY münasibət bəsləyirik?!

Ancaq "Gəlinlik paltarı" romanı təkcə könüllü olaraq ana olmaqdan imtina edən, gəlinlik paltarına qəfəs, ailə həyatına məhbəs kimi baxan qızlara deyil, onların taleləri ilə alver edən, pul düşkünü olan Haris kimi iş adamlarına, onların fəaliyyətinə münbit şərait yaradan dövlət məmurlarına da gərəkli bir ibrət məktəbidir.

Əsərdə xaricə mənəviyyatını satan adamların adlarına ayrı-ayrı banklarda pul qoyulduğundan bəhs olunur. Və guya indi qanun belə şeyləri yoxlamağa imkan vermir, nənəsi ölmüşdü Sovet hökumətinin, kimin harda nəyi vardı, bilməliydi. (səh.386). Görəsən, indi bu qadağa-

ları, qanunları kimlər düşünüb, nə üçün icad edib?

Əsərdən lap aydın görünür ki, bu gün Azərbaycanın üzləşdiyi durum onun siyasətçilərindən, yüksək postlar tutmuş çinovniklərindən daha çox yazıçısını düşündürür, narahat edir! Bəli, bu əsəri ilə H.Mirələmov vaxtın fövqündə dayana bilib, əsərdə bədii həllini tapan problemlərin də cəmiyyət həyatında öz əksini tapması üçün həyəcan təbili döyür. Çünki onun qələmə aldıqları çoxşaxəli DƏRDLƏR son on ilin acı bəhrəsidir.

*“**Mars**” jurnalı №6,*
*2004-cü il.*

# DEPUTAT KÜRSÜSÜNƏ GEDƏN YOL

***... İnsanlar danışmaqları, gülməkləri, yeriməkləri, yemək və yatmaqları ilə bir-birinə oxşayırlar. Dəstə-dəstə bir tərəfə gedir, dəstə-dəstə haradansa qayıdırlar, amma heç vaxt bir yerdə deyillər.***
***Hər kəsin öz yolu var.***
***Hər kəs öz yolunu getməli, hər kəs öz ömrünü yaşamalıdır...***

***Hüseynbala MİRƏLƏMOV***



# DEPUTATLIQ SƏLAHİYYƏTİ

**33 saylı Xətai birinci seçki dairəsindən Azərbaycan Respublikası Milli Məclisinə deputatlığa namizəd Hüseynbala Mirələmovla kiçik müsahibə**

***– Hüseynbala müəllim, bilirik ki, Azərbaycan Respublikası Milli Məclisinə namizədliyiniz Yeni Azərbaycan Partiyası tərəfindən irəli sürülüb. Siz xalq elçisi mandatını alandan sonra daha çox səlahiyyət qazanacağınıza inanırsınızmı?***

– Xalq elçisi olmağın bircə səlahiyyəti var. O da seçicilərinin sənə onların adından danışmaq ixtiyarı verməsidir. Bu səlahiyyətin arxasında isə narahat, ağrılı-acılı günlər, gərgin zəhmət var. Yaxşı yaşayan, işi, mənzili olan seçici çətin ki, deputata müraciət edə, tapşırıq verə. Vay o günə ki, sənə səs verən seçicilərinin iş yeri olmaya, qışda qazları, yayda suları kəsilə, kanalizasiya xətləri yararsız hala düşə. Övladlarının təhsil-tərbiyə aldıqları məktəblər, uşaq bağçaları baxımsızlıq üzündən bərbad vəziyyətdə ola. Ən çətini isə həmin rayona rəhbərlik edənlərin yalnız öz mənafelərini güdmələri, yuxarılardan göstərişsiz

daşı-daş üstə qoymamaları, hüquq-mühafizə orqanlarının işçiləri özlərini ərazisinin mütləq hakimi kimi hiss etmələridir. Bu və ya buna bənzər problemlərin içində deputatın hansı səlahiyyətindən danışmaq olar? Belədə deputat çətin mübarizəyə atılır və qalib gəlməsi üçün seçicilərinə arxalanır. Qalibiyyət isə insanların problemsiz həyat şəraitindən sonra gəlir.

***– Seçkisiz, fərmansız, sərəncamsız, əmrsiz verilən səlahiyyətlər də var.***

– Heç şübhəsiz. Hansı göstərişlə insanın qəlbinə yaxşılıq, xeyirxahlıq, vətənpərvərlik, əliaçıqlıq, ətrafdakılara gərək olmaq duyğusu doldurmaq olar? Ağsaqqallıq, müdriklik, uzaqgörənlik, cəsurluq, igidlik səlahiyyətləri də eyni kateqoriyalı məsələlərdi. Həyatım boyu çalışmışam ki, Vətənimə, xalqıma gərək olum. Bayrağımın, gerbimin, Konstitusiyamın, himnimin müqəddəsliyini hamının dərk etməsini əsil xoşbəxtlik bil-

mişəm. Səs verib seçdiyim prezidentim inanc, güvənc yerimdir.

Bizim hamımızın – bütün Azərbaycan xalqının – bir milyondan çox qaçqın və köçkünümüzün, ən ucqar dağ kəndində yaşayan 100 yaşlı qocanın, bircə saniyə əvvəl doğulmuş körpənin Azərbaycanın tam hüquqlü vətəndaşı olmaq səlahiyyəti var.

Xəstənin imkanından, vəzifəsindən asılı olmayaraq müalicə olunmaq, kasıbın rahat evdə yaşamaq, bir sözlə hamının firavan həyat sürmək səlahiyyəti var. Bax, işlərimiz o zaman yağ kimi gedəcək ki, hər kəs öz səlahiyyətindən istifadə edə bilsin və bir də kimsə öz səlahiyyət həddini aşmasın.

***– Deputat mandatına sahib olacağınıza şübhəmiz yoxdur. Sağlıq olsun, seçicilərinizlə münasibətlərinizi necə quracaqsınız?***

– Əgər seçilsəm, münasibətlər mə-



nim necә fәaliyyәt göstәrmәyimdәn, verilәn tapşırıqları hansı sәviyyәdә yerinә yetirәcәyimdәn asılı olacaq. Seçicilәrimin qәbuluma gәlәcәklәrini gözlәmәyәcәyәm. Lazım gәlәndә hәr ailәyә atamın, qardaşımın, bacımın, oğlumun, qızımın evi kimi baş çәkәcәyәm. Çalışacağam ki, qaldırılan problemi rayon rәhbәrliyinin, yerli icra strukturlarının kömәyi ilә hәll edim. Xәtai rayonunda yaradacağım “Deputatla görüş otağı”nın işini elә quracağam ki, seçicilәrimin hәr



hansı bir məsələ üçün Milli Məclisə gəlməsinə ehtiyac qalmasın.

– *Sizi ən yaxşı qarabağlı adlandıran qaçqın və köçkünlər onları unudacağınızı düşünsələr necə?*

– Əslində Sizdən gözləmədiyim sualdır. Çünki məni çoxdan tanıyırsınız. Tanışlığımızın tarixi ermənilərin Qarabağ iddiası ilə Xankəndindəki mərkəzi meydanda bar-bar bağırdıqları vaxtlardan başlayır. O zamandan keçmiş Dağlıq Qarabağ Muxtar Vilayətinin azərbaycanlılar yaşayan şəhər və kəndlərinə



tez-tez gələr, erməni terrorunun, erməni hiyləgərliyinin, "Böyük Ermənistan" xülyasında olan daşnakların hücumuna, təhqirlərinə məruz qalan insanlara köməyimi əsirgəməzdim. Dəfələrlə, elə sizin özünüzlə, azərbaycanlıların yaşadıqları və ermənilərin blokadaya aldıqları ucqar kəndlərə yanacaq, digər maddi yardım aparanda pusquya düşmüş, təsadüf nəticəsində sağ qalmağımız mümkün olmuşdur. Lakin ermənilərin, Moskvanın Dağlıq Qarabağa göndərdiyi canişinlərin hədə-qorxularına baxmaya-



raq, hər həftə həmvətənlərimin yanında olmağı özümə borc bilirdim. Demək olar ki, Meşəlidə, Kosalarda, Daşbulaqda, Göy talada, Narınclarda, Umudluda, Qaradağlıda, Dağlıq Qarabağla həmsərhəd olan rayonlarda – Laçında, Kəlbəcərdə, Zəngilanda, Füzulidə insanların əksəriyyətini yaxından tanıyırdım. Yaxşı dostlar qazanmışdım. O müqəddəs diyarı qarış-qarış gəzməyim, insanlarına, təbiətinə dərindən bələdliyim, sonralar

bədii yaradıcılığımda çox köməyimə çatdı. Qarabağ mövzusunda yazdığım əsərlərin əksəriyyəti tanıdığım, çörəyini yediyim, suyunu içdiyim, xeyir-şər məclislərində iştirak etdiyim obaların, ellərin zorla düçar edildikləri faciələrdən bəhs edir və həmin əsərlərin qəhrəmanlarının əksəriyyəti bu gün yaşayırlar.

Bilirsiniz, mənim nəzərimdə bu gün hər bir azərbayacanlı, Vətən, millət, torpaq, namus qədri bilənlərin hamısı qarabağlıdır, özü də ən yaxşı qarabağlıdır. Şübhəsizdir ki, bütün rayonlarda olduğu kimi, Xətai rayonunda da erməni vandalları tərəfindən faciələrə düçar edilmiş, yurd-yuvalarından, qədim dədə-baba torpaqlarından vəhşiliklə qovulmuş on minlərlə qaçqın və məcburi köçkün məskunlaşmışdır. Onların ayrı-ayrılıqda qayğılarına qalmaq hamımızın borcudur. Lakin bu, Qarabağ probleminin həlli demək deyil.

*– Sizin təklifiniz?*

– Biz ona çalışmalıyıq ki, hamını öz ocağına qaytaraq. Ölkə Prezidenti İlham Əliyev cənablarının çalışdığı da budur. O istəyir ki, məsələ qan tökülmədən, sülh yolu ilə həll edilsin. Lakin ermənilər işğalçılıq siyasətindən əl çəkmirlər. Belə olduqda prezidentimizin dediyi kimi, qüdrətli ordumuzun gücü ilə torpaqlarımızı yağılardan təmizləyəcək, Azərbaycanın ərazi bütövlüyünü təmin edəcəyik.

*– Müsahibəyə görə sağ olun.*

# SEÇİCİLƏRLƏ GÖRÜŞLƏR

33 saylı Xətai birinci seçki dairəsindən Azərbaycan Respublikası Milli Məclisinə deputatlığa namizəd Hüseynbala Mirələmovla seçicilərin iki görüşü keçirilmişdir.

Görüşləri giriş sözü ilə namizədin vəkili Əli Mahmud açaraq H.Mirələmovun həyat və fəaliyyəti barədə məlumat vermişdir.

Seçki dairəsini əhatə edən binaların sakinlərindən F.Cəfərov, Ə.Kamalov, İbrahimov, B.Hüseynov, səksən yaşlı tənha qadın Şamama xanım, H.Əliyev,

C.Məmmədov, Milli Məclisin deputatı H.Rəcəbli, namizədin vəkili A.Hacızadə Azərbaycanın Milli Qəhrəmanı Turab Məmmədov, şəhid anası Əsmət xanım, jurnalist Reyhan xanım, Qarabağ Müharibəsi Veteranları Cəmiyyəti Xətai rayon şöbəsinin sədr müavini F.Tərtərli, S.Mustafayev, Polad Həsənov və başqaları çıxış edərək həlli vacib problemlərdən söhbət asdılar, onların aradan qaldırılması üçün kompleks tədbirlər planı hazırlanması və Dövlət büdcəsindən vəsait ayrılması zərurətindən danışdılar. Onlar qeyd etdilər ki, artıq əvvəlki seçkilərdə bizə verilən yalançı vədlərdən usanmışıq. İndi bizə dil pəhləvanları deyil, Hüseynbala Mirələmov kimi həyat təcrübəsi, idarəçilik qabiliyyəti, xalqla işləmək səriştəsi olan, sonuncu tikəsini başqaları ilə bölməyi bacaran, sonuncu manatını ehtiyacı olandan əsirgəməməyi bacaran, ölkə iqtisadiyyatının sürətli inkişafı naminə daha işlək qanunların




qəbuluna çalışacaq elçilər gərəkdir. Biz öyrənib bilmişik ki, bu keyfiyyətləri özündə birləşdirən Hüseynbala Mirələmovdur və ona da səs verəcəyik.

Doğrudur, 33 saylı Xətai birinci seçki dairəsindən namizədliklərini irəli sürənlərin sayı 30 nəfərə yaxındır. Biz onların bəzilərini, daha dəqiq desək, Qabil Hüseynli, R.Mirqədirov, Anar Allahverdiyev, Zəlimxan Məmmədli kimilərini yaxşı tanıyırıq. Bilirik ki, onlar söz dəllalları, dil pəhləvanları, özlərinə vurğun insanlardı. Onlardan hansı birisə depu-

tat mandatına sahib olduğu gündən bizimlə, bizim qayğı və problemlərimizlə vidalaşacaq, yalnız özlərinə və yaxın ətraflarına gün-güzəran qurmağa çalışacaqlar. Odur ki, biz belələrinə etimad göstərmək fikrindən çox-çox uzağıq.

Deputatlığa namizəd Hüseynbala Mirələmov qısa və konkret danışdı. Qeyd etdi ki, əgər siz seçicilərim mənə adınızdan danışmaq səlahiyyəti versəniz, etimadınızı doğrultmaq üçün bütün imkanlarımı səfərbərliyə alacaq, seçiminizdən yanılmadığınızı sübut edəcəyəm. Mən sizin problemlərinizdən xəbərdaram. Çoxunuza məlumdur ki, uzun illər Xətai rayonunda məsul vəzifələrdə çalışmışam. Həmin illərdə rayonda aparılan quruculuq-abadlıq işlərində mənim də payım var. Lakin indi sizə həmişəkindən daha çox qayğı gərək olduğunu yaxşı bilirəm. İşıqlar fasilələrlə yanır, hər küçənin yolları rahat deyil, məktəblərdə, xəstəxana və poliklinika-




larda işlər tam qaydasına düşməyib. Ölkə Prezidenti İlham Əliyev cənablarının yeni iş yerləri yaradılması ilə bağlı məlum fərmanından irəli gələn vəzifələr uğurla yerinə yetirilsə də, işsizlik problemi tam həll olunmayıb. Şəhərlərarası nəqliyyatın işindən də narazısınız. Bütün bunları yoluna qoymaq istiqamətində Xətai Rayon İcra Hakimiyyəti də gərgin iş aparır. Əgər mənə səs versəniz, hər şeyin sizin istəyinizcə olması, bu rayonun sosial-iqtisadi inkişafı üçün hökumət qarşısında məsələ qaldıracaq, Xətai

rayonuna dair Dövlət proqramı qəbul edilməsinə nail olacağam. Çalışacağam ki, seçicilərim heç vaxt mənim qəbuluma gəlməsinlər. Mən özüm həmişə onların yanında olum.

**“Qarabağa aparan yol”**
№1, 28 sentyabr 2005-ci il.

# *Payızın son yeddi anı...*

**Azərbaycan Respublikası Mili Məclisinə 33 saylı Xətai birinci seçki dairəsindən deputatlığa namizədliyi Yeni Azərbaycan Partiyası tərəfindən irəli sürülmüş Hüseynbala Mirələmovun seçicilərlə görüşlərindən fraqmentlər**

# *Birinci an...*

## Təbiət dəyişir, cəmiyyət yeniləşir

...Təbiətin gecələr sayrışan ulduzları, gündüzlər işıq saçan günəşi, dağlardan əsən mehi, dənizlərdə coşan dalğası, yazı yaya, yayı payıza qovuşan fəsilləri var. İndi ana təbiət taxtı-tacı qızıl payıza verib. Hərdən soyuq küləklər də əsir, yağışlar da yağır. Bu, cəmiyyətin həyatında mühüm rol oynayacaq parlament seçkilərinə gedən məqamlara heç bir xələl gətirmir. Cəmiyyət də öz sözünü demək üçün kürsünü ləyaqətli vəkillərinə verməyə hazırlaşır. Yeni Azərbaycan Partiyası tərəfindən 33 saylı Xətai birnci seçki dairəsindən Azərbaycan Respublikası Milli Məclisinə deputatlı-

ğa namizədliyi irəli sürülmüş Hüseynbala Mirələmovun seçicilərlə gur və maraqlı keçən görüşləri bunu bir daha təsdiq edir. Silsilə şəklində davam edən bu görüşlər zamanı namizədin vətənpərvərliyi, işgüzarlığı, içtimai-siyasi xidmətləri, ədəbi uğurları, səmimi münasibətləri onun namizədlər arasında necə böyük üstünlüyə malik olduğunu bariz şəkildə göstərir. Gənc nəslin, ağsaqalların, ağbirçəklərin, bir sözlə, bütün təbəqədən olan seçicilərin həvəslə iştirak etdiyi görüşlər zamanı yekdilliklə bir fikir vurğulanır ki, onları Milli Məclisdə Hüseynbala Mirələmov kimi tanınmış, görkəmli, iqtisadiyyatı gözəl bilən, xeyirxah bir insan təmsil etsin.

# *İkinci an...*

## H.Mirələmov: "Xətai rayonu mənə çox doğmadır!"

Həyatda çox şey yaxşını yamandan ayırmaq bacarığından asılıdır. Bu qərinələrin sınağından çıxmış bir deyimdir: Seçim olmayan yerdə mükəmməllik ola bilməz! Seçmək, özü də ən yaxşısını seçmək qabiliyyətinin üstünlüyüdür. Böyük ispan mütəfəkkiri Baltasar Qrasian seçmə qabiliyyətini Allahın adama verdiyi ən gözəl vergilərdən biri adlandırıb. H.Mirələmovun seçki qabağı görüşlərində mən bunun bir daha şahidi oldum. Və hiss etdim ki, başqa namizədlərdən fərqli olaraq Hüseynbala müəllimin Xətai rayonu və onun sakinləri ilə

tanışlığının tarixi bir-iki ilin söhbəti deyil. Özünün dediyi kimi, onu bu rayona qırılmaz tellər bağlayır. Əmək fəaliyyətinin böyük bir dövrü də bu rayonun adı ilə bağlıdır.

"Niyə siz məhz Xətai rayonundan millət vəkili olmaq istəyirsiniz?",– sualına namizədin cavabı:

– Mən uzun müddət Xətai rayonunda rəhbər vəzifələrdə çalışmışam. Burada Maye-qaz İstehsalat Birliyinin baş direktoru, Azərbaycan Dövlət Yanacaq Komitəsinin birinci müavini olmuş, bir neçə il də həmin komitənin sədrini əvəz etmişəm. Fəxrlə deyə bilərəm ki, mən Yeni Azərbaycan Partiyasının Xətai rayonunda ilk yaradıcılarından biriyəm. Yaxınlıqda yerləşən Bakı Kino-teatrında YAP-ın Xətai rayon təşkilatının ilk təsis konfransını keçirmişik. İndi biz xalqımızın həyatında çox mühüm mərhələni yaşayırıq. Mən Yeni Azərbaycan Partiyasının bu dairədən irəli sürdüyü vahid namizədəm. Sizi hansı məsələlər,



problemlər narahat edirsə, deyin. Mən çalışacağam ki, onları həll edim.

Yerdən seçici replikası:

– Hüseynbala müəllim, biz sizi yaxşı tanıyırıq. Bilirik ki, problemlərimizi həll edən sizin kimi xeyirxah və bacarıqlı şəxs ola bilər, başqaları yox. Biz hamımız sizə səs verəcəyik.

# Üçüncü an...

## Vağzalı sədası və "Gəlinlik paltarı"

Seçicilərlə görüş zamanı Məhsəti küçəsindəki binaların birindən bəylə gəlin qohumlarının və doğmalarının müşayəti ilə şadlıq evinə – toy mərasiminə yollanırdı. Hüseynbala Mirələmov bir ağsaqqal və tanınmış yazıçı kimi yeni ailə quran gənclərə xeyir-dualar verib, özünün keçən il işıq üzü görmüş "Gəlinlik paltarı" kitabını onlara təqdim etdi.

Sarayev küçəsində məhəllənin ağbirçəyi, qəhrəman ana Zərifə Nəsirova deputatlığa namizədə xeyir-dua verərək bütün seçicilərə müraciət etdi:

– Gəlin, elə seçim edək ki, sabah bir-

birinə rast gələndə, heç kəs utanmasın. Onu da deyim ki, binamızın həyətində uşaq meydançasına, xeyir-şər məclislərinin keçrilməsi üçün tikiliyə ehtiyac var. Xahiş edirəm Hüseynbala müəllim, inşallah, deputat seçiləndən sonra bu məsələlərin həllinə çalışsın.

Seçici Nazim Cəfərov isə bildirdi ki, deputatlığa namizəd Azərbaycanda və onun hüdudlarından kənarda yaxşı tanınır. İşgüzarlığına görə fəxri adlar, çoxlu mükafatlar almışdır. Onun bacarıqlı rəhbər olması, ictimai xadim kimi fəaliyyəti yaxşı millət vəkili olacağına təminat verir. Mən hamınızı 6 noyabrda Hüseynbala müəllimə səs verməyə çağırıram.

# *Dördüncü an...*

## Qəlbi Qarabağla döyünən insan

Tanınmış tarixçi Firuz Həşimov Hüseynbala müəllim haqqında seçicilərə ətraflı məlumat verdi. Onun ən ağır günlərdə Qarabağa yardım etdiyindən söhbət açdı. Dedi ki, Hüseynbala müəllim həmin günlərdə yük maşınının kabinəsinə əyləşib Əsgəranın, Ağdərənin, Xocalının, Laçının və Şuşanın ucqar kəndlərinə ən təhlükəli yollarla yanacaq aparıb. Amma bunun müqabilində "mükafatı" nə olub? Xalq Cəbhəsi hakimiyyətə gələndə onu vəzifədən kənarlaşdırıb.

Seçici Lüdmila Abdullayeva isə namizədin seçkiqabağı platformasını tədbir iştirakçılarına göstərib dedi: – Mən



azərbaycanca yaxşı danışa bilmirəm, ancaq hamınızı bu şəkildə gördüyünüz adama səs verməyə çağırıram. *(Yerdən alqış sədaları ucaldı)*

# *Beşinci an...*

## "Mən Hüseynbala müəllimin seçicilərinə qibtə edirəm"

Respublikanın Xalq artisti Zümrüd Məmmədova Azərbaycanın virtioz sənətkarı Aftandil İsrafilova üzünü tutub dedi:

– Ay Aftandil müəllim, mən bu rayonun seçicilərinə vallah qibtə edirəm. Deyirəm, bəlkə biz də köçüb bura gələk?! Kaş, Hüseynbala müəllimin namizədliyi Səbayel rayonundan irəli sürüləydi. Mən Hüseynbala müəllim kimi işıqlı, nurlu, xeyirxah bir insanın seçicisi olmaqdan böyük məmnunluq duyardım. Onun bütün yaxşı əməlləri, qədir-



bilənliyi, zəhmətsevərliyi öz mənbəyini kökündən – əsil-nəcabətindən götürür.

Görüşlərdə Şuşa Dövlət Dram Teatrının drektoru, respublikanın əməkdar artisti Yadigar Muradov, tanınmış müğənni, respublikanın əməkdar artisti Gülüstan Əliyeva, məşhur qarmonçalan Aslan İlyasov, müğənni Fəqani Əliyev, respublikanın xalq artistləri Zümrüd Məmmədova, Aftandil İsrafilov və başqalarının iştirakı ilə seçicilərə xeyriyyə konserti verilir...

# Altıncı an....

## "Namizədliyimi Hüseynbala Mirələmovun xeyrinə geri götürürəm!"

5 saylı liseyin drektoru Mərhəmət Aslanova seçicilərə müraciətlə bildirdi ki, mən özüm də Milli Məclisə 33 saylı Xətai birinci seçki dairəsindən deputatlığa namizədliyimi irəli sürmüşəm. Bu ərazidə yaşayan bütün sakinlər məni çox yaxşı tanıyırlar, ona görə bu görüşdə mən öz namizədliyimi geri götürürəm və mənə səs vermək istəyən bütün seçiciləri Hüseynbala Mirələmova səs verməyə çağırıram! Hüseynbala müəllim gələcəkdə bu ərazidə yaşayan sakin-



lərin problemlərini həll etmək üçün tükənməz gücə və enerjiyə malikdir. Mən isə namizədliyimi onun xeyirinə geri götürməklə sizin balalarınıza elm, təlim-tərbiyə və təhsil öyrətmək kimi şərəfli işimi davam etdirəcəyəm.

# *Yeddinci an...*

## Allah sәsinizi әksik elәmәsin!

Seçicilәrlә görüşündә Hüseynbala Mirәlәmov haqqında şәhid anası Әsmәt Sәmәdova, Rәhilә Quluyeva, Sarayev 12-dә yaşayan Seyid Mustafaoğlu, Azәrbaycanın Milli Qәhrәmanı Turab Mәmmәdov, seçici şair Nәriman Әyyub, tәqaüddә olan polkovnik, ağsaqqal Mircamal Sucәddinov, şәhid ailәsi Sәxavәt Mәmmәdova vә başqaları çıxış edәrәk bütün seçicilәri seçki günü H.Mirәlәmova sәs vermәyә çağırdılar. 33 saylı Xәtai seçki dairәsindәn Milli Mәclisә deputatlığa namizәdliyini irәli sürmüş Mәhәr-

rəm Hüseynovun çıxışı da maraq doğurdu. O dedi:

– Əgər, mən bu dairədən namizədliyimi irəli sürmüş olsaydım, Hüseynbala Mirələmovun əməlləri ilə, platforması və seçicilər tərəfindən belə hərarətlə qarşılanmasını görüb namizədliyimi onun xeyrinə geri götürərdim...

Bu görüşlərin birində Sarayev küçəsi 12 ünvanında yaşayan Qənbər Vilayətoğlunun ailəsində dünyaya gəlmiş əkiz oğlan uşaqlarını görüş yerinə gətirdilər. Deputatlığa namizəd öz adından onların valideyinlərini və yaxın qohumlarını təbrik etdi və söz verdi ki, əgər bu ərazidən deputat seçilərsə (hətta seçilməsə belə) bu əkiz uşaqların böyüməsinə, onların oxumasına və yaşayışına yaxından kömək edəcəkdir.

# H.MİRӘLӘMOV HAQQINDA

Hüseynbala Mirәlәmovu әvvәlcә bacarıqlı müәssisә rәhbәri, bacarıqlı iş adamı, dövlәtçiliyimizә sadiq, әsil vәtәndaş kimi tanınmışam. İllәr keçdikcә sәmimiyyәti, böyük ürәyi, insanlara, xüsusilә doğma yurd-yuvalarından vәhşiliklә qovulmuş hәmvәtәnlәrimizә göstәrdiyi qayğı vә diqqәt onu mәnim gözlәrimdә daha da ucaltmışdı. “Zәfәr yolu” essesi, “Xәcalәt” povesti, “Amalın işığında”, “Vicdanın hökmü”, “Güllәlәnmiş heykәllәrin fәryadı” әsәrlәrini oxuduqdan sonra onu yazıçı kimi dә yenidәn kәşf etdim. Hüseynbala müәllim hansı sahәdә olsa liderlik keyfiyyәtini, işlәmәk qabiliyyәtini qısa müddәtdә göstәrmәyi bacaran adamdı.

Natiq ӘLİYEV,
ARDNŞ - nin prezidenti

Hüseynbala müəllim sözün həqiqi mənasında böyük vətəndaşdır! Hüseynbala müəllim Pənahəli xanların, Vaqiflərin, Zakirlərin, Natəvan və Üzeyirlərin Qarabağda dolaşan ruhlarının qoruyucudur! Hüseynbala müəllim çiyinlərində bir elin dərdini daşıyan ANTEYDİR! Hüseynbala müəllim Məkkəsi, Ziyarətgahı ŞUŞA olan ZƏVVARDIR!

Raqub KƏRİMOV,
Filologiya elmləri namizədi, dosent.

Mən Hüseynbala Mirələmovu bu gün MDB məkanında öz zəhməti və yaradıcılığı ilə sayılıb-seçilən bir şəxsiyyət kimi tanıyıram. Sevinirəm ki, o hər yerdə Azərbaycanı ləyaqətlə təmsil edir. H.Mirələmovun tanınmış qırğız yazıçısı Çingiz Aytmatovla yaxınlığına iki xalqın dostluq simvolu kimi baxıram.

Hüseynbala müəllim çoxşaxəli fəaliyyətinə görə bu gün Milli Məclisdə yeri görünən ziyalılarımızdandır. Ona görə qarşıdan gələn parlament seçkilərində ona böyük uğurlar diləyirəm.

Maqsud İBRAHİMBƏYOV,
Xalq yazıçısı

# MƏN ONU DAĞ ÇAYINA BƏNZƏDƏRDİM

Hüseynbala Mirələmovu dağ çayına bənzədərdim: daim coşub-daşan, kükrəyən, məcrasına sığmayan... O, həmişə məşğuldur. İstehsalatda, ədəbiyyat nəhrində, elm aləmində, gündəlik həyat problemlərinin ağuşunda. Dağ çayı dinclik bilmir, Hüseynbala müəllim də sonsuz daxili enerjiylə "yoruldum" sözünü dilinə gətirmir. Allah-Təalanın bəxş elədiyi ömür payını havayı xərcləmir. Qurub-yaradır, problem həll edir, kasıb-kusuba xeyriyyəçi əlini uzadır, imkansız yetim-yesiri sevindirir... Mən



cəsarətlə və iftixarla deyərdim ki, Hüseynbala Mirələmov bütün tanıdığı insanların qəlbində əbədi heykəlini ucaldıb... Bir sözlə, suyu dumduru, şəffaf, qidasını qaynar bulaqların gözündən alan dağ çayı kimi eyni məkan, məskən tanımır, daim çağlayır. Axı o, böyük əməllər, ülvi ideallar carçısıdır və haqlı olaraq dərin nəhirlərə can atır...

*Ağacəfər HƏSƏNLİ,*
*Şair*

# Son söz əvəzi

Bəli, insanın böyüklüyü yaşla, onun bəxti, taleyi ilə deyil, elədiyi yaxşılıqlarla ölçülür. Ömrünün kamillik dövrünü yaşayan Hüseynbala Mirələmov gənc yaşlarından insanlara, vətənə, el-obaya fayda verməkdədir. Mənbəyini Hüseynbala müəllimin doğulduğu ocaqdan, onun böyük qəlbindən götürən yurdsevərlik, elpərvərlik nuruna bələnib neçə-neçə insan ömrü... YAXŞILIQ ALLAHIN SEÇİLMİŞ BƏNDƏLƏRİNƏ BƏXŞ ETDİYİ BİR NEMƏTDİR: Dövlətə, sərvətə bərabər qismətdir.

Hüseynbala müəllim Böyük Rəbbi-

mizin ona bəxş etdiyi qismət payını — SƏXAVƏTİ GƏRƏKLİ MƏQAMLARDA İNSANLARDAN ƏSİRGƏMİR. Bunun böyük vəzifə olduğunu dərk etməyin özü də böyüklükdür. O, MDB ölkələrinin yüz tanınmış direktorundan və iş adamından birdir.

Yaşamaq, yaşatmaq onun əsas qayəsidir. Hüseynbala müəllim bu gün özünün ən böyük kitabını — şah əsərini yazıb-yaradır. Bu şah əsərin adı — YAXŞILIQDIR.

Məmləkətin ona və eləcə də onun kimi oğullara ehtiyacı var. Qarabağ dərdimizi dərindən duyan (əsərlərin çoxu bu mövzuya həsr olunub) ölkəmiz üçün daha çox iş görmək istəyən H.Mirələmovun vətəndaşlıq missiyası çoxşaxəliliyi və çoxçalarlığı ilə seçilir. Belə nadir adamlara öz fəaliyyət dairəsini genişləndirmək üçün münbit

şərait olmalıdır. Məncə, hər bir Azərbaycan ziyalısının, uzaqgörən seçicinin ən böyük arzusu Hüseynbala Mirələmovu Azərbaycan Respublikasının Milli Məclisində millət vəkili kimi görməkdir. Bəli, millət vəkili olmağa məhz belə şəxs layiqdir.

Uca və QADİR Allahdan bu yolda H.Mirələmova yar olmasını diləyirik.

***"Qarabağa aparan yol"***
***12 oktyabr 2005-ci il.***

# *Seçim*

***Tarix insanin əqidə və inam uğrunda mübarizəsidir.***

(H.Mirələmov. "Həqiqət", s.37)

## *ƏNVƏR ASLANOV:*

## "MƏN NAMİZƏDLİYİMİ HÜSEYNBALA MİRƏLƏMOVUN XEYRİNƏ GERİ GÖTÜRÜRƏM"

Yeni Azərbaycan Partiyası tərəfindən deputatlığa namizədliyi 33 saylı Xətai birinci seçki dairəsindən irəli sürülmüş Hüseynbala Mirələmov öz seçiciləri ilə demək olar ki, hər gün görüşür, onların problemləri, qayğıları ilə tanış olur, deputat seçildikdən sonra həmin problemlərin həll olunacağına əminlik yaradır.

Son bir neçə gündə "Qarabağa aparan yol" qəzetinin əməkdaşları həmin görüşlərin iştirakçısı olmuş, bəzi seçicilərin ürək sözlərini qeyd dəftərçələrinə köçürmüşlər.

**QURBAN ƏLİZADƏ, Xətai rayon Ağsaqqallar Şurasının sədri:**

*– Əziz Əhmədli sakinləri, hamınız yaxşı bilirsiniz ki, kəndimizin problemləri olduqca çoxdur. Heç də hər evə su, qaz vaxtlı-vaxtında verilmir. Bəzi ərazilərdə kanalizasiya xətləri bərbad vəziyyətdədir. İşsizlik tam aradan qaldırılmayıb. Yollarımızın müasir tələblərə cavab verməməsi, sərnişin nəqliyyatındakı çatışmamazlıqlar hamımızın narahatlığına səbəb olmuşdur. Hələ də ali qanunvericilik orqanımızda – Milli Məclisdə bitkin və işlək qanunların qəbuluna ehtiyac çoxdur. Çiyinlərimizdə Qarabağ problemi kimi ağır yük var. Bütün bunların həlli üçün bizə geniş dünyagörüşə malik, həmişə xalqın*

*içində olan, onun sevincinə və kədərinə şərik çıxmağı bacaran deputat gərəkdir. Odur ki, heç bir tərəddüdə yol vermədən, ancaq vicdanımızın səsini eşidərək layiqli namizədimiz Hüseynbala Mirələmova səs verək.*

**VÜQAR HƏZİYEV, Azərbaycan Respublikasının Milli Qəhrəmanı:**

*– 1994-cü ilin yanvarında Qarabağ uğrunda döyüşlərin birində çox ağır yaralandım. Məni bir neçə yaralı ilə Bakıya gətirdilər. Hərbi Hospitalda yer olmadığı üçün bizi Qaradağdakı xəstəxanaya apardılar. Xəstəxanada şərait yaxşı olmasa da dedilər ki, bir nəfər yaralılara dava-dərman, ərzaq yardımı gətirib. Həm də biz sağalıb, yenidən cəbhəyə yola düşəndə həmin adam bizi hərbi paltarla da təmin etmişdi. Mən o vaxtdan bu vətənpərvər, təəssübkeş adamın kimliyi ilə maraqlanırdım. Adını öyrənmədiyimə görə təəs-*

*süf edirdim. Bu günlərdə Hüseynbala Mirələmovu seçicilərlə görüşdə tanıdım. Bizə – yaralılara qayğı göstərən, dava-dərmanlarımızı alan, evində yemək bişirtdirib gətirən adam bu kişi idi* ***(bütün seçicilər əl çalır, onun bu sözlərini alqışlayırlar).*** *Ona görə mən bütün seçiciləri, xüsusilə müharibə veteranlarını Hüseynbala Mirələmov kimi şəxsiyyətə səs verməyə çağırıram.*

**ƏLİ YUSİFOV, Neapol küçəsi 24a saylı binanın sakini, kimya elmləri namizədi:**

*– Mən Hüseynbala Mirələmovu uzun müddətdir ki, tanıyıram. O, elm adamı, ziyalı, neft və qaz sənayesi üzrə təcrübəli mütəxəssis və ən başlıcası xeyriyyəçi kimi Azərbaycanda böyük hörmət qazanıb. Qarabağ mövzusunda yazdığı əsərlər bir çox xarici dillərə tərcümə olunub. MDB məkanında adlı-sanlı müəssisə rəh-*

*bərlərindən biridir. Biz çox şadıq ki, belə bir işıqlı şəxsiyyətin seçiciləriyik. Gələcəkdə bizi və qonşu binada yaşayan sakinləri narahat edən problemləri Hüseynbala Mirələmov həll etməyə qadirdir. Ona görə də mən bütün seçiciləri Hüseynbala müəllimə səs verməyə çağırıram!*

**İBADULLA VERDİYEV, Şirvani küçəsi 4 saylı binanın sakini:**

*– Mən Hüseynbala Mirələmovla tələbə yoldaşı olmuşam, onu gənclik illərindən çox yaxşı tanıyıram. Öz bacarığı, yaradıcılığı, dünyagörüşü ilə tələbə və müəllimlərin rəğbətini qazanmışdı. Hüseynbala müəllim doğma Azərbaycanımızın ictimai-siyasi həyatında fəal iştirak edən bir xadim kimi tanınır. Qələmi, işgüzarlığı ona ölkəmizin hüdudlarından kənarda da şöhrət gətirib. Bu gün belə bir insana millət vəkili səlahiyyəti vermək çox təqdirə-*

*layiqdir. Ona görə mən bu məhəllənin sakini kimi bütün seçiciləri 6 noyabr parlament seçkilərində Hüseynbala Mirələmova səs verməyə çağırıram.*

**MƏDİNƏ ABBASOVA, Neapol küçəsi 7b saylı binanın sakini:**

*– Mən müəlliməyəm. Gələcəyimiz olan gənc nəslin təlim-tərbiyəsi ilə məşğul oluram. Cəmiyyətimizin sosial qayğıları bir ziyalı kimi məni də düşündürür. Bu gün biz seçicilərlə görüşə gələn Hüseynbala Mirələmov da ziyalı insandır. Kitabları Azərbaycanda və xarici ölkələrdə çap olunur. Əminəm ki, gələcəkdə millət vəkili olsa, həmin problemlərin ali qanunverici orqanda həllinə səylə çalışacaq. Ona görə biz seçicilərin etimadını yalnız H.Mirələmov doğrulda bilər. Gəlin 6 noyabrda hamımız yekdilliklə ona səs verək!*

**MAARİF SOLTAN, şair:**

*– Əziz qonşularım, bu görüşdə iştirak edənlərin demək olar ki, hamısını, daha doğrusu, hamınızı yaxşı tanıyıram. Maraqlı cəhət odur ki, deputatlığa namizədimizə də yaxından bələdəm. "Xəcalət" povestini, "Güllələnmiş heykəllərin fəryadı" essesini, "Dağlarda atılan güllə" romanını oxumuş, "Vicdanın hökmü" pyesinə tamaşa etmiş, "Durnalar qayıtdı" filminə baxmışam. İş adamı kimi, müəssisə rəhbəri kimi bir çox xeyirxah işlər gördüyünü, kimsəsizlərə, əlillərə, şəhid ailələrinə kömək durduğunu çox eşitmiş, əksəriyyətinin şahidi olmuşam. Mən onu Azərbaycan Yazıçılar və Jurnalistlər Birliklərinin üzvü kimi, publisist kimi də çox yaxından tanıyıram. Əsərləri bir çox nüfuzlu mükafatlara layiq görülüb.*

*Hüseynbala Mirələmov, mənim*

*fikrimcə, xalq elçisi, xalq deputatı adını işi, xeyirxah əməlləri ilə lap çoxdan qazanıb. Mandatını isə inanıram ki, 6 noyabrda biz seçiciləri qazandıracağıq. Mən belə bir layiqli namizədə səs verməklə problemlərimizin həllinə kömək edəcəyimə inanıram. Ədalətin qalibiyyətinə, xoşbəxt gələcəyə inanıram və Sizin hamınızı da Hüseynbala müəllimə səs verməyə çağırıram.*

**MİNARƏ ZÜLFÜQAROVA,**
**şəhid anası:**

*– Əziz qonşularım, hörmətli seçicilər! Razı və narazı olduğum məsələlərdən danışacağam. Razılığım deputatlığa namizəd Hüseynbala Mirələmovdandır. Bu kişini neçə illər əvvəldən tanıyıram. Bilirəm ki, Qarabağ müharibəsində şəhid olmuş neçə-neçə Vətən oğlunun ailəsinə, övladlarına atalıq, qardaşlıq qayğısı göstərib. Müalicəsi yalnız xarici öl-*

*kədə mümkün olan insanlara əl tutub. O, qədəm basdığı yerdə ümidlər pöhrələnir, çıraqlar gur yanır, xəstələr şəfa tapır, qurumuş bulaqların gözü çağlayır.*

*Ancaq narazı qaldığım məsələlər də var. Di gəl ki, bu narazılığın Hüseynbala müəllimə dəxli yoxdur. Narazı qalıram ki, onunla eyni dairədən – yəni bizim dairədən namizədliyini irəli sürmüş müxalifət nümayəndələri iş-güclərini buraxaraq, öz təbliğatları ilə məşğul olmaq əvəzinə, Hüseynbala müəllimə böhtan atmaqla məşğuldular. Onlar yaxşı bilirlər ki, daha bizi aldada bilməyəcəklər. Aldatmaq imkanlarını itirdikləri üçün də asan ifşa olacaq, bizdən səs qazana bilməyəcəklər. Mən hamınızı ayıq-sayıq olmağa, layiqli və ləyaqətli namizədimiz Hüseynbala müəllimə səs verməyə çağırıram.*

**ƏNVƏR ASLANOV:**

*– Hörmətli seçicilər! Əvvəlcə mənə dəstək olduğunuza görə hamınıza minnətdaram. Bilirsiniz ki, indi ölkəmizdə gənclərə xüsusi diqqət göstərilir, geniş meydan verilir. Odur ki, sizin aranızda qazandığım xətir-hörməti, özümə inamımı nəzərə alaraq 33 saylı Xətai birinci seçki dairəsindən deputatlığa namizədliyimi irəli sürmüşəm.*

*Bu gün sizin qarşınızda çıxış etməklə heç də bitərəf namizəd kimi mənə səs verməyinizi xahiş etməyəcəyəm. İndi qəti qərara gəlmişəm ki, illərdən bəri yığılıb qalmış problemlərimizin həllinə kömək etmək, daha işlək qanunların qəbuluna nail olmaq üçün bizi parlamentdə daha mötəbər elçinin təmsil etməsi üçün öz namizədliyimi Hüseynbala Fazil oğlu Mirələmovun xeyrinə geri götürüm. İndi sizi ona səs verməyə çağırıram və inanıram ki, belə də edəcəksiniz.*

**VAQİF YUSİFLİ,**
**tənqidçi-ədəbiyyatşünas, seçici:**

*– Mən Hüseynbala müəllimi 1987-ci ildən tanıyıram və əsərlərini oxuduqca, onu özümə ruhən, qəlbən daha yaxın hiss etmişəm. Onun "Xəcalət" povestinin ön söz müəllifiyəm, "Dağlarda atılan güllə" romanı haqqında ilk rəyi mən yazmışam. İndi isə hörmətli yazıçımızın seçicisi kimi söz demək nəsibim oldu. Mən inanıram ki, ona səs verməklə öz problemlərimizi həll etmiş olacağıq.*

***"QARABAĞA APARAN YOL"***

# LƏYAQƏT

Hər bir Şəxsiyyəti ucaldan bir sıra mənəvi keyfiyyətlər var ki, onlardan ən birincisi LƏYAQƏTdir. Ləyaqət elə bir mənəvi keyfiyyətdir ki, o, insanın ailə, mühit, xalq və cəmiyyət qarşısında durumunu təmin edir. Yazıçı-publisist Hüseynbala Mirələmovu belə bir ləyaqət sahibi, əsl şəxsiyyət kimi tanıyıram. İş elə gətirib ki, mən onun deputatlığa namizədliyi irəli sürülən ərazidə - Xətai rayonunun Yeni Əhmədli qəsəbəsində yaşayıram. Hər gün işə gedəndə onun qərargahı qarşısında onlarla rayon sakini ilə qarşılaşıram. Onların bir çoxu adını eşitdikləri, lakin üzünü görmədikləri namizədlə sadəcə tanış olmaq istəyir. Eşidiblər ki, Hüseynbala Mirələmov işıqlı insandır, xeyirxahdır. Bir çoxu Hüseynbala müəllimə müraciət edib ondan "Xəcalət" və "Gəlinlik paltarı" kitablarını istəyirlər. Yəqin ki, Hüseynbala müəllim də öz dəst-xəttilə avtoqraf yazır, kitablarını hə-

diyyə verir. Bir çoxu isə Hüseynbala müəllimə üz tutub dərdlərini söyləyir, ondan kömək diləyir. Yəqin ki, Hüseynbala müəllim də "Əl tutmaq Əlidən qalıb" deyimini unutmur.

Sual edə bilərsiniz ki, bəs mən onu necə, hardan tanıyıram?

Hüseynbala Mirələmov mənim atam - tanınmış tənqidçi Vaqif Yusifli ilə dostdur. Bu dostluğun təməli qiyabi də olsa, 1987-ci ildə qoyulub. O zaman Hüseynbala Mirələmov Lənkəranda öz ixtisası üzrə - qaz sahəsində çalışırdı. Onda ilk kitabı ("Tənha durna uçuşu") yenicə işıq üzü görmüşdü. Atam Lənkəranda ezamiyyətdə olanda bu kitabı oxumuş və Lənkəranda nəşr edilən "Leninçi" qəzetinə bir resenziya təqdim etmişdi. Lakin onların dostluğu 2002-ci ildə başladı. Atam Hüseynbala Mirələmovun "Qayada çiçək" hekayələr kitabı barədə bir məqalə yazdı və "Ədəbiyyat qəzeti"ndə çap etdirdi. Məqalə çap olunduqdan sonra onlar görüşdülər. Fərəh hissi ilə deyə bilərəm ki, atam az sonra populyar bir yazıçıya çevrilən Hü-

seynbala Mirələmovun yaradıcılığı haqqında həmişə ilk sözü demişdir. Hüseynbala Mirələmovun yaradıcılığı barədə ilk monoqrafiyanı atam yazmışdır (“Həyatın ritmi”), onun ilk romanı “Gəlinlik paltarı” haqqında da ilk sözü atam demişdi, sonuncu ən gözəl romanı - “Dağlarda atılan güllə” haqqında da ilk məqaləni atam qələmə almışdır.

Mən Hüseynbala Mirələmovun əsərlərini də atamın məsləhətilə oxumuşam. Bu əsərlər barədə atam kimi söz deyə bilmərəm, o, professional tənqidçidir. Ancaq oxucu kimi deyə bilərəm ki, onun hekayə, povest və romanları, həmçinin pyesləri çox maraqlıdır, düşündürücüdür. Bu əsərlərdə bir çox suallara cavab tapırsan, mənən saflaşırsan, durulursan. Hüseynbala müəllimin əsərlərində Qarabağ ağrı-acıları sənin də içindəki qəzəbi alovlandırır. Dərk edirsən ki, mənəvi Qarabağımız hələ itməyib, Şuşa, Laçın, Kəlbəcər, Ağdam sənin içindədir.

Mən Hüseynbala müəllimin dövlət televiziyasıyla göstərilən “Tənha durna uçuşu” tamaşasına baxmışam. Yazıçı bu əsərdə in-

san hisslərini elə incə detallarla canlandırır ki, onun özünün də bu hissləri yaşadığına şübhə yeri qalmır.

Hüseynbala müəllimlə atamın da iştirak etdiyi bir məclisdə mən də olmuşam. Onun incə, ağır təbiətli, ciddi, eyni zamanda necə mədəni, yumor hissinə malik bir insan olduğunun şahidiyəm. O, həmin məclisdə təzəcə çapdan çıxmış "Gəlinlik paltarı" romanından mən yaşda cavan qızlara, oğlanlara hədiyyə verdi "Oxuyun, ibrət götürün!"-dedi.

Hüseynbala müəllim ən sadiq Heydər Əliyevçidir. Onun ulu öndərə həsr etdiyi bir neçə kitabı var. Bu kitabları oxuyandan sonra məndə belə bir qənaət hasil oldu ki, yazıçı-publisist Hüseynbala Mirələmov əsl ideya adamıdır.

Yaşadığım Yeni Əhmədli qəsəbəsində ("Bakı" kinoteatrı ətrafı) öz həllini gözləyən bir çox problemlər mövcuddur. Elə problemlər ki, onları həll etmək üçün güclü bir dəstək lazımdır. Hüseynbala müəllim buna qadir bir insandır. Mən həmin dairədən deputatlığa namizədliyini irəli sürən digər şəxslər

barədə heç bir fikir söyləmək istəmirəm. Onlara da uğurlar arzulayıram. Lakin Hüseynbala müəllimi bu dairədən deputatlığa ən layiqli namizəd hesab edirəm. Elə bir namizəd ki, o, deputat seçilərsə, həm seçildiyi dairədə böyük nüfuz qazanacaq, biz gənclərin də çoxsaylı problemlərini həll edəcək, həm Milli Məclisdə öz seçicilərinin mənafeyini müdafiə edə biləcək, həm qanunlar qəbul edilməsində fəal iştirak edəcək, həm də respublikanın ictimai-siyasi həyatında görünən şəxs olacaq.

Mən buna inanıram və ona SƏS verəcəyəm!

***Günay YUSİFLİ,***
*Jeni Əhmədli qəsəbəsi*
*«Qarabağa aparan yol»,*
*26 oktyabr 2005-ci il.*

## HÜSEYNBALA MİRƏLƏMOV:

# "MƏNƏVİYYAT KASIBLIĞININ SONU FACİƏDİR"

*Millət vəkili, yazıçı-dramaturq Hüseynbala Mirələmovla söhbət*

Hüseynbala Fazil oğlu Mirələmov ixtisasca neftçi-mühəndisdir, texnika elmləri namizədidir. Azərbaycan Yazıçılar və Jurnalistlər Birliyinin üzvü, “Qızıl Qələm” mükafatı laureatıdır.

Hələ 14 yaşında olarkən “Bir tikə çörək” hekayəsi mətbuatda çap edilmişdir. “Tənha durna uçuşu”, “Qayada çiçək”, “Amalın işığında”, “Xəcalət”, “Həqiqət”, “Zəfər yolu”, “Daha bir ümid səhəri” kitablarının müəllifidir. “Simuzər” hekayəsi Azərbaycan, türk, rus, ingilis, alman və fransız dillərində ayrıca kitab şəklində nəşr olunmuşdur. “Gəlinlik paltarı” romanı isə bu günlərdə Türkiyə türkcəsində “Gəlinlik” adı ilə qardaş ölkədə, “Xəcalət” ingiliscə Moskvada, qırğızca Bişkekdə, “Qayada çiçək” gürcü dilində Tiblisidə çapdan çıxmışdır.

“Xəcalət” povesti Azərbaycan Yazıçılar Birliyi Ədəbiyyatı Təbliğ Bürosunun “Milli mənəvi yaddaşa qayıdışı təbliğ

edən və Qarabağ mövzusunda yazılan ən yaxşı bədii əsərlər üçün" təsis etdiyi "Milli Yaddaş" birinci və Respublika Təhsil Mərkəzinin təsis etdiyi "Abdulla Şaiq" mükafatına layiq görülmüşdür. Yazıçıya bu günlərdə Qırğızıstan Yazıçılar Birliyninin "Qızıl Qələm" mükafatı da verilmişdir.

Yazıçı-dramaturqun Dövlət Gənclər Dram Teatrında tamaşaya qoyulmuş "Vicdanın hökmü" pyesi mövzu həllinə görə ən yaxşı səhnə əsəri hesab edilərək, Azərbaycan Teatr Xadimləri İttifaqının "Qızıl Dərviş", Xocalı faciəsindən bəhs edən "Daha bir ümid sabahı" kitabı Beynəlxalq "Platin-Era", "Akademik Yusif Məmmədəliyev" mükafatlarını almışdır.

"Güllələnmiş heykəllərin fəryadı" ədəbi essesi, "Tənha durna uçuşu", "Qayıtdı durnalar", "Toy", "Son arzu", "Yeni həyat", "Simuzər" film-tamaşaları yüksək dəyərləndirilmiş, ədəbi ictimaiyyət

tərəfindən rəğbətlə qarşılanmışdır.

2005-ci ildə ictimaiyyət arasında böyük maraqla oxunan və rəğbətlə qarşılanan rus yazıçısı Viktor Andrianovla birlikdə yazdığı "Görkəmli adamların həyatı" seriyasından "Qeydar Aliyev" əsəri "İlin kitabı" adını qazanmışdır. Ötən il tarix və ədəbiyyatımız qarşısında xidmətlərinə görə, Hüseynbala Mirələmov və Viktor Andrianov "Ümummilli Lider Heydər Əliyev Siyasi Kursu" mükafatına layiq görülmüşlər.

İllərin yaddaşında silinməz izlər qoyan yazıçı ilə söhbətə görəcəyi işlər barədə sualla başladıq.

– ***Yeni ilin iki ayı arxada qaldı. Bu ömür kitabına yazılan təzə səhifələrdir. Hüseynbala Mirələmov 2006-cı ilə ötən illərlə müqayisədə necə başlayıb, necə davam etdirəcək və yekunlaşdıracaq?***

– Elə hamı kimi, adi qaydada. Yarımçıq işlərimi, əsərlərimi tamamlamaq ar-

zusundayam. Milli Məclisin "Təbii sərvətlər və ekologiya" daimi komissiyanın işində fəal iştirak etməyə və mükəmməl, işlək qanunların hazırlanıb qəbul edilməsinə çalışıram. Zavodda da işlərimiz qaydasında gedir. İlə necə başlamışamsa, inşallah, elə də axıra çatdırmağı düşünürəm.

***– Hüseynbala müəllim, təvazökarlıq edirsiniz. Sizin işləriniz adi qaydada olmur. Həmişə gərgin keçir. Özü də bu gərginlik sizin öz işgüzarlığınızdan yaranır. Yəni, həmişə yorulmadan axtarışdasınız.***

– İnsan həyatının təbii qanunları var. Bu, zamanın, dünyanın gedişatından asılıdır. Həm də, qanunlar cəmiyyətə xidmət edir. İnsan öz fəaliyyətində ardıcıllığı ilə fərqlənən varlıqdır. Bu da təbiətin fəsillərinin bir-birini əvəz etməsinə bənzəyir. Mənim gündəlik həyatımdan istifadə etmək bacarığım vərdişə çevrilib. Vaxtdan səmərəli istifadə etmək, böyük şərtdir.



Adətən səhərlər erkən durub, yaradıcılıqla məşğul oluram. Zavoda gələndə istehsalatı, burda çalışan insanları düşünürəm. Hər bir işçi mənim üçün doğmadır. 700 nəfərə yaxın işçinin ailə problemlərindən tutmuş, məişət qayğılarına qədər, hər şeyi diqqət mərkəzində saxlamağa çalışıram.

***– Hüseynbala müəllim, sizin millət vəkili, xalq elçisi titulunu qazanmağınız təsadüfi deyil. Belə ki, namizədliyinizi respublikamızın aparıcı partiyası olan Yeni Azərbaycan Partiyasının sədri İlham Əliyev cənabları irəli sürüb. Siz prezidentimizə, mənsub olduğunuz partiyaya, onun***

***yaradıcısı olan ulu öndәrimiz Heydәr Әliyevә sәdaqәtinizi әmәlinizlә, işinizlә sübut edirsiniz.***

– Düzünü deyim ki, mәtbuatda siyahı dәrc olunana qәdәr, namizәdliyimin irәli sürülәcәyini bilmirdim. Etiraf edim ki, 33 saylı Xәtai birinci seçki dairәsindәn namizәdliyimin irәli sürülmәsi, mәni bir az hәyәcanlandırdı. Әgәr çalışdığım Qaradağ rayonu vә yaxud böyüyüb boya-başa çatdığım Lәnkәran olsaydı, bәlkә dә bu qәdәr hәyәcan keçirmәzdim. Çünki hәr iki rayonda insanlar mәni yaxşı tanıyırlar. Hәtta mәndәn inciyәnlәr dә oldu: "Namizәdliyini niyә bizim dairәdәn irәli sürmürsәn", – dedilәr. Mәn onları birmәnalı şәkildә başa saldım ki, Milli Mәclisә deputatlığa namizәdliyim Yeni Azәrbaycan Partiyasının sәdri, Respublikanın Prezidenti cәnab İlham Әliyev vә partiyanın idarә heyәti tәrәfindәn tövsiyә olunub. Çox şükür ki, seçicilәrin fәallığı sa-

yəsində qələbə qazandım. Partiyanın mənə göstərdiyi etimadı doğrultduğuma görə, özümü çox xoşbəxt sayıram. Hesab edirəm ki, ulu öndərimiz Heydər Əliyevin ruhu qarşısında o etimadı doğrultmaq üçün qarşımda böyük məsuliyyətlər durur.

Etimadı isə insana elə-belə göstərmirlər. Özün də düşünməlisən ki, sən, bir Millət vəkili kimi bu ölkəyə nə verə bilərsən? Xalqın, ölkənin rifahı naminə qanunların qəbul olunmasında bacardığını etməlisən, savadını, səviyyəni ortaya qoymalısan. Doğma Azərbaycana sevgi, bax elə o qanunların dürüstlüyündən başlayır. Mən qəlbən inanıram ki, bizim parlament belə məsələlərin öhdəsindən layiqincə gələcək.

Qaldı sualın ikinci hissəsinə, mən hələ gənclik illərimdən, orta məktəbdə oxuduğum çağlardan Heydər Əliyev şəxsiyyətinə heyran olmuş, onu sevmişəm. Dərk et-

mişəm ki, bu böyük insan adi şəxsiyyət deyil, dahidir. Odur ki, bir azərbaycanlı kimi, onunla fəxr etmişəm. Elə bilməyin ki, mən zavod rəhbəri və ya Millət vəkili olduğuma görə belə deyirəm. İnanın ki, mən işsiz qaldığım günlərdə də, Heydər Əliyevi indikindən az sevməmişəm. Onu da deyim ki, Yeni Azərbaycan Partiyasına onun qurucusu məhz Heydər Əliyev olduğuna görə üzv olmuşam. Bu partiyanı başqa birisi yaratsaydı, bəlkə də ona üzv olmazdım. Amma Heydər Əliyev başqa bir partiya yaratsaydı belə, yenə də həmin partiyaya üzv olardım. Onun yaratdığı partiya mənəviyyat partiyasıdır. O partiya xalqıma sədaqət partiyasıdır. Odur ki, mən Naxçıvanda keçirilən təsis konfransında dostum, millət vəkili Eldar İbrahimovla birlikdə iştirak etmişəm. Bakıda ilk dəfə Nərimanov rayonunda, bundan sonra Xətai rayonunda partiyanın təsis konfransını keçirdik. Mən YAP Xətai

rayon təşkilatının sədr müavini seçildim. Zavoda gələndə, isə onun ilk təşkilatını yaratdım. Həm də, xatırladım ki, Qaradağ rayon YAP İdarə Heyətinin üzvüyəm.

Mən öz əqidəmin səsinə qulaq asan adamam. Heç vaxt şəxsi ambisiyalara görə, nəyəsə və kiməsə aludə olmuram. Mən bilirdim ki, Heydər Əliyev nadir şəxsiyyətdir. Onu dünyanın böyük siyasi xadimləri və simalarına bərabər tuturam. Fəxr edirəm ki, onun haqqında "Görkəmli insanların həyatı" seriyasından Moskvada nəşr olunan "Qeydar Aliyev" kitabının müəlliflərindən biri mənəm. Azərbaycan tarixində Şah İsmayıl Xətai dahi şəxsiyyət olub. Ömrü 100 il sürən Azərbaycan dövləti yaradıb. Heydər Əliyev də, ona bərabər bir insandır.

***– Bizə görə, çox mühüm bir məsələ də, sizin öz xarakterinizlə, işgüzarlığınızla, dövlətçiliyə sədaqətinizlə bağlıdır. Bildiyimizə görə, 1979-cu ildə Heydər Əliyev***

***sizi Qırmızı Əmək Bayrağı ordeni ilə təltif edib.***

– Bəli, o ordeni şəxsən Heydər Əliyev özü mənə təqdim edib. Çox sonralar, yenidən ölkəmizə rəhbərliyi dövründə mənim "Xəcalət" kitabımı oxuyub. Hətta köməkçisinə də oxumağı məsləhət görüb. Allah-təala onu əvəzedilməz bir şəxsiyyət yaratmışdı. Ədəbiyyat, memarlıq, ümumiyyətlə, incəsənətin bütün sahələrinə aid geniş biliyə və zövqə malik idi. Belə adamı sevməmək olmaz. Ancaq bədxah insanlar, Azərbaycanı istəməyənlər Heydər Əliyevi sevə bilməz. Çünki onların qəlbi o qədər cılız və dardır ki, Heydər Əliyev boyda dahilər dahisi, nəhənglər nəhəngi oraya yerləşə bilməz!

***– Hüseynbala müəllim, ispan filosofu, daha dəqiq desək, Baltasar Qrasian deyib ki, müxtəlif məşğuliyyətləri sınaqdan çıxarmaq gərəkdir. Mövzunun vacibliyi və müxtəlifliyi uzlaşdıqda, məşğuliyyət***

***də xoş olur. Həm də bu zaman maraqlar da təzələnir. Elm adamı, yazıçı-dramaturq, publisist, müəssisə rəhbəri, xeyriyyəçi, Millət Vəkili Hüseynbala Mirələmov bütün bunların öhdəsindən necə gəlir?***

– Bilirsiniz, bütün bunların kökündə yalnız bir şey durur – məsuliyyət. Məsuliyyət isə sevgi və məhəbbətdən yaranır. Bir epizod heç vaxt yadımdan çıxmır. Mən ikinci sinifdə oxuyurdum. Allah rəhmət eləsin, ibtidai sinif müəllimim Əkbər Talışinski vurma cədvəlini öyrənmədiyimə görə mənə bir sillə vurdu. O sillə sanki mənim bütün gələcək həyatımı silkələdi. O sillə mənə yox, ətalətə, tənbəlliyə, məsuliyyətsizliyə çırpılmışdı. O gün evə gələndən sonra səhərə qədər yata bilmədim. Vurma cədvəlini öyrəndim. Sonra dərslərimdən əla qiymətlər almağa başladım. Orta məktəbi medalla bitirdim. O sillə mənim həyatımda dönüş yaratdı. Səhlənkarlıqla vidalaşmağım mənə hər işdə uğur gə-

tirdi. Mən məktəbdə şagird və müəllim kollektivinin təmsil olunduğu ilk komsomol təşkilatının katibi oldum. Təşkilatçılığımla həmişə seçilirdim. Tənəffüsdə uşaqlar divar qəzetini oxumaq üçün növbəyə dayanardılar. Bu divar qəzetində mənim satirik məqalələrim dərc olunurdu. O yazılarla mən tənbəllərə, "2" alanlara qarşı mübarizə aparırdım.

Bir də onu deyim ki, insan dünyaya gələndə, onun geninə nə qoyulursa, ruhuna nə hopursa, Yaradanın seçimi ilə axıra qədər də elə gedir. Artıq-əskik nəsə qazanmaq mümkün deyil. Uşaqlıq illərimi yada saldım, mənə elə gəlir ki, indiki dövrüm – müdriklik məqamım uşaq çağlarımın üzərində qurulmuş bir qaladır. Məhz müxtəlif sahələrə meylim də, həmin çağlardan Tanrının mənə verdiyi o qismətdən irəli gəlir.

Orta məktəbdə oxuyanda dərk edirdim ki, təhsili medalla, ali məktəbi isə fərq-



lənmə diplomu ilə bitirmək gərəkdir. Axırıncı kursda oxuyanda məni kafedrada saxlamaq istəyirdilər. İnstitutda oxuya-oxuya geodeziya kafedrasında tələbələrə dərs də demişəm. Sonralar əsgəri xidmətdə də, mənə məsul iş tapşırdılar. İnsan gərək öz əqidəsinə dönük çıxmasın. Mənə həvalə olunan bütün işlərdə səmimi, düz olmağa çalışmışam. Bütün müvəffəqiyyətlərimin, qələbələrimin bünövrəsini düzlükdə, saflıqda görürəm. Ən xırda işlərə belə, məsuliyyətlə yanaşır, laqeyd

qala bilmirəm. Hadı Rəcəbli demişkən, "Hüseynbala harda olursa-olsun, hansı işdə çalışırsa-çalışsın, həmişə seçilib, orda yaxşıların yaxşısı olub".

– ***Respublikamızda iri sənaye müəssisələri çoxdur. Amma sizin rəhbərlik etdiyiniz zavod ölkəmizin adı ilə – Azərbaycan Qaz Emalı Zavodu adlanır. Bu müəssisənin uğurları, problemləri ilə bağlı sual verməsək, günah etmiş olarıq.***

– Suala ehtiyac yoxdur. Hər bir istehsalat müəssisəsində olduğu kimi, bizim zavodda da uğurlar da var, problemlər də. Heç kəs deyə bilməz ki, mənim çalışdığım müəssisədə hər şey yüksək səviyyədədir. Bu mümkün də deyil. Bura istehsalatdır. Bir də eşidirsən ki, filan sexdə nasos dayanıb, mühərrik xarab olub. Zavod 45 ildir ki, fəaliyyətdədir. Dünyanın çox yerində 30 ildən artıq işləyən müəssisələr əsaslı təmirə dayandırılır, rekonstruksiya edilir. Biz isə öz gücümüzlə zavodu işlədirik. Mən

rəhbərlik etdiyim kollektivdən çox razıyam. Hələ elə bir məqam olmayıb ki, qaldırdığım məsələnin həllində, onlar mənə dəstək olmasınlar.

***– Hüseynbala müəllim, insan şəxsiyyəti, onun cəmiyyətdə mövqeyi barədə çox deyilib, çox yazılıb. Yazıçı və zaman. Bu barədə öz payınıza siz nələri götürürsünüz?***

– Bu gün Azərbaycanın torpaqları işğal altındadırsa, bizə qarşı ədalətsiz müharibə gedirsə, nə yazıçının, nə də şairin susmağa haqqı yoxdur. Heç kəs gözləməməlidir ki, müharibə qurtarsın, onun nəticələri bilinsin və sonra əsərlər yazsınlar. Mən hesab edirəm ki, bu günün yazıçısı o adamdır ki, zamana öz sözünü diktə etməyi bacarır. Mən də bu məqsədlə "Güllələnmiş heykəllərin fəryadı" essemi, "Xəcalət" povestimi, irihəcmli "Dağlarda atılan güllə" romanımı yazıb, oxucuların ixtiyarına vermişəm. Yazıçı ictimai-siyasi hadi-

sələrə, xalqımızı, dövlətimizi narahat edən məsələlərə münasibətini vaxtında bildirməli, lazım gələrsə, zamanın axarını dəyişməyə xidmət etməlidir.

***– İstedad və zəhmət. Sizcə, yaradıcı adamlar üçün bunların hansı daha çox vacibdir?***

– Mənim gözümün qabağında o qədər istedadlı adamlar olub ki... Sözün həqiqi mənasında istedadlı olsalar da, tənbəl olublar. Tənbəllik isə istedadı pas kimi yeyir. Mən şərti olaraq bir rəqəm deyim: əgər insanda istedad 25 faizdirsə, zəhmət 75 faiz olmalıdır. Bilirsiniz, əgər kotan işləməsə, gavahinlər parıldamaz. İstedadlı adam işləməsə, beyni, ürəyi, ruhu da pas atar. İstedadın cilalanması üçün işləmək, zəhmət çəkmək lazımdır. Əgər insan Allahın ona verdiyi istedaddan istifadə etmirsə, bu, böyük günahdır. Mən deyərdim, xəyanətdir. Allah istedadı insana elə-belə vermir. Verir ki, onu öz xalqın

üçün istifadə edəsən. Mən dünyada elə insanlar tanıyıram ki, cüzi istedadı olub, amma zəhmətləri sayəsində məşhurlaşıblar. Zəhmət çox böyük meyardır.

– ***Millət vəkili, yazıçı-dramaturq, iş adamı Hüseynbala Mirələmov bir vətəndaş və ziyalı kimi daha nələrin istəyindədir?***

– Mənim ən böyük istəyim odur ki, maddi vəziyyətindən, tutduğu mövqeyindən, vəzifəsindən asılı olmayaraq, bütün insanlar bir-birini sevsinlər, bir-birinə hörmət etsinlər və heç kəs heç kəsin hüququnu tapdalamasın. Bizi Allah insan xəlq edib və ömrümüzün sonuna qədər də cəmiyyət arasında bir-birimizə insani münasibət bəsləməliyik. Əgər fərq qoyulursa, kimsə öz puluna, vəzifəsinə, mövqeyinə, ya da istedadına güvənib, kiməsə yuxarıdan aşağı, xor baxırsa, mən bunu anti-bəşəri hərəkət kimi qəbul edirəm. Məncə, cəmiyyətdəki bütün ədalətsizlik-

lər, bəlalar, ziddiyyətlər belə xor baxmaların ucbatından törəyir. İnsanlar arasında bərabər münasibətlər yaransa, cəmiyyət daha firavan, ölkə daha qüdrətli olar.

***– Əvvəllər, ayrı-ayrı xalqlara mənsub olan yazıçılar məktublaşıb görüşərdilər. Siz hansı yazıçılarla əlaqə saxlayırsınız? Son zamanlar Çingiz Aytmatovdan, Yuri Polyakovdan tərcümələriniz bu əlaqələrin nəticəsidirmi?***

– Onu deyim ki, mən mütaliəni çox sevirəm. Hələ Lənkəran 2 saylı orta məktəbində təhsil alanda, bizi Şamaxı pioner düşərgəsinə aparmışdılar. Uşaqlardan yol üçün yığılmış pul mənə veriləndə, kitab mağazasına gedib, həmin pulun hamısına kitab almışdım. Mən doğrudan da, kitab xəstəsiyəm. Müdriklərdən biri deyib ki, kitab alıb oxumayan adam belində kitab daşıyan eşşəkdir. Hər gün mütaliə etməsəm, yata bilmirəm. Kitab xəstəsiyəm də...

***– Allah bu “xəstəliyi” bütün ziyalılarımıza qismət eləsin.***

– Xalq Cəbhəsi hakimiyyətə gələndə, mən çox haqsızlıqlara məruz qaldım – həm mənəvi, həm də maddi cəhətdən. Sizi inandırım ki, məni düşdüyüm durumdan bir şey xilas etdi. O da mənim daxili zənginliyim idi. O daxili zənginliyə görə, oxuduğum kitablara borcluyam. O elə bir zənginlikdir ki, milyonlar, milyardlar onun yanında külək kimidir. Ona görə mən heç vaxt sınmamışam. Adamlar tanıyıram ki, birinci katib, nazir vəzifələrində çalışıblar. Vəzifədən uzaqlaşdırılan kimi, üzr istəyirəm, əskiyə döndülər. Demə, onların eybini gizlədən, zərərli keyfiyyətlərini, mənəvi naqisliklərini ört-basdır edən tutduqları vəzifə imiş.

Onu da deyim ki, vəzifə insana nə ağıl, nə də ki, müdriklik verir. Vəzifə yalnız və yalnız müəyyən zaman kəsiyi ərzində insana hər hansı bir səlahiyyət verir.

Mənim yazıçılarla əlaqəmə gəldikdə isə, dünyada tanıdığım və əlaqə saxladığım yazıçılardan biri də Çingiz Aytmatovdur. Fevral ayının axırında onunla Moskvada görüşəcəyik. Bu yaxınlarda mənə zəng çalmışdı. Dedi "Hüseyn, təzə romanımın son nöqtəsini qoyuram". Açığını desəm, mən onunla fəxr edirəm və onu özüm üçün ideal insan sayıram. Çox sevdiyim yazıçılar var. Amma Çingiz mənim üçün əvəzedilməz bir yazıçıdır. Onun ruhu mənə çox yaxındır. Özü də gözəl insandır. Qabriel Qarsia Markes, Çexov, yapon yazıçısı Murakami Xaruki, Çingiz Aytmatov ən çox mütaliə etdiyim yazıçılardır. Onların əsərləri bəşəridir, dünya panoramasını insan gözündə, demək olar ki, bütünlüklə canlandırırlar. Əlaqə saxladığım yazıçılardan biri də "Literaturnaya qazeta"nın baş redaktoru, əsərləri dünya oxucuları tərəfindən bəyənilən Yuri Polyakovdur...

***– Müasirlərimizin bir qəribə xəstəliyi var. Şöhrət qazanan insanlar haqqında şayiələr yayırlar. Belə şayiələri siz necə dəf edirsiniz?***

– Mən belələrinə rast gələndə, böyük binaları göstərib deyirəm, baxın, o binaların bünövrəsi möhkəm olmasaydı, bu qədər illər dayanmazdı. Siz bizim klassiklərimizi, mənəvi özülümüz olan şair və yazıçıları bəyənmirsiniz. Bəs özünüz hansı kökün, təməlin üstündə boy atacaqsınız? Məncə onların mövqeyi eqoizm xəstəliyindən irəli gəlir. Ağlı dumanlı olan belələrini külək birinci həmlədə yıxacaq...

***-Bir dəfə professor Zeydulla Ağayevlə söhbət zamanı dedi ki, radio müsahibələrimin birində bu məsələyə toxunmuşam. İndi kimlərsə çayxanada oturub, qəti hökm çıxarırlar ki, bəs filan əsər şedevrdir və ya filan yazıçı dahidir. Sonra həmin fikri dövrü mətbuata gətirirlər. Bəzən də hay-küy salırlar ki, necə olur ki, və-***

***zifə sahibi əsər yazır. Əvvəla, Hüseynbala Mirələmov vəzifəyə gəlməmişdən öncə də, əsərlər yazıb. Hələ orta məktəb şagirdi olarkən, ilk hekayəsi 7-ci sinifdə oxuyarkən işıq üzü görüb. İkincisi də ki, Allaha şükür etsinlər ki, Hüseynbala Mirələmov vəzifə sahibi olsa da, Qarabağ dərdimizdən ən məhsuldar yazan yazıçıdır. Onun əsərləri rus, ingilis, fransız, alman dillərinə tərcümə olunur. Nə üçün dodaq büzürlər ki, o filan vəzifədə işləyir. Şah İsmayıl Xətai, Avraam Linkolin məgər şer yazmırdılar? Azərbaycan ədəbiyyatına kimlər töhfə verir, təəssübkeşlik edir, həmişə kimlərinsə hücumlarına məruz qalırlar.***

– Düzü o müsahibədən mən xəbərsizəm. Təbii ki, qeybətçillər, eqoistlər bütün əsrlərdə olublar. Sağlam düşüncə sahibləri isə belələrinə məhəl qoymurlar. Pis əməl ilə ad çıxarmağın özü də bir xəstəlikdir. Bəzən belə deyirlər ki, arıya bal üçün

şirin, ilana zəhər üçün acı şeylər gərəkdir. Hər bir qələm əhli yazıçılıq əxlaqına sədaqətini qoruyub saxlamalıdır.

***– Sizə Xətai rayonundan minlərlə seçici etimad göstərib. Amma siz həm də, tanınmış yazıçı və xeyriyyəçi kimi Azərbaycanın bütün bölgələrində tanınırsınız. Belə çıxır ki, sizdən maddi və mənəvi umacağı olanlar çoxdur. Belə çətinliyin öhdəsindən gəlmək mümkündürmü?***

– Bilirsiniz, əlbəttə tələbat böyükdür. Mən bunu çox təbii qarşılayıram. Təkcə seçicilərimin sayı 48 min nəfərdir. İmkan daxilində hamıya kömək əlimi uzatmağa çalışıram. Axı onlar məni özlərinə arxa, kömək bilib, müraciət edirlər. Tanışlarımın bəziləri deyir ki, sən imtina edib, yox deməyi bacarmırsan? “Yaxşılıq bizim balaca dünyamızın günəşidir. Təmiz vicdan isə, onun göy gümbəzidir” – deyiblər. İnsan şəxsiyyətinin cəmiyyətdə mövqeyini şərtləndirən saf əxlaq, mənəviyyat, istedad, zəhmət, dürüstlük kimi amillərdir.

Mәn Allahın möcüzәlәrinә inanan insanam. Ona görә dә, kimәsә "yox" demәyi, imtina etmәyi bacarmıram. Allah ehtiyacı olan insanlara yer üzündә seçdiklәrinin әli ilә yardım edir. Bu ilahinin öz tәqdiridir. Tamahkarlığı, çörәyi itirәnlәri, dövlәtin üzünә ağ olanları isә qınayıram. Mәnәviyyat kasıblığı hәmişә faciәvi sonluğa gәtirib çıxarır. Mәncә, insanlar arasında bir yarış da olmalıdır. Vәtәn uğrunda hünәr göstәrmәk, xalq naminә yaxşılıq etmәk yarışı...

Atalarımızın gözәl bir mәsәli var: "Çörәyi dizi üstә olanlar...". Belәlәrini heç zaman nә Allah, nә dә mәnsub olduğu xalq sevәr.

**– Biz dә sizin fikirlәrinizlә şәrikik. Sizә әdәbi yaradıcılıqda, deputatlıq fәaliyyәtinizdә vә xeyirxah işlәrinizdә uğurlar arzulayırıq.**

**"Qarabağa aparan yol"**
**1 mart 2006-cı il**

"Unudulmaz görüşlər" silsiləsindən

# *Çingiz Aytmatov:* "Biz nəhəng türk ağacının qolları, budaqlarıyıq"

## ETİRAF

Mən dünya şöhrətli, Türk dünyasının böyük oğlu Çingiz Aytmatovu çoxdan, hələ orta məktəb illərindən tanıyırdım. Ucqar dağ kəndində, Laçın rayonunun Piçənis elində doğulduğum üçün kənd həyatından bəhs edən «Əlvida Gülsarı», «Kö-



şək gözü» və başqa əsərlərini oxuduqca mənə elə gəlirdi ki, bütün hadisələr dağların qoynuna sığınmış altmış-yetmiş evlik Fərraşımda, onun çovdar zəmilərində, Dəvəboynu adlanan dəvə görkəmli yaylağımda, Xanlıq düzümdəki xalı çeşnili biçənəklərimdə baş verib. Sətirlərin arasından boylanan o insanlar, azacıq qıyılmış o baxışlar, doluxmuş o gözlər - hər şey doğma görünürdü...

İllər keçdi. Bəxtiyar Vahabzadənin,

*Anarın, mərhum Xudu Məmmədovun, Şahmar Əkbərzadənin söhbətləri Çingiz Aytmatovu daha yaxından tanıtdı mənə. Sonra «Əsrə bərabər gün», «Tauro Kassandrı» Kassandranın damğası, «Ağ gəmi», «Edam kötüyü», «Qiyamət» romanları o böyük insanı daha uca zirvələrdə görməyimə bələdçilik elədi. Amma dünyanın ən çox mütaliə edilən yazıçısı ilə şəxsən tanış olmağı, qarşı-qarşıya oturub qırğız şirniyyatı olan «Çax-çax» ilə çay içə-içə söhbətləşməyi, hətta cızığımdan çıxıb zarafatyana replika atmağı, dünyada gedən ədəbi proseslər barədə sual verməyi yuxuma belə gətirməmişdim.*

*Gözlərimə inana bilmirdim. Lakin bu, həqiqət idi. Mən Çingiz Aytmatovla üz-üzə, göz-gözə oturmuşdum. Arxada qalan ömrümün yarıdan çoxunu jurnalistliyə həsr etsəm də, seçdiyim peşəyə bu qədər dərindən minnətdar olmamışdım.*

*Bəs bu görüşün səbəbkarı, dəbdə olan ifadə ilə desək, düzənləyəni kim idi?*




*Dostluğumuzun tarixi Qarabağ münaqişəsi ilə həmyaşıd olan, tanınmış yazıçı-dramaturq, Azərbaycan Respublikası Milli Məclisinin deputatı Hüseynbala Mirələmov demişdi ki, gəlsənə, birlikdə Moskvaya gedək. Orada dostum Çingiz Aytmatovla görüşəcəyəm. Xahiş edərəm, «Qarabağa aparan yol»a, sənə müsahibə verər. Sən suallarını hazırla, sonrası mənim boynuma.*

*Hər şey böyük ürək sahibi, məramı, məqsədi xeyirxahlıqdan yoğrulmuş, Qarabağ dərdlərinə, Qarabağ yaralarına*

*«Xəcalət» povesti, «Vicdanın hökmü» pyesi, «Güllələnmiş hekayələrin fəryadı» essesi, «Dağlarda atılan güllə» romanı ilə məlhəm olmağa çalışan, insanları o müqəddəs torpaq uğrunda son döyüşə səsləyən Hüseynbala müəllimin planlaşdırdığı kimi oldu.*

*Çingiz Aytmatov Brüsseldən təzəcə gəlmişdi Moskvaya. Sonradan öyrəndiyim kimi, yenicə tamamladığı «Əbədi gəlin» romanını çap etdirmək niyyətindəydi. Zəngləşdilər. Hüseynbala müəllim saatına baxdı və dedi:*

*-Ləngimək olmaz. Ağsaqqal Qırğızıstan səfirliyində bizi gözləyir.*

*Səfirliyin əməkdaşları bizi küçədə qarşıladılar. Sevincimdən neçənci mərtəbəyə qalxdığımızı unutdum və heç indi də yadıma sala bilmirəm. Otağın qapıları taybatay açıq idi. Dağların zirvəsindəki qarı xatırladan bəmbəyaz saçlarını arxaya daramışdı. Əynində zolaqları çətinliklə seçilən külrəngli kostyum vardı. Pencəyi-*

*ni düymələmiş, qalstukunu ağ köynəyinin sonuncu düyməsinə qədər sıxmışdı. Adama elə gəlirdi ki, harasa tələsir.*

*Dostlar qucaqlaşdılar. Qısa hal-əhvaldan sonra dağ cüssəli, simasından peyğəmbərlik yağan ədəbiyyat dahisi əlini mənə uzatdı: «Hə, sən də «Qarabağa aparan yol»un baş redaktoru Əli Mahmudsanmı»,- deyə soruşdu. Həyəcanımı gizlətməyə çalışsam da bacarmadım və susdum. O, sözünə davam elədi:*

*- Hüseynbala neçə gün əvvəl telefonla deyib sənin barəndə. Doğrudur, axırıncı dəfə haçan müsahibə verdiyimi yadıma sala bilmirəm. Ancaq Hüseynin xahişini mütləq yerinə yetirəcəyəm.*

*Jer göstərdi. Hər ikimiz əyləşdik.*

*- Gəlin, əvvəlcə işimizi yekunlaşdıraq. Əgər icazə versəniz, sualsız-filansız bir neçə kəlmə deyərəm - Bunu Çingiz Aytmatov dedi və sözünə davam elədi - Çox sevindirici haldır ki, bugünkü görüşümüz alındı. Bu da ondan irəli gəldi ki,*




*Hüseynbala mənim üçün doğma adamdır. Hər ikimizin oxşar xüsusiyyətləri çoxdur.*

*Dostumun son uğurları məni xüsusi ilə sevindirir. Azərbaycanın Ali Məclisinə deputat seçilib. «Görkəmli adamların həyatı» seriyasından Andryanovla birlikdə yazdığı «Qeydar Aliyev» əsəri Rusiya elitasının, diplomatik korpusların masaüstü kitabıdır. Bu mənə fəxarət verir. Hüseyni təbrik edirəm, dost kimi bağrıma basıram.*

*İndi buyurun, suallarınızı verin bunu mənə müraciətən dedi. Fürsəti fövtə vermədim:*

# "OT KÖKÜ ÜSTƏ BİTƏR"

***– Biz dünyanın özü qәdәr yaşı olan nәhәng, rişәlәri gündoğandan günbatanadәk torpağın dәrin qatlarına işlәmiş nәhәng türk ağacının qolları, budaqlayırıq. Belәdirsә, onda eyni ağacın müxtәlif әtirli, müxtәlif meyvәlәri...***

– Nә deyәcәyinizi başa düşdüm. Sözünüzü yarımçıq kәsdiyimә görә üzürlü sayın. Bәli, biz doğrudan da, nәhәng türk ağacının qolları, budaqlarıyıq. Amma o ağacın Anadolu, Azәrbaycan türklәri, türkmәn, qazax, özbәk, qırğız, başqırd, uyğur, qaqauz, qarakalpak vә başqa budaqlarında yetişәn meyvәlәrin hamısı eyni şirinlikdә, eyni әtirdә, eyni daddadır. Heyhat, çox-çox tәәssüflәr ki, o әtri, o şirinliyi, o dadı eyni vaxtda görә, duya, hiss edә bilmirik. Tәsәlli tapılası odur ki, birgә öyündüyümüz, tarixin min illәr o üzündәn xәbәr verәn "Manas"ımız, "Dә-



də Qorqud"umuz, Atatürkümüz, Heydər Əliyevimiz var.

***– Həm də dünyanı öz söz sehrilə heyrətləndirən Çingiz Aytmatovumuz. O Aytmatov ki, onu Azərbaycanda 7-dən 77-yə qədər hamı tanıyır. Hamı sevir, hamı doğması, əzizi kimi yolunu gözləyir.***

– Dediklərinizə görə çox sağ olun. Məni Azərbaycana bağlayan elə tellər var ki, onları nə qırmaq, nə də söküb dağıtmaq mümkündür. Kimsə bu fikrə düşsə belə, o tellər zəifləməz, əksinə, on

qat, yüz qat möhkəmlənər. Hələ Sovetlər dönəmində Heydər Əliyev zəkası, Heydər Əliyev müdrikliyi, Heydər Əliyev uzaqgörənliyi, onun yaradıcı, istedadlı insanlara diqqət və qayğısı məni heyrətləndirmişdi. O, bir tərəfində gündüz, digər tərəfində gecə olan, ucsuz-bucaqsız, nəhəng bir dövlətin idarə edilməsində müstəsna rolu olan əvəzsiz rəhbər kimi tanınırdı. İkinci dəfə Azərbaycana qayıtdıqdan sonra gördüyü işlər də miqyasına görə ölçüyəgəlməz idi. Dünyanın siyasi arenasında ön sıralarda yer tutmuşdu. Yaxşı ki, bizim qırğızların və Azərbaycan türklərinin müştərək "Ot kökü üstə bitər" deyimi öz təsdiqini tapdı. O böyük insan dünyasını dəyişəndə, yerində layiqli varisi qaldı.

2003-cü ilin payızında Azərbaycan xalqı seçimini edəndə – İlham Əliyevi özünə prezident seçəndə, mən buna öz xalqımın uğuru kimi sevindim və Brüsseldən İlham Əliyevə bu məzmunda teleqram göndərdim. Teleqramda bu cümlələri ifadə etmişdim:

***"Hörmətli İlham Heydər oğlu!***

*Azərbaycan Prezidenti seçilməyiniz münasibətilə müasirlərinizin çoxsaylı təbrikləri sırasında mənim ağsaqqal təbrikimi də qəbul edin.*

*Bu, artıq həqiqətdir. Dünya ictimaiyyəti ümumxalq seçkilərinin gedişini və yekunlarını çox diqqətlə izləyirdi və demək lazımdır ki, ümidlərimiz və gözlədiklərimiz doğruldu, həyata keçdi.*

*Dövlət vəzifəsinin atadan oğula keçməsi ilə bağlı qeyri-adi varislik faktının özü xalqın məhz Sizə dərin hörmət bəslədiyinə sübutdur. Seçilən şəxs xalqın gözü qarşısında mənən, açıq surətdə və şərəflə böyüdükdə, onun siyasi reytinqi ictimai fəaliyyətin və şəxsi həyatın müşahidə edilən prosesi gedişində formalaşdıqda, məhz belə olur.*

*Siz millətin belə yüksək münasibətini haqlı olaraq qazanmısınız. Şübhəsiz ki, buna uyğun olaraq, Siz müasirləriniz və ölkə qarşısında məsuliyyəti də əla başa düşürsünüz.*

*Atanız Heydər Əliyevə və İlham Heydər oğlu, sizə hörmət bəsləyən, Çingiz Aytmatov"*

# “İMPERİYALAR DAĞILANDA XALQLARIN ƏN BÖYÜK QAZANCI AZADLIQ, MÜSTƏQİLLİK OLUR”

**– Çingiz Torekuloviç, sovet dönəmində xalqlar arasında dostluq, qardaşlıq münasibətləri vardı. Bəs niyə SSRİ dağılandan, xalqlar müstəqillik qazanandan sonra qarşılıqlı münasibətlər zəiflədi, münaqişələr, toqquşmalar tüğyan elədi.**

– Yəqin ki, bütün insanlar gözlənilməz təbiət hadisələrindən xəbərdardılar. Bəzən görürsən ki, yüz illər boyu quru çay kimi tanınan yerdə sel elə faciələr törədir ki, onun vurduğu zərəri uzun müddət bərpa etmək mümkün olmur.

SSRİ çox böyük dövlət idi. Amma dağıldı, daha doğrusu, milli münaqişələr

zəmnində dağıdıldı. Tarix boyu belə olub; imperiyalar dağılanda yanğınlardan, zəlzələlərdən, daşqınlardan, sunamilərdən daha böyük miqyaslı faciələr törədir. Ərazi məsələləri, hərbi bazalar, nə bilim, daha nələr?

İmperiyalar dağılanda, xalqlar itkilərlə bərabər, böyük, əvəzsiz olan, qərinələr, əsrlər boyu apardıqları mübarizənin bəhrəsini görürlər. Heç nə ilə ölçülməyən azadlıqlarını, müstəqilliklərini qazanırlar.

Mənim fikrimcə, ovuc boyda dünyamızda heç bir xalqın, millətin biri-biri ilə düşmənçiliyi yoxdur. Müxtəlif ideyalar, siyasətlər, regional maraqlar, fövqəl dövlətlərin “Hər şey mənim olmalı, hamı mənə xidmət etməlidi” iddiası başımıza gələn fəlakətlərin başlıca baiskarıdı. Bax, indi xalqların qarşısında duran əsas vəzifə də bu baiskarları cilovlamaqdan ibarətdir. Bəşəriyyət dərk etməlidir ki, Yer kürəsini beş dəfə, bəlkə də yüz dəfə dağıda bilən silahların al-

verçisi olan dövlətlər heç vaxt nə öz xalqlarının, nə də başqa xalqların taleyini düşünmürlər.

# "TERROR SİVİL DÜNYAMIZA SAĞALMAZ YARALAR VURUR"

**– Necə bilirsiniz, dünya ədəbiyyatının Sizin kimi ağsaqqal, uzaqgörən korifeyləri bir araya gəlməklə dünyamızın real mənzərəsini – qütbləşmənin, sivilizasiyaların və dinlərin toqquşmasıının qarşısını almaqda və digər qlobal problemlərin həllində nəyəsə nail ola bilərlərmi?**

– Maraqlı sualdı. İnana bilmirəm ki, məşhur yazıçıların hansınınsa əsərində toqquşmaya, müharibəyə, dini ayrıseçkiliyə, sionizmə və bəşəriyyətə fəlakət gətirəcək digər məsələlərə çağırış olsun. Sivilizasiya tərəqqi, inkişaf, firavanlıq, dostluq

və qardaşlıq, mədəniyyətlərin, əxlaqi dəyərlərin qorunması, yaxınlaşması deməkdir. Çox-çox təəssüflər olsun, sivilizasiyanı yalnız ABŞ-da, Avropa Birliyinə daxil olan ölkələrdə axtaranlar və bunu hər vəchlə təsdiqləməyə çalışanlar yanlış fikirdədilər və beləleri bəşəriyyətin min illərdən bəri əldə etdiyinin üstünə kölgə salır. Ən azı qədim, ulu Şərqdən əxz elədikləri dəyərləri qiymətləndirə bilmirlər. Bu isə yanlışdır, Asiya, Afrika xalqlarına hörmətsizlikdir.

Dini qarşıdurmalar isə çoxlarının görə bilmədiyi dairələr, güclü kəşfiyyat qrumları tərəfindən törədilir. Dünyanın müxtəlif regionlarında məscidləri, sinaqoqları partladanlar, müqəddəs peyğəmbərimizin karikaturalarını nəşr edənlər terrorçudular, buna şübhə yoxdur, onlar dinləri, təriqətləri qarşı-qarşıya qoymaqla çox güclü dairələrin sifarişlərini yerinə yetirirlər.

Terror sivil dünyamıza sağalmaz yaralar vuran bəladır, onu zərərsizləşdir-

mək naminə ədəbiyyatların, dinlərin, dövlətlərin, xalqların birgə mübarizəsi gərəkdir.

Bu günlərdə Moskvadan maraqlı təklif almışam. Mart ayının 26-dan 28-nə kimi "Rusiya və İslam dini" mövzusunda Beynəlxalq miqyaslı tədbir keçiriləcək və onun aparılması məndən xahiş olunub. Fürsət düşmüşkən, Hüseynbalanı da, səni də həmin tədbirə dəvət edirəm. Yaxşı olardı Hüseynbala orada çıxış etsin, öz fikirlərini bildirsin. Bizim hər bir sözümüz, hər bir fikrimiz və müsahibəmiz bizim özümüzü təsdiq etməyimizdi, özümüzü dünya anlamında dərk etməyimizdi və ətraf mühitə təsir göstərməyimizdi. İndi bu çox vacibdi. Biz hər zaman humanist ənənələri qoruyub saxlamağa çalışmışıq ki, bu da içimizin, ruhumuzun, məram və məqsədimizin təzahürüdür. Elə buna görə də, o tədbirin sizin "Qarabağa aparan yol" qəzetiniz üçün də çox maraqlı olacağına şübhəm yoxdu.

*Hüseynbala Mirələmov:*

**– Təşəkkürümüzü bildiririk, imkan daxilində iştirak etməyə çalışacağıq.**

– Görürsünüzmü, Rusiya kimi böyük dövlət məsələyə necə həssaslıqla yanaşır. Bu yaxşı başlanğıcdır. Avropa ölkələrinə örnək olmalıdır.

**– Çingiz Torekuloviç, Azərbaycan ədəbiyyatına münasibətinizi öyrənmək istərdim.**

– İndi biz Azərbaycanın tanınmış yazıçı-dramaturqu Hüseynbala Mirələmovla bir yerdəyik. Bu barədə sonra.

Rəhmətlik Rəsul Rza ilə, onun oğlu, əsərləri sevilə-sevilə oxunan Anarla, türk dünyasında tanınan Bəxtiyar Bahabzadə, mərhum Şahmar Əkbərzadə ilə dostluq əlaqələrim olub və bəziləri ilə indi də davam edir. Bütün bunların nəticəsidir ki, əsərlərimin demək olar ki, hamısı Azərbaycan dilinə çevrilib. Nizami, Füzuli, Səməd Vurğun, Rəsul Rza və adını çəkmədiyim klassikləri, müasirlərimizi mənim vətənim Qırğızıstanda sevə-sevə oxuyurlar.




Bu günlərdə xəbər tutdum ki, yaxın dostum Hüseynbalanın "Xəcalət" əsəri qırğız dilinə tərcümə olunub, qısa vaxt ərzində oxucuların masaüstü kitabına çevrilib və Qırğızıstan Yazıçılar Birliyi müəllifi "Qızıl Qələm"lə mükafatlandırıb.

Mən dostluqda dəqiqliyə, həssaslığa və təmənnasız münasibətlərə xüsusi qiymət verən adamam. Bu mənada Hüseynbala Mirələmovla oxşarlığımız çoxdu. Həmfikir olduğumuza görə tale bizi qovuşdurub. Biz hər bir mövzuda fikir mübadiləsi aparanda eyni məxrəcə gələ

bilirik. Yeni yazdığım romanımı tamamlamışam. İlk variantını Hüseynbala oxumuşdu, iradlarını, təkliflərini demişdi. İndi 300 səhifəlik sonuncu variantını bu gün verəcəyəm ki, səbrlə gözdən keçirsin. İnanıram ki, boyun qaçırmayacaq. Ümumiyyətlə, məlumat üçün deyim ki, Hüseynlə hər görüşəndə ondan müsbət enerji qəbul edirəm, mənən bəhrələnirəm.

***Hüseynbala Mirələmov:***

**– Etimadınıza görə təşəkkür edirəm. Yadınıza salmaq istəyirəm; Ötən ilin yayında, Brüsseldə əsərin son əlyazmasını mənə bağışlayacağınıza söz vermişdiniz.**

***Ç.Aytmatov:***

– Söz vermişəm, əməl edəcəyəm. Adətən, kitab hazır olandan sonra onu oxumağa can atırlar. Bizdə bu, əksinədir. Hüseynbala kitab hazır olma prosesinə qədər onunla maraqlanır, araya-ərsəyə gəlməsində yaxından iştirak edir. Ümumiyyətlə, onunla nəyisə müzakirə edəndə, sanki bir məktəb keçirik. Mənəvi, ru-

hi və intellektual bir məktəb. Birlikdə qərar veririk, ümumi bir məxrəcə gəlirik. Bu da yaradıcılığımızda öz əksini tapır.

***Əli Mahmud:***

**– Sirr deyilsə, söhbət hansı əsərdən gedir?**

– Bizim mənəvi yaxınlığımızın nəticəsidir ki, son romanlarımızın adlarında da bir uyğunluq var. Hüseynbala “Gəlinlik paltarı”nı yazıb. Mənim romanım isə “Əbədi gəlin” adlanır, qırğız dilində “Saradar kız” deməkdir. Əsər müasir həyatdan, yeni nəsildən, sosial-mədəni, şəxsi və ümumi problemlərdən bəhs edir. Burada həm də böyük məhəbbətdən, sevgidən söhbət açılır.

***Hüsyenbala Mirələmov:***

**– Siz doğrudan da dostluqda çox sədaqətlisiniz. Ötən il Brüsseldə görkəmli yazıçı Qabriel Qarsia Markeslə söhbətinizin şahidi oldum. Nəsə çox ciddi bir məsələ barəsində danışırdınız. O, xəstəhal idi. İndi sağlamlığı necədir, ya-**

**radıcılıqla məşğul ola bilirmi?**

*Çingiz Aytmatov:*

– O, indi ağır xəstədir.

*Hüseynbala Mirələmov:*

**– Çox təəssüf. Yəqin ki, daha heç nə yazmır.**

*Cingiz Aytmatov:*

– Məncə o, ədəbiyyatda yetərincə işlər görüb.

# "TÜRK DÜNYASI ELİTASININ TƏZAHÜRÜ NAMİNƏ"

**– "Beynəlxalq Aytmatov Fondu"nun prezidentisiniz. Mümkünsə, bu qurumun məram və məqsədləri barədə bir neçə kəlmə deyərdiniz.**

– Fondun prezidenti kimi, məlumat verim ki, bu qurum təkcə Aytmatovla – mənimlə məşğul deyil. Biz bütün Türk Dünyasının intellektual səviyyəli elitası-

nın lazımınca təzahürünə çalışırıq. Şərt o deyil ki, biz kiminləsə üz-üzə gələk, gücümüzü göstərməyə cəhd edək və s. Biz gərək mənəvi, mədəni aləmimizi dünya arenasına çıxaraq. Bu üsulla sübut edək ki, biz dünya ədəbiyyatının, ümumiyyətlə, dünya sivilizasiyasının ayrılmaz, həm də böyük bir hissəsiyik. Bu yöndə Avrasiya adlı platforma da mövcuddur. Biz onun ətrafında birləşmişik ki, böyük bir qüvvə yaradaq. İnanıram ki, nail olacağıq.

**– Qəribə də olsa, üzrxahlıqla soruşmaq istəyirəm: Aytmatov daimi yaşayış üçün hansı məkanı seçib?**

– Qırğız və Azərbaycan türkcəsində çox böyük məna tutumu olan "Yurd", "Ocaq" məfhumları var. Mənim Ocağım, Yurdum dünyanın üç müxtəlif istiqamətindədi. Heç şübhə yoxdu ki, doğma Qırğızıstanım, doğulub boya-başa çatdığım, nəyim varsa, hamısına görə borclu olduğum qışlağım o Ocaqlardan, Yurdlardan

əsasıdı. Sonra Moskva və İstanbul gəlir. Sizi inandırıram ki, Azərbaycanı, Bakını da onlardan ayırmaq çətindir. Ancaq mən Moskvaya çox şey üçün borcluyam.

**– Bəs Azərbaycana nə vaxt gəlmək fikrindəsiniz?**

– Azərbaycandakı yazıçı dostlarım, xüsusilə də, Hüseynbala dəfələrlə dəvət ediblər. Vaxtın azlığı məni onların yanında xəcalətli edib.

**Hüseynbala Mirələmov:**

-Qəti söz vermisiniz ki, bu yay mütləq gələcəksiniz.

**Çingiz Aytmatov:**

– Ömür vəfa etsə, buna şübhəniz qalmasın. Gələndə mütləq dostum, sirdaşım, mərhum Şahmar Əkbərzadənin qəbrini ziyarət edəcəyəm. Sovet dönəmində biz tez-tez görüşərdik.

# "QAÇQIN VƏ KÖÇKÜNLƏRİN DOĞMA YURDLARINA QAYIDACAĞI GÜNÜ" ÇOXDAN GÖZLƏYİRƏM

**– Siz Qırğızıstanın Brüsseldəki səfirisiniz. Ancaq mən sualı yazıçı Çingiz Aytmatova ünvanlayıram. Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi barədə nə düşünürsünüz?**

– Bu, dünyanı narahat edən məsələdi. İnanıram ki, işğala da, düşmənçiliyə də yeganə son qoya biləcək vasitə sülhdür. Qarabağ münaqişəsi Ermənistana da, Azərbaycana da yaxşı heç nə vəd etmir. Dünyanın Qafqaz adlı cənnətini tökülən nahaq qanlardan yumağın vaxtıdı. Qaçqın və köçkün düşmüş günahsız insanların doğma yurd-yuvalarına qayıdacağı günü çoxdan gözləyirəm.

**– Qırğız şairi S.Cusuyevin Sizə həsr etdiyi "Göy dənizdə ağ gəmi" adlı şerində deyilir:**

Üz, gəmi, gecə-gündüz,
Üz, şirin diləklərə.

Üz, gəmi, durmadan üz,
Sinə gər küləklərə.

Bu, dünya ədəbiyyatı okeanının fırtınalarına sinə gərən nəhəng Çingiz Aytmatov gəmisini hər yerdə, hər evdə hamı gözləyir.

*Mən isə sizə həsr etdiyim şerdə belə deyirəm:*

Tyanşandan başlanan
Bu yol olmayıb asan.
Bizim türk dünyasında
Ağsaqqalsan, Xocasan.

Hakim olub ruhuna,
Sazın, qopuzun səsi.
Sən zamanın əbədi,
Ölməz söz sərkərdəsi.

Silkələ, oyat bizi,
De ki, birləşmək gərək.
Bizə diş qıcayanlar,
Yıxarlar bizi tək-tək.

**– Müsahibəyə görə çox sağ olun!**

– Sizə də təşəkkür edirəm.

***Moskva-Bakı.***
*"Qarabağa aparan yol",*
*19 mart 2006-cı il*



# Ç.Aytmatov: "Hüseynbala ilə hər görüşəndə... mənən bəhrələnirəm"

Rəssam rənglərin, yazıçı isə sözlərin dili ilə danışır. Rəssamın yaratdığı tablo laldır – sanki sükunətdən doğulub. Amma rəssam da böyük sənət sahibi olduğu

**üçün yaratdığı əsərinin dilini bilməmiş deyil. Sadəcə, rəssam əsərinə elə bir dil verib ki, o yalnız insan xəyalı ilə, insan təfəkkürünün danışmayan dili ilə danışa-dilləşə bilir. Bunu rəssam da bilir, onun yaratdığı əsərdən zövq alanlar da. Kim deyə bilər ki, Səttar Bəhlulzadənin "Kəpəzin göz yaşları" tablosu danışa bilmir? Əksinə, rənglərin dilini bilən hər kəs Səttarı çox gözəl oxuyur və bu sənətkarın mənəvi dünyasını çox aydın bir şəkildə dərk edir.**

Rəssamdan fərqli olaraq yazıçının rənglər aləmi onun söz dünyasıdır. Sözün yaratdığı rənglər isə bizim tanıdığımız yeddi rəngin və bu rənglərin qovşağından, çalarlarından daha əlvandır. Amma gərək bu aləmin də, konkret olaraq sözün də dilini biləsən. Rəssam rənglərin, yazıçı sözlərin dilini bilməsə, nə sənət sənət olar, nə də sənətkar.

Azərbaycanın görkəmli ədibi, populyar roman və povestlərin müəllifi, ictimai xadim, millət vəkili Hüseynbala Mirələmovun əsərləri sözlə rənglərin sirr,

sehr dolu dilini bilməyin məhsuludur. Əsərin ideyasını yaddaşa yeridən emosiya və həyəcanın özü də çılpaq deyil. Yazıçı qələmi ilə yazılıb, rəssam fırçası ilə rənglənib. Bu əsərlər Azərbaycan oxucusuna qədərincə tanışdır. Ən başlıcası bu tanışlıq bu gün elə bir məqamdadır ki, bu barədə yalnız sənət və şəxsiyyətin vəhdəti müstəvisində danışmaq olar. Mən yazıçının qələmə aldığı əsərlərinin əksəriyyətini oxumuşam. Onun oxuduğum hər bir hekayəsi, povest və romanları çox dəyərli publisistik məqalələri, dram əsərləri barədə də müxtəlif vaxtlarda öz fikirlərimi mətbuat səhifələrində oxucuların diqqətinə çatdırmışam.

Hüseynbala Mirələmovun bədii yaradıcılığı ilə onun ilk qələm təcrübələri olan hekayələri toplanmış, "Qayada çiçək" kitabından tanışam. Azərbaycan ədəbiyyatında, ədəbi-fikir tariximizdə özünəməxsus yeri olan yazıçıya və onun sənətinə vurğunluğum məhz bu əsərdən başlanıb. "Qayada çiçək" kitabı ilə bağlı bir neçə ədəbi-tənqidi məqaləm respublikanın nüfuzlu ədəbi orqanlarında dərc

olunub. Odur ki, bu yazıda müəllifin "Qayada çiçək", eləcə də digər ədəbi əsərləri barədə təzə şərh vermək fikrində deyiləm. Amma bir daha vurğulamaq istəyirəm ki, ədəbiyyatımızın, ədəbi-mədəni tariximizin, ictimai fikrimizin formalaşmasında yazıçının xidmətləri danılmazdır. Bəlkə də "danılmazdır" sözü burada yerinə düşmür, çünki Azərbaycanın tanınmış ziyalıları, nüfuzlu elm adamları, ədəbiyyatşünaslar, görkəmli tənqidçilər Hüseynbala Mirələmovun sənətdəki mövqeyini artıq çox illər öncə təsqidləyiblər. Bu təsdiqlənmə isə heç də təsadüfi deyil. Ədibin "Cəza", "Xəcalət" povestləri, "Dağlarda atılan güllə" romanı, "Güllələnmiş heykəllərin fəryadı", son vaxtlar oxuduğum "Qumru yumurtaları" əsərləri, həmçinin görkəmli adamlar seriyasından olan ümummilli liderimizin həyatına həsr edilən Viktor Andryanovla birgə hazırladığı "Heydər Əliyev" kitabı və siyasi publisistikanın ən gözəl nümunələri sırasında dayanan prezident İlham Əliyevin, onun xanımı, Heydər Əliyev Fondunun prezidenti,



millət vəkili Mehribam Əliyevanın ictimai fəaliyyətindən bəhs edilən məqalələri tənqidçidən də, oxucudan da əvvəl müəllifdən söhbət açır, onun sənət dünyasının hansı səviyyədə olduğunu ortaya qoyur.

Ağrılı yerimiz olan Qarabağ mövzusu yazıçı-dramaturq Hüseynbala MİrəIəmovun qələmə aldığı "Dağlarda atılan güllə"dən, "Xəcalət"dən, "Maşallahın paneli"ndən, "Güllələnmiş heykəllərin fəryadı"ndan sonra Azərbaycan ədəbi fikrində geniş vüsət almağa başladı. "Güllələnmiş heykəllərin fəryadı"nın səhnə variantına baxışdan sonra yazdığım mə-

qaldəki son fikirlər indi də yadımdadır: "...Sonda əsərin müəllifi haqqında bircə kəlmə qeyd də yerinə düşər; Hüseynbala Mirələmov artıq öz dəst-xəttini yarada bilmişdir. Qarabağ problematikasının sənətdə təzahürü, şübhəsiz, bu gün üçün Mirələmov yaradıcılığı ilə daha çox bağlıdır. Danışan heykəllər... Güllələnmiş heykəlləri danışdıran sənətdir. Vətəndaşlıq yanğısı, sənətkarlıqla can vermiş sənət ən inanılmış bələdçidir." Bəli, sözün həqiqi mənasında, yazıçı bələdçidir. Cəmiyyətin, xalqın, sağlam sözün, sağlam fikrin və düşüncənin bələdçisidir yazıçı.

Bəlkə də həkimlər başqa cür deyər, amma mən bir qələm adamı olaraq ruhumun təbinə uyğun, özü də çəkinmədən deyirəm: "İnsanı tapan bütün xəstəliklər, dərdlər, ağrılar-acılar düşüncə və təfəkkürün soyuqlamasından yaranır. Lakin yazıçının ən böyük missiyası onun qələminin müqəddəsliyi də ondadır ki, o, ağıla, düşüncəyə daxil olmaq istəyən soyuq küləyin, onun gətirdiyi virusun qarşısını alır. Bu, mənəvi cavabdehlikdir. Cəmiy-

yəti, xalqı qorumaq cavabdehliyidir. Əslində, bu cavabdehlik normal düşünən hər bir insanın borcudur. Bu borcdan, bu paydan yazıçının üzərinə daha çox məsuliyyət hissi düşür və hər yazıçı, hər sənət adamı da, açığı, bu məsuliyyətin altına girə bilmir. Elə ona görə də özünü sənətkar hesab edən bir çoxları həyat həqiqətlərindən yoğrulmuş sənət əsərləri yarada bilmirlər. Səbəb təkcə istedad çatışmazlığı deyil, həm də qələmin – sənətkarın silahı olan qələmin qəlbdən su içməməsidir. Insan ürəyinin – bəzən biz ona qəlb, könül deyirik – ucu sivridir, qələmin ucu kimi. Azərbaycanın Vaqif İbrahim adında çox faciəli bir həyat yaşamış, dünyadan gənc yaşlarında faciəvi şəkildə köçmüş bir şairi var . Onun yuxarıdakı fikrimizlə səsləşən misraları gözlərim önünə gəlir:

**Tutduğum qələm yox, qəlbimdir, bu gün,**
**Uçaraq sinəmdən əlimə qonub.**
**Sevgimi kağıza köçürmək üçün**
**Ucunu dərd yonub, kədər, qəm yonub.**

Eynilə bu misralar öz müəllifini gələcək nəsillərin yaddaşına necə ötürürsə, Hüseynbala Mirələmovun əsərləri də onu bu günün və gələcəyin oxucusuna həmin obraz timsalında çatdırır. Yazıçı da, şair də yaratdıqlarında təkcə həyatı, cəmiyyəti əks etdirmir, həm də özlərinin obrazını zaman-zaman yaza-yaza cızırlar. Sadəcə, bu obraz hansı əsərdəsə bütöv görünür, bir başqasında bu görüntüdən müəyyən məqamlar gözə dəyir, lakin bütün hallarda qələm elə yazıçının ürəyidir, qəlbidir.

Bu yazıda məqsədim yazıçı-publisistin konkret bir əsəri üzərində dayanmaq deyil. İstəyirəm ki, ümumən yazıçının dünyasına, onun ictimai fəaliyyətinə, ədəbi irsinə dair bir anlıq təəssüratlarımı ümumiləşdirim.

Neçə il bundan əvvəl H.Mirələmovun "Mənəviyyatın ekologiyası, yaxud iki od arasında" məqaləsini oxumuşdum. O da yadımdadır ki, məqalə ədəbi aləmdə böyük sensasiya doğurdu. Görkəmli yazarlar-xalq şairi Söhrab Tahir, Əlibala Hacızadə, İlyas Tapdıq, Nahid Hacızadə,




türkoloq alimlər Elməddin Əlibəyzadə, Minəxanım Təkləli, Əjdər Fərzəli, Nijad Mikayılzadə...müəllifin günümüzün reallığına söykənən həmin məqaləsinə yazılı münasibət bildirmişdilər. Sözümün canı ondadır ki, yazıçı təbiətin ekologiyasının pozulmasından hansı ürək ağrısı ilə danışırsa, mənəviyyatın ekologiyasından da elə o ağrı ilə bəhs edir. Hər mənada ekoloji tarazlığın pozulması birbaşa insan amilinə, insan həyatına bəlalar gətirir. Ola bilsin ki, o bəla bu gün görünən müstəvidə deyil, amma sabah, birisi gün, bəlkə on il, yüz il sonra hökmən görünəcək, özü də daha böyük miqyasda, qlobal

səviyyədə. Bax, bu məsələ cəmiyyətin taleyində mühüm rol oynayan mənəvi ekologiyanın pozulması məsələsi yazıçının yuxusuna haram qatır, ona dinclik vermir. Nəticədə vətəndaş-yazıçı sözə söykənir, qələmə güc verir. Görünən mənzərədə biz həm cəmiyyətin faciəsini, həm də yazıçının ürək ağrısını görməyə, hiss etməyə bilmirik. "Mənəviyyatın ekologiyası" yazısında müəllif başlanğıcda bu fikirləri səsləndirir: "Azərbaycan müharibədən çıxmayıb, hələ torpaqlar işğal altındadır. Sadəcə, təmas xəttində nisbi sakitlikdir. Ancaq məndə bir əminlik var ki, biz torpaqlarımızı erməni faşistlərinin işğalından azad edəcəyik. Tarixən əksər xalqlara qarşı ədalətsizliklər olub və tez-gec həmin xalq öz haqqını qanı bahasına olsa belə, qaytarmışdır. Mən daha təhlükəli müharibə haqqında danışmaq istəyirəm. Bu mənəviyyatımızda gedən müharibədir. Mən hiss edirəm ki, hər gün, hər saat, hər an mənəviyyatımızda aşınma gedir və biz yad təsirlərin mənəvi işğalına məruz qalırıq. Azərbaycan müsəlman ölkəsidir. Müsəlmançılıq

adlanan bir ifadə var. Çox təəssüf ki, çox zamanlar bu ifadəni daha çox mənfi mənada işlədirlər. Biz Məhəmməd ümməti deyilikmi? Bu, onu göstərir ki, cəmiyyətdə ekoloji tarazlıq pozulmuşdur. Bəklə də bir qədər sərt danışıram. Hər halda, günümüzün reallıqları mənə fikirlərimi daha həyəcanla ifadə etməyə əsas verir.

Söz silahdır; özü də ən qüdrətli silah. Bu gün cəmiyyətin yazıçıların kəsərli sözünə, birbaşa sözünə, açıq sözünə ehtiyacı var. Qəlbində vətəndaşlıq yanğısı olmayanlar günümüzün reallıqlarına biganə qala bilər. Ancaq unutmayaq ki, vətəndaşlıq yanğısı cəmiyyətin övladı olan yazıçının mənəvi pasportudur. Bundan imtina edən yazıçı vətəninin, xalqının oğlu deyil. Yaxud o, artıq özünün mənəvi kökləri ilə onu böyüdən, onu tanıyan, qəbul edən xalqdan çoxdan ayrılmışdır. Onlar artıq özlərini dəfn etmişlər..." Yazıçının publisistik qeydlərindən diqqətinizə çatdırdığımız bir parçadan da həm millət vəkili, həm ictimai xadim, həm dünya miqyasında tanınmış bir iş adamı, alim, həm də bir ya-

zıçı kimi Hüseynbala Mirələmovun mövqeyi aydındır.

Xoşbəxt o adamdır ki, hər hansı sənətin, hər hansı əqidənin sahibi olmasından asılı olmayaraq cəmiyyətdə sevilir. Ictimai fikir, ictimai rəy onu hər mənada qəbul edir, dəstəkləyir. Şübhəsiz ki, adamları tanımaqda xalq, eləcə də cəmiyyət heç vaxt yanılmır. Hüseynbala Mirələmovu tanıyanlar elə cəmiyyəti, xalqı təmsil edir. Onlar əslində bilir ki, onun mövqeyini aydınlaşdıran cəhət birtərəfli, biristiqamətli deyil. Mənəviyyatın sarsılmazlığını tərənnüm edən yazıçı paralel olaraq təbiətə vurğunluğu, bağlılığı ilə də oxucuya yol göstərir. Təbiət-insan qarşılaşmasındakı ziddiyyətləri aradan qaldırmaq üçün bədii əsərlər yazmaqdan yorulmur. Çox vaxt təbiətlə nəfəs aldığını ən adi söhbətlərində qəlbindən gələn səmimi duyğular kimi üzə çıxarır: "Təbiətə münasibətə gəldikdə etiraf edim ki, ona olan böyük sevgi mənimlə eyni gündə, eyni saatda, eyni anda dünyaya gəlib. Əmdiyim ana südüylə, aldığım nəfəslə, içdiyim su ilə ruhuma, ca-

nıma hopub. Təbiət mənim üçün ikinci anadır. Ana yalnız öz övladlarının qayğısını çəkdiyi halda, təbiət bütün canlılara analıq edir. Dağlar, dənizlər, çaylar, göllər, bulaqlar, şəlalələr, güllər, çiçəklər, cüyürlər, kəkliklər, ceyranlar, qartallar o müqəddəs varlığın bizə bəxşişidir..." Buradakı səmimiyyət öz təsdiqini müəllifin yaradıcılığından keçən əksər əsərlərində – "Cəza"da, "Dağlarda atılan güllə"də, "Qayada çiçək"də, toplanmış bir sıra hekayələrində, müasir gəncliyin formalaşmasında, onların sevgi, məhəbbət hisslərinin mənəvi dəyərlərə söykənən əxlaq çərçivəsində üzə çıxmasında mühüm rolu olan "Qumru yumurtaları" əsərində də tapır. Ən maraqlısı isə yazıçı oxucuya təlqin etmək istədiyi ideyanı elə lirik, elə kövrək notlar üzərində qurur ki, həzm etməyə bilmirsən. Çox maraqlı ədəbi üsullardan bəhrələnərək ideya və məzmun vəhdəti, bağlılığı yaradır. Təbiətə sevgisini insan sevgisi üzərində, insana sevgisini təbiətə məhəbbət üstündə kökləyir.

Ədibin insana sevgisindən danışanda,

yurdu-yuvası, eli-obası fiziki-mənəvi işğala məruz qalmış tanınmış şair-publisist Əli Mahmudun dostu Hüseynbala Mirələmova həsr etdiyi "Dərdimin şəriki" poeması yada düşür. Poemada müəllif Qarabağ dərdinin şəklini çəkməklə bərabər, bu dərdi ürəyində məşələ çevirən vətənpərvər bir ziyalının da obrazını yarada bilib.

**...Hamıdan tez yetişdin**
**Xocalının hayına.**
**Yağılar od vurmuşdu**
**ömrümün sarayına.**

***

**Qara qayanın üstü**
**Cəsədlərlə doluydu.**
**İlk dəfə gördüyümüz,**
**Balasını axtaran**
**bir ananın qoluydu.**

***

**Cavan bir döyüşçünün**
**gözləri oyulmuşdu.**
**Səksən yaşlı qocanın**
**dərisi soyulmuşdu.**

***

**Qar üstə qan yağırdı,**
**qan üstə səpirdi qar.**
**Meşələr yas tutmuşdu,**
**qan ağlayırdı daşlar...**

Bu böyük dərdi, bu böyük faciənin ağrısını şair dərdinin şəriki bildiyi dostuna sənətin dili ilə danışır. Məncə, bu adi məsələ deyil. Insan həmişə yanıla bilər. Ancaq bir məqamda dərdini bölüşməyə seçim edəndə yanılmır. Dərdini kimə danışmaq məsələsi daxili duyğuların bəhrəsi olaraq üzə çıxır. Filologiya elmləri doktoru, professor Nizaməddin Şəmsizadənin də H.Mirələmovu böyük vətəndaş kimi xarakterizə edən bu poema barədəki fikirləri dediyimiz həqiqəti bir daha aydınlaşdırır: **"Poemada H.Mirələmov, Azərbaycan istiqlalının qeyrətli bir təəssübkeşi, əqidə və inamından dönməz el adamı kimi verilir. Bu, həqiqətən də belədir. H.Mirələmov geniş ürəkli, müdrik düşüncəli, təmkinli və ədalətli bir şəxsiyyətdir. O, əməlləri ilə hər bir qarabağlının – azərbaycanlının yaddaşında diriliyində öz heykəlini ucaltmış vətən-**

**keş ziyalı, qəlbi istiqlal nuru ilə çağlayan fikir və söz adamı, qeyrət timsalıdır.**"

Azərbaycanın, eləcə də dünyanın tanınmış şəxsiyyətlərinin Hüseynbala Mirələmov haqqında yüksək fikirlərini ardıcıllıqla qeyd etmək imkanında deyilik. Qırğızıstanın xalq yazıçısı, dünya şöhrətli Çingiz Aytmatovun Azərbaycan yazıçısı haqqındakı fikirlərini isə yada salmamaq olmur: "**Biz hər bir mövzuda fikir mübadiləsi aparanda, eyni məxrəcə gələ bilirik. Yeni yazdığım romanımı tamamlamışam. Ilk variantını Hüseynbala oxumuşdu, iradlarını, fikirlərini demişdi. Indi üç yüz səhifəlik sonuncu variantını bu gün verəcəyəm ki, səbirlə gözdən keçirsin. Inanıram ki, boyun qaçırmayacaq. Ümumiyyətlə, məlumat üçün deyim ki, Hüseynbala ilə hər görüşəndə ondan müsbət enerji qəbul edirəm, mənən bəhrələnirəm.**" Ədəbiyyat tariximizdə Hüseynbala Mirələmov – Çingiz Aytmatov dostluğu iki doğma xalqı bir-birinə daha da yaxınlaşdıran, əziz edən sənət əlaqələri bu gün olduğu

kimi həmişə xoş duyğularla xatırlanacaq.

Hüseynbala Mirələmov ustad bir sənətkar kimi nə qədər sevilirsə, millət vəkili kimi də ictimaiyyət arasında o qədər tanınır, sevilir. Noyabrın 7-də keçiriləcək parlament seçkilərində onun da namizədliyi irəli sürülüb. Mən əminəm ki, bu seçkidə də onun seçiciləri qalib gələcək. Belə əminlik yaranmasın ki, mən öncəgörənlik edirəm. Xeyr, sadəcə cəmiyyətin, xalqın özünüqoruma instinktinə inanıram. Doğrudur, insan həmişə instinktinə arxalana bilməz. Fəqət o yerdə ki xalq öz qaraçuxasını axtarır və ona sadiqliyini iradi olaraq ifadə etmək istəyir, onda instinkt insanın taleyini qoruyur. Hüseynbala Mirələmov hər iki tərəfdən insan taleyinin keşikçisidir. Əvvəlcə yazıçı, sonra millət vəkili kimi. Hər iki halda şəxsiyyətin vicdanı iş görür.

Milli məclisin deputatı, yazıçı-dramaturqun media nümayəndələrinə verdiyi müsahibələrin birində belə bir suala cavabını oxumuşdum: **Milli məclisin**

**deputatı və yazıçılıq – bunlardan hansına üstünlük verirsiniz?:** "Bu sual ətrafında bir qədər geniş danışmaq istərdim. Yazıçı cəmiyyətdəki bu, istər tarixi mövzularda olsun, istərsə də müasir mövzularda nöqsanları, qlobal problemləri qabarıq şəkildə oxucularına çatdırır. Sevginin, məhəbbətin anaya, Vətənə, qəlbində əbədi yer tutmuş insana, təbiətə sevginin, məhəbbətin ülviliyini, müqəddəsliyini bədii sözün gücü ilə təsvir və tərənnüm etməklə, onun insan xarakterini necə dəyişdiyini, mükəmməlləşdirdiyini, fədakar etdiyini sübuta yetirir. Deputatlıq missiyası isə başqa cəhətləri ilə gərəklidir, vacibdir. Xalq elçisi xalqın xoş güzəranı, firavan həyatı, gələcək inkişafı naminə işlək qanunların hazırlanıb qəbul olunmasında iştirak edir, onların həyata keçirilməsinə çalışır. Ən başlıcası isə, seçicilərinin qaldırdığı problemləri həll etmək istiqamətində əlindən gələni əsirgəmir. Deməli, deputatlıqla yazıçılıq bir-birinə mane olmur, əksinə, eyni məqsəd uğrunda səyləri birləşdirir." Bəlkə də bu fikirlərin

səmimiyyətinə inanmazdım. Əgər bu duyğuların müəllifini təbiətən xeyirxah bir insan kimi tanımasaydım. Elə ona görə də bu qənaətdəyəm ki, Hüseynbala Mirələmovun məqsədi millət vəkili seçilməkdə başqaları kimi uca kürsülərdən, televiziya ekranlarından, radio dalğalarından boğazdanyuxarı papulist çıxışları ilə yadda qalmaq deyil, xalqa, Vətənə dayaq olmaq, cəmiyyəti idarə edən qanunların möhkəm və işlək olmasına dəstək verməkdir. Bu keyfiyyət isə şəxsiyyətin daxili mənəvi aləminin aydınlığından qidalanır. Belələri dünyaya xeyirxahlıq timsalı kimi gəlirlər. Bu məsələyə münasibəti də yazıçının öz dilindən eşitmək daha dürüst olar: "**Mənim fikrimcə xeyirxahlığı məqsəd, kiməsə xoş gəlmək naminə etmək mümkün deyil. Bu, gərək insanın qanında, canında olsun. Mənə elə gəlir ki, yaxşılıq eləmək missiyası Tanrı tərəfindən insana ömür payı ilə birlikdə verilir. Bu ömrü ləyaqətlə yaşamağı bacaranlar yaxşı olmalı, yaxşılığı gündəlik həyat amalına, yaşam tərzinə çevirməlidir...**"

Əslində, həqiqət elə bu duyğular arasında göründüyü kimidir. Millət vəkili də, yazıçı da, tanınmış ictimai xadim də, görkəmli elm adamı da əgər bəşər övladıdırsa deməli, Tanrının quludur. Deməli, dünyaya sevgi-məhəbbət gözü ilə baxmaq onlar üçün Ulu dərgaha qovuşmaqdır. Yazıçının da, millət vəkilinin də mənəvi missiyası Tanrının buyurduqlarını yerdə qorumaq cəhdidir. Hüseynbala Mirələmov istəsə də bu cəhəddən, ona verilən bu Tanrı haqqından qurtula bilməz. Çünki doğulanda belə doğulub. Tanrısı onun qulağına pıçıldayıb ki, əbədiyaşarlığın yalnız bir yolu var: **xeyirxahlıq, həqiqət və ədalət tərənnümçüsü olmaq! Bunları qoruyub-saxlayanda, yazıçı da, şair də, müəllim də, həkim də, lap elə millət vəkili də cəmiyyət tərəfindən pozulmaz bir sevgiyə bələnir.**

**Fariz ÇOBANOĞLU**
**“Qarabağa aparan yol”**
**07.10.2010**

# DƏRDİMİN ŞƏRİKİ

***Əli Mahmud bu poemanı uzun illərin ağır sınaqlarında qardaş kimi həmişə kürək-kürəyə, ürək-ürəyə dayanmış dostu Hüseynbala Mirələmova ithaf edib.***

## Azərbaycan adlı ürək

Kitaba daxil olan "Dərdimin şəriki" lirik-psixoloji miniatür poeması Qarabağ uğrunda qanlı qadalı döyüşlər getdiyi vaxt evini-ailəsini, rahat kreslosunu ataraq Qarabağa gələn təkcə tanklara və döyüş maşınlarına yanacaq deyil, eyni zamanda evlərə-ailələrə nur gətirən görkəmli sənayeçi-mühəndis, istedadlı yazıçı Hüseynbala Mirələmova həsr

olunub. Xalq-aşıq poeziyasının bayatı-qoşma tərzində, rəvan üslubda yazılmış ithaf-poemada H. Mirələmov böyük vətəndaş cəsarətli yurdsevər, başlıcası isə Vətənin hər qarışını doğulduğu evi-ocağı təki sevən azərbaycanlı kimi təqdim olunur:

**Köksün altda bir ürək var**
**Azərbaycan adlı ürək.**
**Qədim türk dünyasının**
**Qeyrəti qanındadı.**
**Müqəddəslik qəlbində,**
**Ruhunda, canındadı.**

Poemada Hüseynbala Mirələmov Azərbaycan istiqlalının qeyrətli bir təəssübkeşi, əqidə və inamından dönməz el adamı kimi verilir. Bu həqiqətən də belədir. H.Mirələmov geniş ürəkli, müdrik düşüncəli, təmkinli və ədalətli bir şəxsiyyətdir. O, əməlləri ilə hər bir qarabağlının-azərbaycanlının yaddaşında diriliyində öz heykəlini ucaltmış vətənkeş ziyalı, qəlbi istiqlal nuru ilə çağlayan fikir və söz adamı, qeyrət timsalıdır.

***Nizaməddin ŞƏMSİZADƏ***
***Filologiya elmləri doktoru, professor.***

Salam, əziz qardaşım,
Salam, gözümün nuru.
Qəlbin səmadan geniş,
Gözün sulardan duru.

Sən dərdimin şəriki,
Sən dərdimin sirdaşı.
Biz dünyaya gələndən,
Dərdin əkiz qardaşı.

Yadındamı, o müdhiş,
O ağır səksən səkkiz?
Düşmənlər hücumdaydı,
Təmkin dərsindəydik biz.

Əlini tərpədənin,
Əlini kəsirdilər.
Vətən, torpaq deyənin
Dilini kəsirdilər.

Başımıza güllələr,
Yağış kimi yağırdı.
Onda Qarabağ səni

Köməyinə çağırdı.
Gəldin doğma övlad tək
Gəldin düşmən üstünə.
O başsız "başbilənlər"
Durmuşdular qəsdinə.

Dedilər:-getmə daha,
Şuşaya, Xankəndinə.
Qarabağlı deyilsən,
Bu ağrıdan sənə nə?
Sən tüpürdün onlara,
Dedin:-axmaqsız, axmaq,
Qadın ləçəyi imiş
Başınızdakı papaq.

O vaxtdan illər keçib,
Qəm əyib qəddimizi.
Yenidən bölüşürük
Dağ boyda dərdimizi.

***

Gəlişinlə bildinmi,
Sən nələri gətirdin?

O uca zirvələri,
O göyləri gətirdin.

Dərdimə şərik çıxıb,
Qurutdun göz yaşımı.
Gəlişinlə gətirdin,
O nakam qardaşımı!
Havasını, suyunu
Gətirdin dağlarımın.
Güllərini gətirdin
Viranə bağlarımın.

Dərdimə şərik qardaş,
Dərdini varmı çəkən?
Dağlarda qara bənzər
Saçlarına düşən dən.

Paxıllığı, pisliyi
Düşmən bildin özünə.
Hər kəsin öz sözünü
Şax deyirsən üzünə.

Sağ əlin verdiyini,
Sol ələ bildirmədin.
Naqisləri, pisləri
Dərdinə güldürmədin.

Evsizlər tanıyırdım,
Evini bağışladın.
Yerdə Allah elçisi,
Bəlkə köməkdir adın?

Bəlkə ona görə də
Dağ boydadı ürəyin.
Neçə süfrəni bəzər
Sənin duzun, çörəyin.

Görsən ki, acdı biri,
Dilinə su da dəyməz.
Bilirsən ki, namərdin
Qapısın kimsə döyməz.

***

Köhlənlərin belində
Qalxıb uca dağlara.

Tarixin özündən də
Müdrik, qoca dağlara.

Elimin keşiyində
Günlərlə dayanırdın.
Hər kəndin ünvanına
Şəksiz yazılıb adın.

Buz bulaqlar qəlbimin
Yanğısın səngitmədi.
Qarabağ dərdi ağır,
Tükənmədi, bitmədi.

Töküldü nahaq qanlar,
Ürəyin oldu şan-şan.
Eşitdim sorağını
Gah Laçından, Şuşadan.

Səni övladı bildi,
Neçə şəhər, neçə kənd.
Köməyinə çağırdı
Qaradağlı, Sırxavənd.

Tək gəlirdin Bakıdan,
Təklik necə ağırdı.
Göydən yağış əvəzi,
Mərmi, güllə yağırdı.

Gedirdin Meşəliyə,
Gedirdin Kosalara.
Qaranlıq gecələrdə
Zülməti yara-yara.

Qarabağın dərdindən,
Bakı deyildi halı.
Yalquzaqlar ağzında
Didilirdi Xocalı.

Cəmilli külə dönmüş,
Sönməmişdi Daşbulaq.
Eşitmirdi paytaxda,
Ağız deyəni qulaq.

Əyilib bükülmüşdü,
Qəddi neçə atanın.
Öküzü oynadırdı
Barmağı şarlatanın.

Sovet əsgərlərinin
Körpələr hədəfiydi.
Vəzifə kürsüləri,
Vətəni satanların
Qazancıydı, nəfiydi.

Ermənilər milləti
Qıra-qıra gəlirdi.
Anaların fəryadı
Göylərə yüksəlirdi.

Göylərə yüksəlirdi
Torpağın nalələri.
Qanımla boyanmışdı
Şuşanın lalələri.

Tər-tər çayı kükrəyib
Daşırdı, çağlıyırdı.
Ağdərə ağ gününə
Yas tutub ağlayırdı.

Ağdam matəm içində,
Gözləyirdi Zəngilan.
Saqqallı dığaların
Komandanıydı İvan.

Vəzirov evimizə
Çağırırdı yağını.
Çoxları gözləyirdi
Ermənidən doğulmuş
Xalası uşağını,
Dayısı uşağını.

Neçə kəndim, şəhərim
Odlara qalanırdı.

Azərbaycan sahibsiz-
Çapılıb talanırdı.

Qalalarım, bürclərim,
Sökülüb tökülürdü.
Xəcalətdən Vətənin
Qaməti bükülürdü.

Biz xəcalət içində,
Dözə bilmirdik dərdə.
Gədə xəstəliyinə
Tutulmuşdu bəylər də.

***

İgidlər köhlənlərin
Yalına yatmayıbsa,
Qılıncım yağıların
Qanına batmayıbsa,
Düşmən son silahını
Əlindən atmayıbsa,
Hələ müzəffər ordum
Göyçəyə çatmayıbsa,
Qoparıb qaysağını,
Duz tök yarama, qardaş.
Məncə qismətim kimi
Göyərməz bir qara daş!

***

Dostum, günün birində
Çağırdın Lənkərana.
Anladım məqsədini,
Bu da bir təsəlliydi.

Məramın, məqsədin də
Mənə yaxşı bəlliydi.

Dəmirağac meşəsi,
Ah necə sərin idi.
Evinə dəvətin də,
Mənası dərin idi.

Məlhəm oldu qəlbimə
Bircə fincan çayın da.
Dünyanın dadı vardı,
O ləvəngi payında.

Ən doğma adamları
Tanış etdin mənimlə.
Onları kəşf elədim
Gözümlə, ürəyimlə.

Lerikin dağlarından
Bir bardaq su da gəldi.

Əməllərin qəlblərdə
Mənəvi bir heykəldi.
Dinlədikcə nurani
O Daşdəmir kişini,
Gördüm, unutmayıblar
Bir xeyirxah işini.

Yoldan ötənlər durub,
Görüşünü gözlədi.
El müqəddəs oğlunu
Beləcə əzizlədi.

Beləcə, əzizlədi,
Lerik, Lənkəran səni.
Bir nurani qarı da,
Bağrına basdı məni:
-Bağçalar, bağlar sənin,
O uca dağlar sənin.
Analar anan kimi
Yaranı bağlar sənin.

Gülləri oraqla biç,
Bu çayın suyundan iç,
Sən mənim köynəyimdən
And iç, oğul kimi keç.

Oğlumu göndərmişdim
Şuşanı qorumağa.
Şəhid oldu igidim,
Qürurum döndü dağa.
Mən özüm də qurbanam,
O müqəddəs torpağa.

Gedin, qardaşınızın,
Gedin, alın qisasın.
Elə edin bu qisas
Qiyamətə qalmasın.

Bu ittiham önündə,
Lal kimi dayanmışdım.
Mən Lerikə gəlmişdim
Şuşadaydı yaşıdım.

Yandırılmış evlərin
Ağısı dilindəydi.
Şəhid məzarlarının
Neçəsi elindəydi.

Yurdsuzların kədəri
Ürəyində yaradı.
Yuxun ərşə çəkilib,
Vətən para-paradı.

Yağı tapdağındadı
Agdam, Şuşa, Kəlbəcər.
Gorus qazamatında
Qolu bağlıdı Həcər.

Atılmır aynalısı,
Nə vaxtdandı Nəbinin.
Əsirlikdə inləyən
Vətən övladı min-min.

Torpağın sinəsində
Neçə yara var-dərin.
Suları durulmadı
Qar-qarın, Həkərinin.

Çəbrayıl dağlarının
Sakinləri yağı, yad.
Oğul yolu gözləyir
Dərd nəğməli Bərgüşad.

Yağıların əlində,
Füzuli oldu talan.
Çinar meşələriylə
Külə dönüb Zəngilan.

Ağdәrәnin ağ günü
Göy әskiyә düyülüb.
Laçının dağ vüqarı
Sındırılıb, döyülüb.

Topxana meşәsinin,
Gözü yollarda qalıb.
Yurdunu itirәndәn
Körpәlәr dә qocalıb.

Neçә ildir göylәrdәn,
Başıma töhmәt yağır.
Ölüm şәrәfli işdir,
Yaşamaq daha ağır.

***

Torpaq, Vәtәn yolunda
Döyüşә getmirәmsә,

Yüzlәrlә әsirimin
Dadına yetmirәmsә,
Qırılmış meşәlәrdә
Şıv olub bitmirәmsә,
Dәrdim dağlardan ağır

Əriyib itmirəmsə,
Qoparıb qaysağını
Duz tök yarama, qardaş.
Məncə qismətim kimi,
Göyərməz bir qara daş.

***

Xilaskarı gözlədik,
Bağladılar yolları.
Millətə xəyanətin
Nökərləri, qulları.

Sapladılar xəncəri
Vətənin kürəyinə.
Nankörluq etdilər
Duzuna, çörəyinə.

Beləcə yağı düşmən
Ayaq açdı üstümə.
Yandı şəhərim, kəndim,
Baxmadılar tüstümə.

***

Nə qədər ki, Şuşaya,
Laçına getməmişəm.
Şəhid olmuş anamın
Məzarını yoxlayıb

Ziyarət etməmişəm,
Qoparıb qaysağını,
Duz tök yarama, qardaş.
Məncə qismətim kimi
Göyərməz bir qara daş.

***

"Güllələnmiş heykəllər
Fəryadı" na çağırdı.
"Xəcalət" çanağından
Başıma daş yağırdı.

"Vicdanın hökmü" ilə
Silkələdin milləti.
Sənin məramın aydın,
Sənin istəyin qəti.

Təmizlənsin yağıdan
Aranımız, dağımız.
Şuşada dalğalansın
Üç rəngli bayrağımız.

Kimsə daldalanmasın,
Nə şəhərdə, nə kənddə.
Birdəfəlik son qoyaq
Erməni adlı dərdə.

Yuyulsun vicdanlardan,
Qeyrətsizlik ləkəsi.
Yad əllərdə qalmasın
Xətailər ölkəsi.

Yad əllərdə qalmasın
Şuşamız, Laçınımız.
Duruluğa çıxarsın
Torpağı al qanımız.

Xarıbülbül gülləri
Qanımızla boyansın.
Dil açmamış körpə də
Sərhədlərdə dayansın.

Son əmrini alaq biz
Ali Baş Komandanın.
Qarabağda, Göyçədə
Zəfər himnini çalaq
Doğma Azərbaycanın.

Şəhidlərin qisası
Qiyamətə qalmasın.
Bu müqəddəs torpağa

Erməni adlı yağı
Bir də tamah salmasın.

Bilsin ki, əziləcək
Burnu sonuncu dəfə.
Atılan güllələr də
Dəyəcəkdir hədəfə.

Oxuyacaq nəğməsin
Bulaqlar, şəlalələr.
Bələdçilik edəcək
Şəhidlər məzarına
Qönçə tutmuş lalələr.

Çəkiləcək dağların
Qatı dumanı, çəni.
Qeyrət azad edəcək
İşğalçıdan Vətəni.

Onda sevincimizi
Şuşada böləcəyik.
Laçından Bata-bata,
Şahbuza gəlcəyik.

Doyunca içəcəyik
Arpaçayın gözündən.

Həsrətlə öpəcəyik
Ağrıdağın üzündən.

Səfollar İsti-suyu,
Olacaq loğmanımız.
Bazarçayın üstündə
Gül açar dörd yanımız.

Zəngəzur dağlarının
Çıxarıq zirvəsinə.

Yenidən qovuşarıq
Aşıq Alı ruhuna,
Ələsgərin səsinə.

Qayıdıb Sarıyerdən,
Keçərik Başlıbelə.
Ordan da at belində
Dönərik bizim elə.

Heyhat, elim talanıb,
Qına, qardaş, Əlini.
Axtarıb tapammıram
Kül olmuş Meşəlimi.

Qırxqızda qırx Oğuzun
Qəbirləri sökülüb.
Min illik palıdların
Qədd-qaməti bükülüb.

Babəkin qolları tək
Doğram-doğram bağlarım.
Taxtından düşürülüb
Ağ çalmalı dağlarım.
Donuzlara oylaqdı
Çəmənlərim, düzlərim.
Kaş ki, bu müsibəti
Görməyəydi gözlərin,
Görməyəydi gözlərim.

Elə bil ərşə çıxıb
Suyu, havası belə.
Qalmayıb budaqlarda
Bir quş yuvası belə.

Sökülüb ağ saraylar,
Qırılıb tut bağları.
Bir də bar verəcəkmi,
Yanmış üzüm tağları?

Elə bil heç yoxuymuş,
Başqa bar ağacları.
Eyvanlarda qurulub
Neçə dar ağacları.

Dözməyirsən dərdimə,
Mən yazığın dərdi min.

Loğmanı torpağımdı,
Ay, şəriki dərdimin.

Bir "Amalın işığında"
Əqidəndən dönməmisən.
Kişiliyin zirvəsindən
Ömrüm boyu enməmisən.

Ədalətin ölçüldüyü
Tərəzidə pərşəng oldun.
Buz bağlamış ümidlərə
Həyat verdi közün, odun.

Ağsaqqallar,ağbirçəklər,
Yolunu çox gözlədilər
Qeyrət adlı oğul kimi.
Mirzab olub dilləndirdin
Dərd əlindən susmuş simi.

Yıxılana dayaq oldun,
Yeriyənə yol göstərdin.
Öz dərdini unudaraq
Doğma bildin özgə dərdin.

***

Köksün altda bir ürək var,
Azərbaycan adlı ürək.
Göyçə getdi, Şuşa getdi,
Haray çəkdin hönkürərək.

Xocalını yağı düşmən
Alovlara qalayanda,
Laçın adlı, Ağdam adlı
Gülüstanı talayanda,
Qeyrətinlə, heyrətinlə
Gəldin elin köməyinə.
Dözəmməzdin Qarabağda
Çıraqların sönməyinə.

Millət deyə, ağızları
Köpüklənən bəy gədələr
Ünvanına söylədilər,
Çox böhtanlar, çox hədələr.

Demə bunlar bəhanəymiş,
Vəzifəni almaq üçün.
Onlar Vətəni satdılar
Kürsülərdə qalmaq üçün.

Kürsülərdə qalmaq üçün
Min bir rəngə boyandılar.
Ağaların qulluğunda
Dəsmal ilə dayandılar.

***

Natəvanın göz yaşları
Köz basıbdı bağrına.
Qələm , kağız dözməyir
Bu acına, bu ağrına.

Pənah xanın verdiyi
Suallar necə ağır.
Üzeyir də dilləndi
Təmkinlə, ağır-ağır:

"Danışan yoxdu daha,
Şuşanın varlığından.
Bu millət ayılmayıb
Hələ huşyarlığından ".

Bülbül dilə gətirdi
O “Sənsiz“ romansını.

Nəvvab axı demişdi
Dərdlərin hamsını.

***

Qədim türk dünyasının
Qeyrəti qanındadı.
Müqəddəslik qəlbində,
Ruhunda, canındadı.

Orand eli müqəddəs,
Orand dili müqəddəs.
Qədim Çin diyarından
Qulağıma gəldi səs:

-Beş əsr bundan əvvəl
Orand adlı bir nəsil
Türk adı daşıyırdı.
At belində doğulur,
Döyüşür, yaşayırdı.

İndi Orand elləri,
Lerik ucalığının

Orand nahiyəsində.
Türkün şirin ləhcəsi
Hər kəlməndə, səsində.

***

Hələ ki, deyən yoxdu,
Sənin etdiklərinin
Yüzdə, mində birini.
Kaş hamıya deyəydin,
Hatəmliyin sirrini,
Səxavətin sirrini.

Çoxları hələ bilmir,
Səxavət, mərhəmət nə?
Dünya alışıb yansa,
Onların nə vecinə?

Dünya süd göləndədi,
Əgər özləri toxsa.
Evləri yıxılacaq,
Evlərindən bir əlcə
Çörək bayıra çıxsa.

Onların öz arşını,
Öz ölçüsü, biçisi.

İnsaf tәrәzisindә
Qazancdı birincisi.

Belәlәri gözündә
Elә bil çürük qozdu.
Otsuz, susuz sәhrada
Külәk aparan tozdu.

***

Neçә әlil oğulun,
Neçә kimsәsiz qızın
Elçisi dә sәn oldun,
Atası, qardaşı da.
Şәhid analarının,
Şәhid atalarının,
Güvәnli sirdaşı da
Dәrd bilәn dәrddaşı da.

O müqәddәs diyarın
Müqәddәs ocaqları,
Ziyarәtgahın oldu.

Qaranlıq gecәlәrdә
Gәlişinlә hәr evә
İşıq doldu, nur doldu.

Düşmənlər pusqu qurub
Kəsdilər yollarını.
Əkdiyin ağacların
Görəmmədin barını.

Kamran bəylə Bəylikdə
Neçə kərə görüşdün.
Qarabağın dərdini
Dərdin kimi bölüşdün.

Yollar buruldu belə,
İşlər quruldu belə,
Miryusif tək oğullar
Qəfil vuruldu belə.

Hamıdan tez yetişdin
Xocalının hayına.
Yağılar od vurmuşdu
Ömrümün sarayına.

Qara Qayanın üstü
Cəsədlərlə doluydu.
Ilk dəfə gördüyümüz,
Balasını axtaran
Bir ananın qoluydu.

Cavan bir döyüşçünün
Gözləri oyulmuşdu.
Səksən yaşlı qocanın
Dərisi soyulmuşdu.

Qar üstə qan yağırdı,
Qan üstə səpirdi qar.
Meşələr yas tutmuşdu,
Qan ağlayırdı dağlar.

Sən də dözə bilməyib,
Hönkür-hönkür ağladın.
Süngülənmiş körpənin
Yarasını bağladın.

Bakını məst etmişdi,
Mənəm-mənəm havası.
Vəzifə kürsüsüydü
Dəllalların davası.

Deputat aşıqlar da
Hələ ki, deyişirdi.
Qəzetlərin yalanı:
"Xocalı döyüşürdü."

Meşəlinin alovu,
Sönməmişdi bəlkə də.
Qeyrətsizlik titulu
Paylanırdı ölkədə.

Yanmışdı Qaradağlı,
Yanmışdı Kərkicahan.
Növbə Şuşanın idi;
Məsləhət Moskvadan.

Xəyanət millətimin
Yerə sürtürdü dizin.
Ümidin ölməmişdi,
Yolunu gözləyirdin
Ulu öndərimizin.

Dəhşətdən damarında
Bəlkə donmuşdu qanın.
Bilirdin ki, xilası
Odur Azərbaycanın.

Bilirdin ki, kəsəcək
“Tökülən qan izini“.
Əsdirəcək düşmənin
Ürəyini, dizini.

Bilirdin ki, o gəlsə,
Çiçəklənər yurdumuz.
Millət qalxar ayağa,
Zəfər çalar ordumuz.

Ayaq tutub yeriməz
Nə böhtanlar, yalanlar.
Tökülməz nahaq qanlar.
Yerində oturdular-
Ölkəni talayanlar.

Xallı tülkü hələ də
Doymaq bilmirdi qandan.
Hərraca qoyulmuşdu
Anamız Azərbaycan.

İmperiya cəlladı
Ermənini qısqırıb
Salmışdı üstümüzə.
Kabab ocağı kimi
Baxırdı tüstümüzə.

Sən dözə bilməsən də,
Fəqət çoxu susurdu.

Başımıza göylərdən
Düşmən alov qusurdu.

Bakıya neçə dəfə
Kömək dalınca getdin.
Vəzifəni itirib
Özün köməyə yetdin.

Neyləyəydin, qardaşım,
Ölkənin başçıları
Düşmənin sirdaşıydı.
Sürtülmüşdü üzləri,
Soyuq bülöv daşıydı.
Gözündən oxuyurdum,
Qəzəbli heyrətini.
Onda mənə demişdin:
Vətən xainlərinin
Axtarma qeyrətini.
Onlar çoxadan itirib
Kişilik sifətini.

Tökülürdü qanımız
O müdhiş yanvar günü.
Qardaş dediklərimiz
Vurmuşdu sinəmizə,
Gözümüzə süngünü.

Küçәlәr qәbirstanlıq,
Yollar qan çanağıydı.
Fәryad göyә çıxırdı,
Bizi qıran yağıydı.

Fәrarilәr ordusu,
Xaç yürüşü edirdi.
Vәzirov Moskvaya,
Ziyarәtә gedirdi.

Gedirdi yeni-yeni
Mükafatllar almağa.
Ermәni harsınının
Yaddaşında qalmağa.

Bakı od içindәydi,
Qarabağda tufanlar.
Biz tәmkin öyrәnәndә
Yandırdı Göytalanı,
Robertlәr, balayanlar.

Göyçәdә qalmamışdı
Bircә kәndimin adı.
Bilirәm, hansı namәrd

Qaçqın qardaşlarımı,
Qarabağa qoymadı.

Min doqquz yüz qırx səkkiz
Təkrar oldu yenidən.
Çadır şəhərlərini
Susuz, dağsız, ağacsız
Aranda qurdu düşmən.

Dözmədin xəyanətə,
Tez yetirdin özünü.
Heyhat, düşmən güclüydü,
Eşitmədi sözünü.
Neçə köçkün ailəni,
Zəngəzurdan, Laçından,
Ağdərədən, Göyçədən,
Kəndinizə yığdın sən.

O Lerik dağlarının
Sığındılar qoynuna.
Kimsə minnət qoymadı
Dərdləri dağdan ağır
Dərdlilərin boynuna.

Ocaqları yandı gur,
Nur saçdı çıraqları.

Lerikli ağbirçəklər,
Lerikli ağsaqqallar,
Evlərinin ruzisin
Bölüşdülər tən yarı.

Dedilər yerdə qalmaz,
Tökülən nahaq qanlar.
Yəqin ki, oyanacaq
Qəflət adlı yuxudan
Qeyrətsizlər, nadanlar.

***

Yovşan hey, boyana hey,
Köç gedir o yana, hey,
Yağıya dil verəni
Qanına boyana, hey.

Ərgünəş ər kimiydi,
Səngər, sipər kimiydi,
Ölüb neçə iyidi-
Qalıb yana-yana, hey!

Meşəsi, çölü gülmür,
Çiçəyi, gülü gülmür.
Sonasından ayrılıb,

Çöyçənin gölü gülmür:
-Getmisiz hayana, hey?!

Arpa çayı lil axır,
Ağlayır, dil-dil -axır.
Xan çoban xəbərsizdi,
Deyin, Sonası saldı-
Onu nahaq qana, hey?!!

Həsrətdən yaya qalmır,
Qırxqızın, Kirsin qarı.
Ana, qardaş bilirdim
O müqəddəs dağları-
Çağırsam, gələrsiniz?
Ay qardaş, ay ana, hey!

Düşmən əfi ilandı,
O var, ilan yalandı.
Yurd alova qalandı-
Bu millət oyana, hey!

Ölənim, itənim çox,
Vətənimə qənim çox.
Ürəyimdə dözüm yox-
Bu dərdə dayana , hey!

Demişdin ki, Meşəli,
Mənim kəndimə bənzər.
Çayı, bulağı duru,
Çiçəkləri təzə, tər.
Zirvələri baş alıb
Gedir asimana, hey!

Meşəsi də oxşardı,
Çəməni, yamacı da.
Fətiri də eynidi,
Təndiri də, sacı da.
Vətən ana əvəzi-
Ətrini duyana, hey!

Dilsiz, hissiz daş kimi,
Çolaq kimi, çaş kimi,
Yağıya sirdaş kimi,
Dərdimi söyləmişəm-
Dərimi soyana, hey!

Düşmənin qapısına
Elçiliyə getmişəm.
Qanımı içənləri
Qayın, baldız etmişəm.
Özüm -özümə qənim-

Havadar çıxan çoxdu,
Evimdən qovana, hey!
Ömrüm boyu qan verən
Sinəmin yarasıdı.
Göyçə, Qarabağ getdi-
Bu hələ harasıdı?

Yağılar göz dikibdi
Türkana, Salyana, hey!
Havadan çıxan çoxdu,
Evimdən qovana, hey!

Bir el bayatısı var:
“Gəl gedək, Daş bulağa,
Suyu sərxoş bulağa.
Birin sən de, birin mən
Tökək qan-yaş bulağa”

Ay dərdimin şəriki,
Bəxti şeşədi dərdim.
Ömrümün yol yoldaşı,
Mənə peşədi dərdim.

Zəngəzuru, Təbrizi,
Göyçəsi, Qarabağı
Borçalısı, Dərbəndi
Parçalanmış millətin

Göz yaşı, sinə dağı.
Dərd nə qədər qocalsa,
Duzu qaysağı üstə.
Dərd sinəmin qənimi,
Oynar “Qaytağı” üstə.

Göz götür, o yana bax,
Bitibdi boyana, bax.
Boynu bükük bənövşə
Günəşin gülüşüylə
Az qalır oyana, bax.

Oyansa üzəcəklər,
Tanklarla əzəcəklər.
Ruhu orda olanlar
Bu dərdə dözəcəklər?!

Qırx oğuz dağlarının
Dərdi özündən ağır.
Orda yağış əvəzi
Göylərdən nifrət yağır.

Ürək dərdə tablamır
Gözlərimiz dolanda.
Dostlar qüdrətli olur
Dərdə şərik olanda.

# "XƏCALƏT" – BƏŞƏRİ XƏCALƏT

## *Yazıçı-dramaturq Hüseynbala Mirələmovun eyniadlı əsəri Akademik Milli Dram Teatrının səhnəsində*

İstedadlı rejissor Bәhram Osmanov bu dәfә "Xәcalәt"i öz adıyla, hәm dә yeni quruluşda teatrsevәrlәrә tәqdim etdi.

133-cü teatr mövsümünün afişaları arasında "Xәcalәt"in diqqәt cәlb etmәsi tәsadüfi deyil. Ona görә ki, bu sәhnә әsәri hәm Qarabağ mövzusunda nadir tamaşalardan olduğuna görә, hәm maddi vә mәnәvi dәyәrlәrimizә hörmәt, ehtiram aşıladığına, hәm dә әn ağır anlarda belә insanın vәtәnә sәdaqәtini, mәhәbbәtini tәrәnnüm etdirdiyinә görә aktuallığı ilә seçilir.

Gәnc Tamaşaçılar Teatrının sәhnәsindә "Yaddaş ağrısı" adı ilә uğur qazanan "Xәcalәt" bir ailәnin iztirablarını tәcәssüm etdirmәklә milli yaddaşı oyatmaq mәqsәdi güdürdüsә, yeni quruluş bu mövzunun daha böyük, bәşәri anlam kәsb etmәsini meydana çıxartdı.

Çünki qaçqınçılıq Dünyanın problemidir. Hәr il Ümumdünya Qaçqınlar

günü milyonlarla insanın acı taleyindən soraq verən rəqəmlər sadalanır.

Dünya siyasəti bu gün cansıxıcıdır. Eyni zamanda mədəni dəyərləri heçə endirən, insan taleyinə biganə qalan, yurd ağrısını "həzm" edən siyasətdir.

İncəsənət, ədəbiyyat "canqurtarıcılıq" missiyasını yerinə yetirir. Siyasətin tapdadığı mənəvi dəyərləri dirçəldir, yaşadır, məhvolmaqdan xilas edir...

Vətən (Xalq artisiti Nurəddin Mehdixanlı) itirilmiş torpaqların kədərini, ağrısını-acısını özündə cəmləşdirib. Dərd içini oysa da, yaddaşı oyaqdı; şüurunu zamanın sərt ruzigarları gəmirsə də, onu "uda" bilmir.

Dərdlərin, iztirabların, gündəlik məişət qayğılarının, işsizliyin pəncəsində çabalasa da ruhunda qiyam vurnuxur. Hətta səhnədə susduğu anlarda belə aktyor məharəti bu şəxsi qiyam süvarisi kimi qarşımızda canlandırılır.




N.Mehdixanlı öz qəhrəmanını mərd, dərd önündə əyilib-sınmayan bir şəxsiyyət — ata, oğul, ər kimi göstərməyə nail olur.

Vətənin yüksək amalı — yalançı qürurdan, saxta hay-küydən, qondarma inadkarlıqdan uzaqdır. Əqidəsinə sədaqəti tündməcazlıq deyil, gerçəklikdir. Ondan nikbin əhval-ruhiyyədə olmağı tələb etmək xülyadır.

Xəstə qızına dərman almağa pulu olmayanda belə dostu Muradın yadigar silahını satmağa əli gəlməyən Vətən fanatik də deyil. Bu jest itirilmiş torpaqların yalnız silah gücünə azad olunmasına inamdan irəli gəlir.

Vətən kimdir? Bu suala dürüst cavab birdir: — Vətən obrazı Qarabağ kimi cənnət guşəsini itirmiş, bədənin bir hissəsi "amputasiya olunmuş" Azərbaycanın avtoportretidir.

"Xəcalət"in dərin fəlsəfi qatında müharibə dəhşətlərinin (köçkünçülüyün, didərginliyin) insan şüurunda, əxlaqında yaratdığı depressiya ilə yanaşı, maddi zənginlik üzərində mənəvi zənginliyin və ya mənəvi yoxsulluğun üzərində maddi yoxsulluğun qələbəsi durur.

Yaddaş ağrısı — unutqanlıq faciəsi ilə üz-üzədir. İki saatlıq tamaşa boyu seyrçi qəlbən kövrəlir, bəzi məqamlarda göz yaşları üzünə süzülür. Elə göz yaşları içinə axanlar da az deyil. Çünki, səhnədə baş verənlər həm də

hər birimizin şahidi olduğu real həyat həqiqətləridir.

Bəli, hərəmizin öz problemi, qayğısı olsa da, hamımızın bir dərdi var. O dərdin adı şəxsi dərdlərin zirvəsində duran Qarabağdır. Rejissorun fəlsəfi ümumiləşdirmə qabiliyyəti "Xəcalət"i psixoloji təsir gücünü artırıb, qəmli ovqatda köklənsə də, aktyorların lirik-tragik səciyyəli dialoqları, emosional ifa tərzləri tamaşaçını riqqətə gətirsə də, insanın vətəndaşlıq mövqeyini, qalib gəlmək ümidi ilə yaşamaq qayəsini ortaya qoyur.

Əsas qayə Vətənlə Muradın qarşılaşması zamanı üzə çıxır.

Murad (Xalq artisti Ramiz Novruz) ağ qiyafədə xilaskarı xatırladır. Ancaq özünün dediyi kimi o da Bakıya ayağı yalın, başıaçıq gəlib. Gəlib və görüb ki, bura Qarabağ kimi yurdunu itirən ölkənin paytaxtına oxşamır. Biznes abı-havası insanları korlayıb. Çətin anlarında Quran oxuyub, namaz qılmaqla təsəlli tapan Murad biznes




dünyasına daxil olmaqla, maddi ağrı-acılarına məlhəm qoyub.

Amma cib telefonunun melodiyası "Qarabağ şikəstəsi" çalan Murad doğma el-obasının sərvətini qamarlamaq yolu ilə biznes dünyasına gələnlərdən deyil. Hərbi əsirləri azad edəndən sonra düşmənə çatacaq pulla əlinə maya salıb, işini qurub. Onu hətta Vətənə xəyanətdə suçlamaq istəyiblər.

İndi qaçqın soydaşlarına əl tutub, xeyriyyəçi kimi ad qazanan Murad artıq deputatlıq təmənnasındadır. Muradın dostu Vətənin qarşısında səmimi etirafının özü acı olsa da, həqiqətdir. Bəs on il didərgin həyatı yaşayan Vətəni axtarmağa onu nə vadar edib? Murad bu sirri həm özünə haqq qazandırmaq üçün, həm də Vətənin xarakterinə, qüruruna bələd olduğu üçün gizli saxlayır.

Amma Kürənin (Xalq artisti Yaşar Nuri) dilinə içki dəyəndən sonra dərdi açılır. Vətənin halına acıdığına görə Fərqanənin (əməkdar artist Mətanət Atakişiyeva) Muradla görüşünü açıb-ağardır.

Bu sirr hər üçünə — Vətənə, Murada, Fərqanəyə böyük zərbə vurur. Səhnədə komik hərəkəti ilə ağlar gözləri güldürən Yaşar Nuri Vətənin son ümidlərini puç edir. Əsərin bu kuliminasiya nöqtəsi tamaşaçını riqqətə gətirsə də, hadisələrin necə bitəcəyini daha da dramatikləşdirən istiqamətə

yönəldir.

Fərqanə də, qızı Gülyaz da (Gənc Tamaşaçılar Teatrının aktrisası Nuranə Əhmədova) ölümün pəncəsindən qurtaran minlərlə ailələrdən biri kimi dözülməz köçkün həyatına son qoyacaq o günə – Muradın gəlişinə böyük ümidlər bəsləyirlər. Çünki ölümün pəncəsindən, qəddar düşmənin əlindən qurtarsalar da, köçkünçülük həyatı Vətənin ailə üzvlərini ölümə bərabər əzab-əziyyətlərə düçar edib.

Zəruri qeyd: Dünya teatr səhnəsində nümayiş etdirilməyə layiq olan bu dramın bütün təfərrüatına, incəliklərinə nəzər salsaq orda dünyanın özü üçün mühüm həqiqətləri görərik. "Xəcalət"dəki yaralar təkcə Azərbaycan faciəsi deyil, yurd – doğma ocaq həsrətilə qovrulan 12 milyondan artıq qaçqınları olan Dünyanın faciəsidir.

Axı dünya alman irqçiliyini – Hitlerin əlaltıları olan faşist cəlladlarını Dünya vaxtında mühakimə etdi. Çünki Ümumbəşəri dəyərlərin təməlində

irqçiliklә mübarizә önәmlidir. Alman irqçiliyinә qarşı dünya ittifaqı bu meyardan yarandı. Hәm dә tarixin Nürünberq mәhkәmәsi alman xalqını xәcalәtdәn qurtarmaq üçün qurulmuşdu... Bәlkә Dünya elә özünü bәşәriyyәtә vurulan maddi vә mәnәvi itkilәrin, kütlәvi qırğınların xәcalәtindәn qurtarmaq üçün alman faşizmini, irqçiliyi mühakimә etdi... Bәs görәsәn, faşizm qәdәr tәhlükәli xәstәlik olan ermәniliyi, daşnak vandalizmini, terrorçuluğunu Dünya niyә ittiham etmir, cәzalandırmır? Mәgәr bu ittihamlar teatr sәhnәsindә, әdәbiyyat sәhifәsindә qalmalıdır? Cәzasızlıq ermәni irqçiliyinin Qafqazda daha geniş vüsәt almasına meydan verir.

Hüseyn Cavid demişkәn: “Susmaq, o da başqa dürlü fәryad” Bu cür susmaq insanlığın, bütöv bir xalqın mәnliyini bәrbad edәn fәryada bәrabәrdir.

Bәlkә dünyanı susmağa vadar edәn onun mәnәvi biosferini zәhәrlәyәn faşist ruhu, kapitalist әxlaqı, imperia-

list təvəkkürləridir? Dünyanı birləşdirən mənəvi və mədəni əsasların yerini böyük maddi maraqlar tutub. Şeytan qəhqələrinə qərq olmuş Dünya xəcalət hissindən məhrumdur. Ən müqəddəs olanı ləkələmək dünyaya abırsızlığın və abırsızların zamanını yaşadır.

Qayıdaq xəcalət dramına. Bədii tərtibat (əməkdar artist rəssam İsmayıl Məmmədov), tamaşanın musiqisi (Xalq artisti, bəstəkar Səyavuş Kərimi) müəllifin (yazıçı-dramaturq Hüseynbala Mirələmov) dramaturji materialının dərin psixoloji təsir gücünü artırır. Bunlar köməkçi vasitədən çox tamaşanın ayrılmaz komponenti kimi layiqli yer tutur.

Rejissorun və aktyorların realist təqdimatı tamaşaçıların gözləri qarşısında bu dünyanın sakini olan bir qaçqın ailəsinin timsalında bəşəri narahat edən problemin — köçkünçülüyün, qaçqınlığın məşəqqətlərini dolğunluq-



la, həm də riqqətedici şəkildə canlandırır. Xəcalət hissi sadədən aliyə doğru şaxələnir. Uçuq-sökük, bərbad şəraiti olan sığınacaqda yaşamaq yeniyetmə uşağın məktəb yoldaşları qarşı-

sında, qaçqın taleyi yaşayan Ananın övladları qarşısında, taleyin bu qismətini kişilik qüruruna sığışdırmayan atanın ailəsi, ata-ana ruhları ilə bərabər Vətən qarşısındakı, varlı dostun — Yaxşı ananın köynəyindən keçirdiyi Muradın kasıb dostu qarşısında, başı əyləncələrə qarışmış paytaxtın Qarabağ qarşısında, bugünkü nəsillərin gələcək nəsillər qarşısında, Dünyanın — Beynəlxalq təşkilatların Azərbaycan qarşısında çəkdikləri XƏCALƏT eyni kökdən şaxələnir. Belə görünür ki, Dünya Beynəlxalq Hüquq normalarına əməl etmədiyindən xəcalət qloballaşır. Qəribədir, Muradla partnyorluq edən amerikanlılar özlərini "dünyanın ağıllı başları" hesab etsələr də yalnız Azərbaycanın neftini görürlər, onun Qarabağ boyda dərdini, itkisini isə guya "görmürlər".

Muradın ədası Şərq dünyasının məhsulu deyil, Qərb dünyasından gəlmə ədadır. Öz işinin xatirinə, Quran

oxumaqdan, namaz qılmaqdan vaz keçib, avropasayağı həyat tərzi sürən Murad obrazını məharətlə oynayan aktyor Ramiz Novruz kapitalist münasibətlərinin nə qədər dəyişkən, şəxsi maraqlar üzərində qurulduğunu açıb göstərir.

Xatırlama: Rejissor Bəhram Osmanovun ilk quruluşunda düşmən obrazları — erməni tarixçisi olan professor, Vətəni əsirlikdə incidən saqqallı erməni hərbçiləri yeni quruluşda "ixtisara" düşüb. Söz yox ki, yığcam aktyor kollektivi də "Xəcalət"in böyük mahiyyətini peşəkarlıqla nümayiş etdirir. Səhnədə düşmən obrazını yaratmaqdan milli aktyorlar görəsən niyə vaz keçib?

Kaş, Azərbaycanda teatrın əsası qoyulduğu gündən əzəli və əbdi düşmən obrazını səhnədə yaratmaqla ərazisi, musiqisi, mədəni abidələri, mətbəxi, mədəniyyəti təcavüzə məruz qalan xalqın tamaşaçısına məkrin, riyakar-

lığın, faşist ruhunun, erməni xislətinin iç üzü göstəriləydi! Azərbaycan xalqı heç bir xalqa qarşı kin-küdurət bəsləmir. Düşmən mövqeyində durmur. Hətta teatr sənətçiləri iki saatlıq tamaşada “zalım düşmən” ola bilmir. Bu, düşmənə nifrətdən çox, xeyirxahlığın, milli ruhun, saf əxlaqın nəticəsidir.

Vətən kimi oğullara, Fərqanə kimi analara, Gülyaz kimi uşaqlara əzab-əziyyətli didərgin həyatı yaşadan, azərbaycanlılara qarşı içindən vulkan kimi kin püskürən, onların dədə-baba torpaqlarını işğal edən düşmənsə hələ də cəzasızlığından tarixin yeni-yeni qanlı vəhşilik, işğalçılıq səhifələrini yazmaqdadır. Zaman, tarix qarşısında əsl xəcalət yükü onların üstündədir. Dünya coğrafiyası isə qan yaddaşı ərazisindən qat-qat kiçikdir.

Bu dünyanın ağalığı eşqinə düşənlər də, qonşu malına, qonşu payına sahiblik iddiasında olanlar da, silah,



pul, riyakarlıq, fitnəkarlıq yolu ilə "qələbə" qazananlar da öz axirət dünyasını satanlardır!

Bu gün Azərbaycana – müsəlman aləminə qarşı yönələn siyasət – xristianlığın, irqçiliyin coğrafiyasını genişləndirməyə xidmət edir və bu, DÜNYA üçün daha böyük xəcalətdir.

Bu mənada "Xəcalət" məişət dramı deyil, siyasi və qlobal problemlər dramıdır. Ona görə də bu dramın əsas qayəsinə Beynəlxalq Münasibətlər prizmasından yanaşılmalıdır.

Bəli, "Xəcalət" dünya teatr səhnəsinə gedən yoldadır. O təkcə milli-mə-



nəvi dəyərlərə, qürura dəvət deyil, həm də haqqın qələbəsinə, xeyrin mübarizəsinə çağırışdır.

Fikrimin sonunda, nəticə olaraq yalnız onu qeyd etmək istərdim ki, “Xəcalət” müəllifin — Hüseynbala Mirələmovun yurdsevərlik düşüncələrinin məhsulu olsa da, təcavüzkarlığa, haqsızlığa, vicdanı susmuşlara qarşı böyük qiyamdır.

Teatr səhnəsində öz bədii həllini tapan bu qiyam yalnız bəşəri müstəvidə, beynəlxalq həyatda uğurla başa çata bilər! Çünki milli ağrılara istinad edən

“Xəcalət” bəşəri ağrıya çevrilərək zamanın, tarixin, dünyanın yaddaşı üçün ibrət dərsidir. Dünyanın çoxsaylı problemlərindən biri də, qonşuluqda yaşadığı dövlətlər üçün təhlükə mənbəyi olan erməni şovinizmidir. Bu gün o Gürcüstana, Azərbaycana, Türkiyəyə qarşı məkrli iddialar irəli sürür. Əgər dördüncü sərhəd qonşusu olsaydı, ona qarşı da təcavüzkar siyasət yürüdərdi. Dünya bu anormallığa seyrçi mövqedə qalmamalıdır. Ən azından bir həqiqəti dərk etməlidir dünya: — Ermənistan yarandığı gündən öz ərazisini qonşu dövlətlərin — ələlxüsus da Azərbaycan torpaqlarının hesabına genişləndirib.

Azərbaycan isə əksinə, son 200 ildə Rusiya, İran, Ermənistanın həndəsi şəkildə yaratdığı süni “Bermud üçbucağında” torpaqlarının 80 faizini itirib.

Əgər bu gün Cənubi Qafqazda bütün problemləri törədən erməni xislətidirsə, demək Dünya erməni proble-



minə çarə etməyin vaxtını çox gecikdirir.

Çünki, irqçilik motivlərindən yaranan fəlakətlərə bəşəriyyət göz yummamalıdır. "Xəcalət"dəki problem dünya teatrının diqqətindən kənar qalan başlıca mövzulardan biridir. Ona görə "Xəcalət" haqqa dəvət, həm də dünya teatr səhnəsinə gedən yoldadır. Bu, dram əsəri milli ağrımızdan yaransa da, onun uğurlu yolu bizi sevindirməyə bilməz!

# Şah əsəri yaxşılıq olan elçi

*XƏTAİ RAJONU 33 SAJLI BİRİNCİ SEÇKİ DAİRƏSİNDƏN DEPUTATLIĞA NAMİZƏD HÜSEJNBALA MİRƏLƏMOVUN SEÇİCİLƏRLƏ GÖRÜŞÜNDƏN ESSEVARİ FRAQMENTLƏR*

...Bakıda çiskin yağışlar yağır. Ana təbiət artıq öz seçimini edib; fəsillərin taxtı-tacına küləkli, yağışlı-yağmurlu payızı çıxarıb. İndi növbə cəmiyyətindir — bu gün Azərbaycan cəmiyyəti də öz ləyaqətli insanlarını ölkənin ali qanunverici orqanı olan Milli Məclisin kürsüsünə seçməyə hazırlaşır! Bu kürsüdə yeri görünən namizədlər arasında çağdaş Azərbaycan ədəbiyyatının görkəmli nümayəndəsi yazıçı-dramaturq Hüseynbala Mirələmov da var.

Kimdir Hüseynala Mirələmov? — Ürəyi doğma Azərbaycanla bir döyünən insan. Özündə-sözündə dağ ucalığı, çay həzinliyi, meşə səssizliyi, bulaq sərinliyi, dəniz coşqunluğu, qartal harayı yaşadan — böyük ruh adamı, şəxsiyyəti və qələmi ilə Qarabağın azadlığı uğrunda döyüşən əsgər...

Hüseynbala Mirələmov — o, təkcə sözünün sorağı dünyanın nəhəng ölkələrinə gedib çatan qələm sahibi de-

yil, hәm dә cәfakeş ictimai-siyasi xadim, haqqın-әdalәtin carçısı, әqidәsinә sadiq silahdaş, millәt elçisidir…

Hüseynbala Mirәlәmov — sözü ilә әmәli bir olan vәtәndaş, mәnәvi dünyası zәngin alimdir! Öz müasirlәrinin ruhunu gözlәrindәn oxuyan hәssas bir ziyalı, gәnc nәsillәrә mәnәviyyat dәrsi keçәn müәllim, öyüd-nәsihәtlәri ilә sayılıb-seçilәn müdrik el ağsaqqalıdır…

Bәli, insanın böyüklüyü nә yaşla, nә bәxtlә, nә dә vәzifәsi ilә deyil, VӘTӘN naminә gördüyü işlәrin, xalqına elәdiyi yaxşılıqların miqyasıyla ölçülür. Ömrünün kamillik dövrünü yaşayan Hüseynbala müәllim gәnc yaşlarından ta bu günlәrәcәn insanlara, vәtәnә, el-obaya fayda verәn, yorulmadan әmәli vә zehni fәaliyyәtlә mәşğul olan yaradıcı adam, dübarә böyük ürәk sahibidir.

Mәnbәyini doğulduğu müqәddәs seyid ocağından götürәn xeyirxahlıq,

yurdsevərlik, vətənpərvərlik sevgisindən qətrə-qətrə, təbərrik kimi dadızdırıb insanlara. Yaxşılıq Allahın seçilmiş bəndələrinə bəxş etdiyi — var-dövlətə, sərvətə bərabər bir nemətdir. Hüseynbala Mirələmov da böyük Rəbbimizin ona bəxş etdiyi bu neməti ünvanına üz tutan insanlardan əsirgəmir...

"Tanrıya aparan yol insanların etdiyi Yaxşılıq körpüsündən keçir". Sevə-sevə yaşamaq, sevə-sevə yaşatmaq Hüseynbala Mirələmovun əsas qayəsidir. Şah əsərinin adı YAXŞILIQ olan bu insan həm də Azərbaycanda öz oxucularından ünvanına ən çox məktub gələn görkəmli ədibdir. Mətbuat səhifələrində onun yazıçı ömrünə işıq salan yüzlərlə məqalə, esse, oçerk, açıq məktublar dərc olunub, bədii-publisistik yaradıcılığından bəhs edən onlarca kitablar, monoqrafiyalar nəşr olunub!

Bunlar təsadüfi deyil, çünki Hü-



seynbala Mirәlәmov Qarabağ dәrdimizi dәrindәn duyan, әsәrlәrinin çoxunu da bu mövzuya hәsr edәn yazıçıdır. Bu әsәrlәr azәrbaycanlı oxuculara vәtәnpәrvәrlik ruhu aşılamaqla yanaşı,

dünya oxucularına bu müharibə dəhşətlərini, xalqımızın bağrına erməni faşizminin vurduğu yaraları bədii-sənədli şəkildə açıb gösətrir. Daha doğrusu, Qarabağ faciəsinə laqeyd qalan, Azərbaycanın haqqına ədalətsiz münasibət göstərən dünyada BƏŞƏRİ XƏCALƏT, BƏŞƏRİ UTANC hissləri oyadır.

Yazıçının beş il öncə “Azərbaycan” jurnalında dərc olunmuş “Dağlarda atılan güllə” (“Yanan qar”) romanını oxuyandan sonra Xalq şairi Qabil öz təəssüratını vulkan püskürməsinə çevirərək belə dilə gətirmişdi: “Dağlarda atılan güllə” mənim ürəyimdən tikan çıxartdı. Dedi ki, bəsdir, yüz il əvvəl tarixçi Veliçkonun ermənini pisləməsindən təsəlli tapdınız, bəsdir, bədnam, nankor, naxələf qonşu deyə-deyə odunuza su səpdiniz, bəsdir, “Dənizdən-dənizə böyük Ermənistan” iddiasını ələ sala-sala qəzəbinizi soyutdunuz, bəsdir, “Lazım gəlsə” deyə-

deyə işinizdə-gücünüzdə oldunuz... bəsdir, “Torpaqlarımızın iyirmi faizini verə-verə bir qarışını da verməyəcəyik” deyə-deyə ikrahla lovğalandınız... bəsdir, gün o gün olsun deyə-deyə toylarda arsız-arsız “Laçın”, “Şuşa” adlı bədnam — məhz bədnam, uydurma rəqslərə qol qaldırdınız. ...Vətən torpaqları “Dağlarda atılan güllə”nin min-min şimşək parıltısından parıltılı olan işığında görünür. Bu yollarda — Qeyrət, a vətəndaşlar! — deyə-deyə partizanlar — Qarabağ partizanları irəliləyir”.

H.Mirələmovun “Xəcalət”, “Güllələnmiş heykəllərin fəryadı”, “Vicdanın hökmü”, “Yanan qar” və azərbaycançılıq ruhundə qələmə aldığı başqa əsərləri də sözün əsl mənasında onun öz oxucusunun gözləri qarşısında Qarabağ uğrunda qələmiylə döyüşən mübariz əsgər və fədakar yazıçı obrazını yaradır. Bəli, əbəs yerə, müasirləri onu çiyinlərində bir elin dərdini gəzdirən

ANTEYƏ bənzətmirlər; — doğrudan da Hüseynbala müəllim Məkkəsi, ziyarətgahı Şuşa olan ZƏVVARDIR...

Bir bayatıda deyildiyi kimi: "Yatan yurdda təpər olmaz, el arası çəpər olmaz, bundan böyük SƏFƏR olmaz!" — deyən sənətkar bu gün Millətin elçisi kimi BÖYÜK YOLA çıxıb!..

Onun mənalı ömür yoluna nəzər salan hər kəs H. Mirələmovun çoxşaxəli və çoxçalarlı fəaliyyəti ilə diqqətçəkən və məsuliyyətli bir şəxsiyyət olduğunu bilir. Vaxtilə MDB məkanında yüz tanınmış direktordan biri kimi ad qazanmış bu bacarıqlı mühəndisin təşkilatçılığı, işgüzarlığı, əqidəsi siyasi lider Heydər Əliyevin və onun davamçısı İlham Əliyevin diqqətindən kənar qalmamışdır. Məhz İlham Əliyevin tövsiyəsiylə bir vaxt 625 nəfərlik Qaz Emalı zavaduna rəhbər vəzifəyə göndərilən Hüseynbala Mirələmov bu gün Bakının ən böyük rayonu olan Xətai rayonunda çoxminlik Yeni

Azәrbaycan Partiyasının rayon tәşkilatına sәdrlik edir…

Bu diqqәt vә qayğıya görә Hüseynbala Mirәlәmov öz әqidәsinә sadaqәtini nümayiş etdirәn bir silahdaş, hәm dә qәlәm sahibi kimi on ildir BÖYÜK VƏ ƏZƏMƏTLİ BİR NƏSLİN DASTANINI yazır!

"Heydәr Əliyev Azәrbaycanın üzünә Avropanın qapılarını açdı…" deyәn yazıçı ulu öndәrin ideyalarının vurğunu vә tәbliğatçısı kimi "Amalın işığında", "Hәqiqәt", "Zәfәr yolu", "Bir günәş var", "İşığın izi ilә", "Millәtin atası", Moskvanın "Moladaya Qvardiya" nәşriyatında — dünyada әn çox oxunan "Görkәmli adamların hәyatı" adlı bioqrafik seriyada "Heydәr Əliyev", İlham Əliyev", "Zәrifә Əliyeva" kitabları çap olunmuşdur.

Böyük şәxsiyyәtlә vә onun ailәsinә sonsuz sevgiylә qәlәmә alınan bu kitablar hәm dә Azәrbaycan haqqında böyük vә qiymәtli ensiklopediyadır.

Namizədin vəkili, ədəbiyyatşünas alim, Dövlət mükafatı laureatı Nizaməddin Şəmsizadə Hüseynbala Mirələmova həsr etdiyi "Yazıçı ömrünə üvertura" (monoqrafik versiyalar) kitabının "ƏQİDƏYƏ SƏDAQƏT" bölümünü bu sözlərlə başlayır: "Hərə bir namə yazdı... Firdovsi "Şahnamə, Nizami "İsgəndərnamə", Xətai "Dəhnamə", Fizuli "Şikayətnamə"... Mirələmov da "HEYDƏRNAMƏ" yazdı. Yazılan qalacaq. Çünki əlyazmaları yanmır...".

Sözün qüdrəti haqqın ifadəsidir — Həzrəti Əli əleyhissalam sözün hikməti barədə belə buyurub: "Sözün yeri könüldür, ismarlandığı yer düşüncədir, onu qüvvətləndirən ağıldır, meydana çıxaran dildir... düzgünlüyü isə doğruluğundadır".

Bəli, bu gün doğru SÖZLƏ Azərbaycan xalqının taleyini və tərcümeyi-halını yazan bir kişi — Hüseynbala Fazil oğlu Mirələmov YAP-ın 33 say-

lı Xətai birinci seçki dairəsindən dördüncü çağırış Azərbaycan Respublikasının Milli Məclisinə deputatlığa ən layiqli və ləyaqətli namizəddir. Məmləkətin ona və onun silahdaşı olan insanlara ehtiyacı var. Bunu namizədin vəkilləri professor Nizaməddin Şəmsizadə, "Azərbaycan" jurnalının baş redaktoru İntiqam Qasımzadə, "Qarabağ" qəzetinin baş redaktoru Çingiz Tofiqoğlu seçkiqabağı görüşlərdə dönə-dönə vurğulayır.

Həyatda çox şey YAXŞINI yamandan ayırmaq bacarığından asılıdır. Bu qərinələrin sınağından çıxmış bir deyimdir. Seçim — həm də mükəmməl seçim etmək mənəviyyat məsələsidir. Böyük ispan mütəfəkkiri Baltasar Qrasian seçmə qabiliyyətini Allahın insana bəxş etdiyi ən gözəl vergi adlandırıb. Hüseynbala Mirələmovun seçkiqabağı görüşlərində mən bir daha bunun şahidi oldum. Və hiss etdim ki, başqa namizədlərdən fərqli olaraq

Hüseynbala müəllimin Xətai rayonu və buranın sakinləri ilə tanışlığının tarixi beş — on ilin söhbəti deyil. Özünün dediyi kimi, onun taleyini bu rayona qırılmaz tellər bağlayır; əmək fəaliyyətinin böyük bir dövrü də bu rayonun adıyla bağlıdır.

Uzun müddət Xətai rayonunda rəhbər vəzifələrdə çalışıb, burada Maye-Qaz İstehsalat Birliyinin baş direktoru, Azərbaycan Dövlət Yanacaq Komitəsinin birinci müavini və bir neçə il həmin komitənin sədrini əvəz etmişdir. Deputatlığa namizəd öz seçiciləri ilə görüşlərində çox böyük fəxarət və qürur hissiylə dilə gətirir ki, Yeni Azərbaycan Partiyasının Xətai rayonunda ilk yaradıcılarından biridir.

...Bəli, parlament seçkilərinə son akkordlar çalan bu payız günlərində Bakıda bəzən yağışlar da yağır, küləklər də əsir. Amma bu, əsl seçki abhavasında yaşayan Xətai sakinlərinə

öz layiqli namizədi ilə görüşlərə zərrə qədər xələl gətirmir... Hər gün onun seçki qərargahına qocalı cavanlı neçə-neçə seçici üz tutur. Onlarla həmsöhbət olanda bir daha şahid oldum ki, bu dairədə yaşayan hər bir Azərbaycan ziyalısının, bütün təbəqələrdən olan seçicilərin arzusu Hüseynbala müəllim kimi bir şəxsiyyəti yenidən Millət Vəkili görməkdir.

Hər bir seçicisinə cansağlığı, firavan həyat, ocağına xeyir-bərəkət arzulayan Hüseynbala Mirələmova mən də oxucuları və qələm yoldaşları adından 7 noyabrda uğurlar diləyirəm, əminəm ki, uzaqgörən seçiçilər o gün öz düzgün seçimini edib, Hüseynbala Mirləmovu özlərinə Millət Vəkili seçəcək!

***"525-ci qəzet"***
***30 oktyabr 2010-cu il***

# SAĞLAM DÜŞÜNCƏLİ GƏNCLƏR GÜNƏŞİN ZƏRRƏLƏRİDİR

Onu Müasir Azərbaycan ədəbiyyatında yazıçı-daramaturq olaraq tanıyırlar. Oxucuları demək olar ki, cəmiyyətin bütün təbəqələrini əhatə edir: — Tələbə-gənclər, ziyalılar, yaşlı nəsil... Qələmə aldığı əsərlər barədə çoxlu rəylər, kitablar yazılıb... Kitabları başqa xalqların dillərinə çevrilib... Təqdimat mərasimləri keçirilib...

Yazıçının fikrincə, oxucusu olan qələm sahibi, xoşbəxt adamdır. Çünki ədəbiyyat VAR olmaq deməkdir. Bu varlığı və ya var olanı sevməyən insan dünyanı, cəmiyyət həyatını dərk

edə bilməz!

Dünya — gör-götür dünyasıdır. Biz onun məna qatını aça-aça, öyrənə — öyrənə hər birimiz öz DÜNYAMIZI yaradırıq. Həyatmızı mənalandıran da elə bu, ÖZÜNÜ-yaratma prosesidir. Yazıçı-dramaturq, millət vəkili Hüseynbala Mirələmovun insan, zəhmət, əqidə, gözəllik və s. barədə fikirlərinin maraqlı olduğunu düşünərək, onunla apardığım son müsahibəni oxuculara təqdim etmək qərarına gəldim.

**— Zəhmətin həyatınızda rolu yəqin ki, az olmayıb?**

-...Nə deyim? Lap erkən yaşlarımdam zəhmətə alişmışam. Uşaqlıq illərim Lənkəran şəhərində keçib. Orada məktəbə getmişəm və orta məktəbi medalla bitirmişəm. Həyatımın o dövrü böyük xatirələrlə zəngindir. Həm orta məktədə, həm ali məktbdə uşaqlıq və gənclik illərimi həsrətlə xatırlayıram. Bu mənim

ömür yolumdur. Vətənə, torpağa məhəbbət, müqəddəs amallara sədaqət, elmə həvəs və nəhayət, ədəbiyyata maraq hisslərim həmin illərin məhsuludur... Sonradan həyatda qazandıqlarım hər nə varsa, keşməkeşli uşaqlıq və gənclik illərimə borcluyam. Ömrümün bu illərinin xatirəsini elə ilk müəllimlərimin xatirəsi kimi əziz tuturam. Məncə həyat özü də adama müəllimlık edir, arzularımızı bu, və ya digər sahəyə istiqamətləndirir... İnsanın uğur zəhmətə qatlaşmaqdan və həyat təcrübəsindən doğan bir məntiqə əsaslanır..

**— İxtisasca mühəndis olan şəxs necə oldu ki, söz dünyası üz tutdu?**

— Lap balaca yaşlarımdan sözün sehrinə düşmüşəm. Hələ orta məktəbə oxuyanda evimizdə mənim üçün çox qiymətli olan adi bir kitab rəfi var idi. Həmin rəfdə Nizami Gəncəvinin "Xəmsə"si, Füzulinin əsərləri əsas yer tuturdu. 5-ci sinif

şagirdi olanda uşaq mәtbuatında dәrc olunan bütün yazıları maraqla oxuyurdum. Vә oxuduğum şeir vә nәsr parçalarından lәzzәt alırdım. Hәtta xoşuma gәlәn parçaları әzbәrlәyirdim. Uşaqlıq dövrünün әn maraqlı xüsusiyyәtlәrindәn biri dә o vaxt oxuduğumuz kitabların qәhrәmanlarına bәnzәmәk xәyalı ilә yaşamağımız idi. Vә elә oldu ki, bir dәfә 7-ci sinifdә oxuynda cәsarәtlә qәlәmә aldığım yazını redaksiyaya göndәrdim. Bu düz 50 il bunan öncә olub. 1961-ci ilin noyabr ayının 7-sindә. “Leninçi” adlanan rayon qәzetindә “Bir tikә çörәk” adlı hekayam cap olundu. Sonra hәmin hekayәm o vaxt mәktәblilәr üçün dәbdә olan “Azәrbaycan pioneri” qәzetindә dәrc olunan gün demәk olar ki, bütün mәktәbdә mәşhurlaşdım. Hәyat hadisәlәrindәn tәsirlәnib yazdığım “Bir tikә çörәk” hekayәm mәnim әdәbiyyata gәlişimә tәkan oldu, desәm yanılmaram. 60-



cı illərin ikinci yarsında “Ulduz” dərgisi yarananda mən artıq tələbəydim. Bu jurnalın ilk saylarının birində “İzlər” adlı hekayəm dərc olundu. Beləcə ədəbi fəaliyyətə başladım.

**— “Xəcalət” pyesiniz beynəlxalq teatr festfalında nümayiş etdiriləndə hansı hissləri keçirirdiniz?**

-Təbii ki hər bir müəllif tanınmış teatrlarda əsərinin tamaşaya qoyulduğuna sevinir. Əsərdəki bədii obrazlara can verən aktyorlardır.. Burada rejissor əməyi də az rol oynamır. Mən

yaratdığım obrazların səhnə taleyini görəndə sevinc hissi keçirirəm. Əsərlərimin bir çoxuna ekran həyatı qismət olub. Onlardan kinofilim də, televiziya filmi də çəkilib...

Ötən il Yaltada 4-cü BEYNƏLXALQ TEATR festivalında "XƏCALƏT" pyesimin tamaşası ilə çıxış edən Azərbaycan Dövlət Akademik Milli Tetrının kollektivi "Qran-pri " mükafatına layiq görüldü. ONU DA QEYD EDİM Kİ, "Xəcalət" "müasir dünyanın reallıqları ilə səsləşən" səhnə əsəri kimi dəyərləndirildi... Bu tamaşada Qarabağla bağlı Azərbaycan həqiqətlə ön plana çəkilmişdi. Tamaşa Simferopolda və Yaltada böyük maraqla qarşılandı, həmçinin Ukrayna Teatr Xadimləri İttifaqının diplomuna, Kırım şəhər başçısının təşəkkür diplomuna və "Nika" mükafatına layiq görüldü... Bu ilin martında Serbiyanın paytaxtı Belqrad şəhərində Serbiya, Rusiya, Rumıniya,

Bolqarıstan, Polşa, İran, Bosniya və Hersoqovinanın nüfuzlu teatr kollektivlərinin iştirak etdikləri "Slaviya -2012" Beynəlxalq Teatr Festivalında "Xəcalət" tamaşasıyla çıxış edən Azərbaycan Dövlət Akademik Milli Dram Teatrı "Ən yaxşı tamaşaya görə" mükafatı ilə təltif olundu. Tamaşadan sonra çıxış edən festivalın təşkilatçısı, Belqrad şəhərindəki "Slaviya" Teatrının direktoru Batriç Jarkoviç "Xəcalət" tamaşasında əks olunmuş süjet xəttinin XX əsrin 90-cı illərində keçmiş Yuqoslaviya məkanında baş vermiş hərbi münaqişələrdən əziyyət çəkmiş xalqların yaşadıqları məqamlarla üst-üstə düşdüyünü, bu baxımdan əsərin zamanın və tamaşaçıların mənəvi-psixoloji tələbinə cavab verdiyini xüsusi qeyd etmişdir.

**— Sizsə dünyanı gözəllik xilas edəcək, yoxsa ağıl?**

-Bu barədə mənim düşüncələrim

fərqlidir. Dünya özü gözəlliklərlə doludur. Ancaq gözəllik bu müasir dünyanın xilas yolu ola bilməz... Axı Gözəlliyin özünü də qorumaq lazımdır. Bunun öhdəsindən təkcə ağılla da gəlmək qeyri-mümkündür. Hərçənd ki, bütün yaranmışlardan fərqli olaraq insan ağıl və düşüncə sahibidir... Lakin səmimiyyət olmasa ağılın da müsbət nəticə verəcəyi şübhə altındadır. Dünyada elə ağıllı hökmüdarlar və ya diktatorlar olub ki, qan tökməyə, müharibə etməyə az qala əyləncə kimi baxıblar. Deməк, nüvəsində səmimiyyət olmayan ağıl bəşəriyyət üçün fəlakət törətməyə qadirdir. Tarix belə fəlakətlərin az şahidi olmyıb!

Obrazlı şəkildə desək, Ağıl qəlibdən çıxarılmış metal ərintisi kimidir. Bu qəlibin özəyində bizim davranış və düşünsələr əsas yer tutur. Ona görə mən belə düşünürəm ki, yalnız səmimi hisslər bəşəriyyətin nicat

yolu ola bilər!

SƏMİMİYYƏT ağıl atının yəhərinə oturmuş çapar kimidir. Qarşıya çıxan ən təhlükəli MANEƏləri səmimi münasibətlər sayəsində dəf etmək olar.

Ona görə yalnız səmimi hisslərə güvənməklə dünyada sülhü və əmniyyəti bərqərar etmək mümkündür. Məncə çağdaş ədəbiyyatın əsas vəzifəsi bu amala xidmət etməkdən ibarət olmalıdır. Gözəlliyin əsas mahiyyətini səmimiyyətdə, səmimiyyəti ağlın, zəkanın nüvəsində göstərmək. Mənəvi ekologiyanı və tarazlığı qorumaq... Onu da qeyd edim ki, adətən, GÖZƏLLİYİN mənasını həm zahiri görünüşlə, həm də batindəki saf duyğularla bağlayırlar. Belə müdrikanə deyim var ki, gözəl davranış və ya səmimi duyğular gözəl bədəndən daha gözəldir. Səmimi münasibətlərin gözəlliyi isə bütün incə duyğuların ən zərifidir...

**— İctimai və ədəbi mühitdə tanınmaq üçün əqidənizin köməyi olubmu?**

— Tarix insanın əqidə və inam uğrunda mübarizəsidir. Əgər bu mübarizə meydanında əqidə və inam uğrunda vuruşub məğlub olan varsa, demək, o da qalıb sayılır. Çünkü özündən sonra örnək qoyur. Əqidə yolunda Mübarizlik məktəbi yaradır. Əgər mən həyatda nəyə nail olmuşamsa bu, ilk növbədə mənim əqidəmə sədaqətimlə bağlıdır...

Zövq dəyişir, həyat inkişaf edir. Amma əqidə, məslək dəyişməzdir.

Onu da deyim ki, mən ixtisasca mühəndisəm. Azərbaycan Respublikasının prezidentinin sərəncamıyla "Əməkdar mühəndis" fəxri adına layiq görülmüşəm. Dostoyevski mühəndis, Çexov həkim, Aytmatov isə zootexnik olub... Amma yazdıqları əsərlərə görə dünyanın ən sevilən yazıçıları olublar. Ədəbiyyat mənim

də həyatımın bir parçasıdır. Müqəddəs bir aləmdir... Etiraf edim ki, mənim bir oxucu, sonralar yazıçı kimi formalaşmağımda böyük Qırğız yazıçısı Çingiz Aytmatovun əsərlərinin misilsiz rolu olub! Taleyin işinə baxın ki, sonralar mən bu yazıçı ilə yaxından tanış oldum. Və bu tanışlıq dostluğa çevrildi. Mənim Aytmatovla görüşlərim çox olub. O xaraktercə nə qədər bəşəri olsa da, milli mənsubiyyətinə görə türkdür. Və türk dünyasını nəhəng ağacın şaxələnən budaqlarına bənzədirdi.. Korifey yazıçı dostum " Xəcalət" povestimin rus variantını oxumuşdu... Bakıya gələndə eyniadlı əsərin ilk tamaşalardan birinə baxmış, təəssüratını tamaşaçılarla bölüşmüşdü. Allah ona rəhmət eləsin!

— **Yaradıcılıq işi ilə ictimai-siyasi faliyyətiniz bir-birinə mane olmur ki?**

— Əslində dediyiniz bu funk-

siyalar bir-biri ilə bağlıdır. Mənim aləmimdə onların arasında kəskin sədd — sərhəd yoxdur. Hər biri məsuliyyət deməkdir. Və hər biri adamdan enerji tələb etsə də eyni prinsipə xidmət edir. Öyrənmək və öyrətmək, ədəbi yaradıcılıq cəmiyyətə xidmət etməkdir. Ötəriliyi və durğunluğu sevmirəm. İnsan şəxsiyyətinin bütövlüyü və əzəməti gərgin zəhmətdən yaranır. Mənim üçün milli — mənəvi dəyərlər, dövlətçilik maraqları hər şeydən üstündür. Millət vəkili olmağıma çətin və məsuliyyətli iş kimi baxıram. Parlament mənim fikrimcə, canlı orqanizmdir. Ölkəmizin beyin mərkəzidir. Hər miillət vəkilinin borcu əhalinin rifahı, respublikamızın inkişafı üçün gərəkli və işlək qanunların qəbulunda fəallıq göstərməkdir. Bu mənada yaradıcılıqla siyasi-ictimai fəaliyyətim arasında elə fərq görmürəm. Ədəbi-bədii yaradıcılıq işi də




mənəvi dəyərlərin keşiyində dayanmaqdır... Azərbaycan xalqının ictimai fikrinin formalaşmasında milli özünüdərkin və xalqın mənəvi varlığının qorunmasında ədəbiyyatın böyük rolu var.

**— Yazıçı, millət vəkili, elmi və ictimai fəaliyyətlə məşğul olan bir adam istirahətini necə keçirir?**

— Ədəbiyyat adamı üçün yaxşı kitab oxumağın ozü də istirahətdir. Hər bir insanın həyat tərzi onun özündən asılıdır. Mən mütaliəni çox sevirəm. İstirahətə gedəndə belə vaxtımı kitabsız təsəvvür etmirəm... Özümü həmişə yaxşı və tələbkar

oxucu kimi hiss edirәm. Müasir Dünya әdәbiyatından seçilmiş әsәrlәri, klassiklәri oxuyuram.

**— Gözәllik, ağıl, sәmimiyyәt!**

— Әslindә bunların üçü dә bir yerdә olanda mükәmmәllik yaranır. Amma mәn tәbii ki, bu üç nemәtdәn sәmimiyyәti daha çox dәyәrlәndirirәm.

Dediyim kimi ağılın әgәr belә demәk mümkündürsә, cövhәrindә sәmimiyyәt olmalıdır. Gözәl danışmaq da olar, ağıllı fikir söylәmәk dә. Biz belә şeylәrә müasir dünya diplomatiyasında tez-tez tәsadüf edirik. Amma sәmimiyyәt olmadığından hәmin fikirlәr reallığa çevrilmir.

**— Gәnc oxucularınıza ürәk sözünüz...**

— Hәr şeydәn öncә mәni istәr bәdii, istәr sәnәdli әsәrlәrimi mütaliә edәn gәnclәrimizә xoş arzu vә istәklәrimi çatdırmaq istәyirәm.

Qoy Azәrbaycan gәnclәri Ulu Öndәrimiz Heydәr Әliyevin vәtәn-

pərvərlik ideyalarından bəhrələnsin! Ümummilli liderimiz Türk dünyasının üfüqlərində parıldayan günəş idi... Müasir, sağlam düşüncəli gənclər öz qəlblərində günəşin zərrələrini yaşadırlar. Zərrələr bir olanda daha gür işıq saçır... Gənclər həm də unutmamalıdır ki, ELM bir günəşdir, həyat isə gündüzdür. Günəşli gündüzlər daha gözəl olur. Qoy onlar Ulu Tanrının verdiyi fürsətdən səmərəli istifadə etsinlər!

**– Qoy 21-ci əsr Azərbaycan gənclərinin əsri olsun!**

– Müsahibəyə görə sağ olun!

*“Iki sahil” qazeti,*
*10 aprel 2012-ci il, №61.*




# "SONUNCU FATEH"

***Hüseynbala Mirələmovun eyniadlı tarixi romanı haqqında düşüncələr.***

***Əgər maraqlı epizodlarla zəngin bu tarixi romanın mötivləri əsasında Azərbaycan kinemotoqrafçıları teleserial çəksələr, öz möhtəşəm məzmunu ilə dünyanın bir çox ölkəsində maraqla izlənən "Möhtəşəm yüz il" tele-eposundan geri qalmaz!***

Bu ilin mart ayında dünyasını dəyişmiş görkəmli ədəbiyyatşünas, Akademik Bəkir Nəbiyevin ön söz yazdığı "Sonuncu fateh" trilogiyası ("Nurlar" nəşriyyatı, 2012) çağdaş Azərbaycan ədəbiyyatının tanınmış nümayəndəsi, yazıçı-dramaturq Hüseynbala Mirələmovun qələmə aldığı ilk irihəcmli tarixi romanıdır. Qeyd edək ki, akademik Bəkir Nəbiyevin ön sözündən sonra müəllif bu əsər üzərində daha 2 il işləmişdir.

Əsər Makedoniyalı İsgəndər, Çingiz Xan, Əmir Teymur, Şah İsmayıl Xətai, Qanuni Sultan Suleyman kimi dünya şöhrətli hökmdarlarla bir sırada

dayanan, Orta Şərqin ən böyük fatehlərindən biri, türk cahangiri Nadir şah Əfşarın keşməkeşli ömür yoluna, hərbi – siyasi fəaliyyətinə həsr olunub. Əsərin məzmunu ilə tanış olduqda aydın olur ki, müəllif bu tarixi romanı araya-ərsəyə gətirmək üçün Nadir şah haqqında istər şərqli, istər qərbli tarixçilərin yazdığı qiymətli tədqiqat əsərlərinə və bir çox sənədli qaynaqlara müraciət edib. Dünya ədəbiyyatında tarixi şəxsiyyətlərə, xüsusilə, fatehlərə həsr olumuş əsərlər çoxdur. “Sonuncu fateh” trilogiyasında diqqəti cəlb edən xüsusiyyətlərdən biri odur ki, Nadir şahın 59 illik qeyri-adi, təzadlı ömrü, zəfərlə başa vurduğu döyüş səhnələri və faciəvi ölmü zaman və məkan müstəvisində müəllif tərəfindən böyük ustalıqla, həm də bədii – fəlsəfi ümümiləşdirmələr aparılaraq epopeya kimi qələmə alınmışdır. “Sevgi ilə nifrət arasında”, “Hərəmxanada qətl”, “Nadir şahın ölüm xəbəri” və başqa

hissələr, xüsusilə  də, Nadirə sadiq ola özbək qızı Zöhrə xatunun ölüm səhnəsi cox maraqlı və yaddaqalan  ştrixlərlə təsvir olunub.

Trilogiyanın ən maraqlı hissələrindən biri də möhtəşəm “Muğan qurultayi”dır. (Üçüncü kitab, Birinci hissə) Bu hissəni oxuyanda, tarixin hələ o dönəmində – Avropa ölkələrində demokratik ənənələrin mövcud olmadığı vaxtda Nadirin xalq nümayəndələri tərəfindən seçki yolu ilə  hakimiyyətə gəlişinin şahidi olursan.

Əlbəttə, yazıçının qayəsi romanda gerçəkdən öz dövrünün nadir şəxsiyəti kimi ad-san qazanmış baş qəhrəmanının həyatını, qurduğu qüdrətdi imperiya barədə, eləcə də onu mətin sərkərdə kimi qələbədən – qələbəyə aparan döyüş salnaməsini bütün təfərrüatı ilə oxuculara təqdim etmək deyil. Çünki bu böyük türk sərkərdəsinin ömür yolu təzadlarla zəngin, çox qalmaqallı və mürəkkəbdir, eyni zamanda qələbələrinin

isə sayı o qədər çoxdur ki, buna bir neçə cildlik roman belə kifayət etməz. Necə ki, Şah İsmayıl Xətaiyə həsr olunmuş romanları (Əlisa Nicatın "Qızılbaşlar", Fərman Kərimzadənin "Xudafərin körpüsü", Əzizə Cəfərzadənin "Bakı-1501" və s. tarixi romanlar) Azərbaycan oxucuları maraqla qarşılasa da belə bir böyük tarixi şəxsiyyətin daha dolğun obrazını yaratmaq, onun yaşadığı dövrün psixolji məqamlarını təsvir etmək üçün yazıçılarımızın həmin mövzuya yenə dönə-dönə müraciət etməyinə ehtiyac duyulur... Ümumiyyətlə, böyük sərkərdələrin, şahların həyatına işıq salan tarixi əsərlər (istər bədii dildə qələmə alınsın, istər publisistik) bütün dövrlərdə oxucular tərəfindən maraqla qarşılanır.

Şərqli salnaməçilər haqlı olaraq Nadir şah Əfşarı Böyük İsgəndərlə müqayisə edirlər. Habelə avropalı araşdırmaçılar Nadir şahla öz dövrünün gənc müasiri Böyük Fridrixdə, eləcə də



özündən sonra Avropada meydana çıxan Napoleon Bonapartda oxşar cəhətlər olduğunu vurğulayırlar. Ən maraqlısı Əmir Teymurla Nadir şah arasında paralelik aparan tarixçi və şərqşünas alımların fikiləridir. Hətta özünə "qılınc oğlu" deyən Nadir şahın Əmir Teymurla qohumluq əlaqələri olduğunu söyləyirlər.

Əsərin məzmunundan o da aydın olur ki, hələ sağlığında Nadir şah barəsində Avropada dövrü qəzetlər maraqlı məqalələr dərc edirmiş.

Təəssüf ki, müstəqilliyimizin bərpa-

sınadək ölkəmizdə Nadir şah haqqında Azərbaycan türkcəsində kitablara təsadüf olunmurdu. Məhəmməd Qüddusi adlı müəllifin fars dilində Xorasanda 1960-cı ildə nəşr olunmuş "Nadir şah" kitabı dilimizə tərcümə olunaraq 1999-cu ildə "Gənclik" nəşriyyatında işıq üzü görən yeganə kitablardan idi.

Səfəvilər dövlətinin süqutunu araşdıran İngilis tarixçisi və şərqşünası, Kembric universitetinin professoru Lourens Lokkartın 1938-ci ildə nəşr olunmuş "Nadir şah" kitabı təkcə Qərbi Avropanın deyil, dünya tarixinin salnaməsində ən dəyərli mənbədir. Rus dilinə tərcümə olunan adı çəkilən bu kitab Azərbaycan Milli Elmlər Akademiyasının A.Bakıxanov adına Tarix İnstitutunun elmi şurasının qərarı ilə nəşr edilmişdir. (Bakı, "Qanun" nəşriyyatı, 2004-cü il). Kitabda habelə Vyana, Raris, London, Sankt– Peterburq, İstanbul və başqa dövlət arxivlərində Nadir Əfşarın ömür yoluna

işıq tutan maraqlı materialların mövcud olduğu bildirilir. AMEA-nın M.Füzuli adına Əlyazmalar İnstitunun nəşr etdirdiyi "Nadir şah Əfşarın məktublaşması" (Bakı, "Nurlar", 2007-ci il) kitabçası görkəmli sərkərdənin müxtəlif dövlət rəhbərləri ilə yazışmalarından bəhs edir.

"Sonuncu fateh" trilogiyasının müəllifi ilə söhbət edərkən bu qaynaqlara istinad etdərək əsər üzərində ən azı 5-6 il işlədiyini bildirdi. Və minnətdarlıq hissiylə qeyd etdi ki, Nadir şah haqqında son illərdə qələmə alınmış çox dolğun, irihəcmlı tədqiqat əsərlərindən biri də Mehman Süleymanovun "Nadir şah" kitabıdır.

Nadir şah Əfşar haqqında sənədli mənbələrdə yazılır: "Asiya şahlarının heç biri bu böyüklükdə fəthlərə nail olmayıblar, Hindistandan gətirdikləri ilə İranın qədim cah-cəlal və şöhrətini bərpa edib, İran əhalisinin başını ucaltdı. Buxaranın alınması, öz mərda-

nәliyi vә sәxavәtilә Hindistan vә Buxara şahlarınına tac bağışlaması, İran xalqlarının әzәmәt vә şöhrәtini artırdı. Öz qüdrәtinin bünövrәsini möhkәmlәndirmәyi ölkәnin sahәsini genişlәndirmәk vә ya şahlığın qüvvәtlәndirilmәsindә deyil, qıncının şöhrәtindә vә güclü, ağıllı tәdbirdә görürdü”.

İngiltәrәnin vә Rusiyanın narahatçılığına sәbәb olan vә bu üzdәn bir çox arzuları yarımçıq qalsa da, ilk dәfә Xәzәr dәnizindә, Kәngәr (Fars) körfәzindә donanma yaratmaq ideyasının vә Dünyada Müsәlman Dövlәtlәrinin Birliyinini qurmaq istәyinin Nadir şaha mәxsus olmasından “Sonuncu fateh” trilogiyasının “Böyük birliyә gedәn yol”, “İlk donanma”, “Nәcәfdә yeni mәzhәbi mәclis”, “Sülh naminә güzәşt” vә başqa hissәlәrindә bәhs olunur. Amma faciәli ölümü başqa arzuları kimi bu ideyanın hәyata keçirilmәsinә mane oldu. Bu gün dә yer üzündә Nadir şahın 250 il il öncә

təməlin qoyduğu ideyanın – islam birliyinin əməli şəkildə gerçəkləşməsinə ən çox ehtiyac duyulur.

Trilogiyanın "Qara bulud" və "Pyotrla görüş" hissələri bugünümüzlə səsləşən bir çox mətləblərdən soraq verir. Müəllif oxucuya bu gün də Qarabağın başı üstündən əskik olmayan QARA BULUDların ilkin mənbəyini açıb-göstərir. El arasında Dəli Petro kimi ad çıxarmış Böyük Pyotrun ermənilikdən hansı məqsədlər üçün istifadə etməyi və bu qəbildən olan tövsiyələrini gələcək rus hakimlərinə miras qoyması həm bədii, həm də tarixi ştrixlərlə açıqlanır.

Fitri hökmüdarlıq qabiliyyətinə malik olan Nadir şah kimi tarixi şəxsiyyətlərin həyatı həmişə bir neçə parlaq və həlledici məqamlarla diqqəti cəlb edir. Bu həyatın, zamanın əzəli və əbədi bir qanunudur. Nadir şahın da taleyinə yazılan, onun hərbi yürüşlərində, şöhrət və qüdrət pillələrində bir neçə belə




həlledici məqam var ki, müəllif məhz həmin o parlaq məqamları – ilk baxışdan adi görünən, əslində isə tarixi şəxsiyyətin həyatında və taleyində önəmli rol oynayan böyük ANLARI romanda əks etdirə bilib.

Çünki tarixçilərin dili ilə desək, qəhrəmanın təkcə adi çobanlıqdan böyük şahlıq taxtına qalxması dahiyanə nailiyyət idi. H.Mirələmovun yaratdığı Nadir şah obrazı Qoca Şərqin tarixində öz qılıncıyla möhtəşəm imperiya quran vətənpərvər bir şəxsiyyətin (əsərin məzmunundan belə aydın olur ki, hətta Nadir şahın özünün də ömrünün qürub çağında xatırladığı), məhz həmin tariixi

hadisələrin – böyük ANLPARIN fövqündə gözlərimizin qabağında bütün əzəməti ilə dayanır.

Əsərdə xronoloji ardıcıllığın gözlənilməməsi onun məzmununa qətiyyən xələl gətirmir, eyni zamanda müasirlərinin Nadir şah haqqında salnamələrdə qələmə aldığı fikirlərdən, eləcə də xalq arasından dildən-dilə gəzən rəvayətlərdən yerli-yerində istifadə olunması onun oxunaqlığını daha da artırır. Öz oğluna ədalətli və səxavətli olmağı öyüd verən Nadir şah onun (Pzaqulu xanın) israfçılıq etdiyini və xüsusi qvardiya yaratdığını bildikdə deyir: “Bu xalq əzəldən iki saray tanınmağa adət etməyib. Biz də buna əməl etməliyik. Tac başa yaraşıq versə də, ağıl vermir. Başın tacı ağıldır. Belə görürəm ki, sən bu cah-calala, bu hökümətə, taxt-taca layiq deyilsən...” (səh. 567)

Təbii ki, əsərin müəllifi öz qəhrəmanını səhvsiz və nöqsansız-ideal şəxsiy-

yət kimi təsvir etmir. Bütün şahlar kimi Nadİr Əfşar da nöqsanlardan xali deyildi.

Kitaba yazılmış ön sözdə qeyd olunduğu kimi tarix kitablarında Nadirə güllə atılmasında oğlu vəliəhd Rzaqulu xanın əli, tapşırığı olduğunu göstərənlər də var, onun bu işdən xəbərsiz olduğunu təsdiq edənlər də. Əlbəttə, insanı dünya işığına həsrət qoymaq, özəlliklə də oğlunun gözlərini çıxartdırmaq heç nə ilə müqayisəyə gəlməyən ağır bir cinayətdir. Cəzalanandan sonra Rzaqulunun atasına dediyi yeganə cümlə mənbələrdə yazılanlara görə bu olub ki, "Sən tək mənim gözümü çıxartmadın, bütün səltənəti kor qoydun".

Akademik Bəkir Nəbiyevin fikrincə Attiladan üzü bəri ən görkəmli türk sərkərdələrinə həsr edilmiş elmi və bədii əsərlərin son illərdə bir sıra maraqlı nümunələrinin meydana gəlməsi xalqın özünün mənəvi istəklərindən doğduğu üçün məqbul, maraqlı

və arzuedilən bir əlamətdir. Hüseynbala Mirələmovun "Sonuncu fateh" romanı da bu mənəvi tələbatdan doğan qiymətli əsərlərdən biridir.

Müəllifin belə tarixi mövzuya müraciət etməsi müasir dövr üçün çox aktualdır. Bu gün erməni işğalçılarının tapdağı altında qalan torpaqlarımızı azad etmək üçün güclü vətənpərvəlik tərbiyəsinə ehtiyac duyulur. Qarabağ mövzusunda bir-birindən təsirli əsərlər yaradan Hüseynbala Mirələmov öz ənənəsinə sadiq qalaraq "Sonuncu fateh" romanı ilə xalqımızın qürur qaynağı olan qəhrəmanlıq salnaməmizi önə çəkərək Nadir şah kimi oğullar yetirən türk-müsəlman millətinin övladalarını vətənpərvərliyə səsləyir.

***"Kaspi" qəzeti,***
***25-27 avqust 2012-ci il.***
















01.10.2010






01.10.2010




24.12.2007


24.12.07












Gəlinlik
CƏZA










Arif Rahımzada
Rafael Hüseynov






24.12.07
Hüseynbala Mirələmov






28.04.2010




AKADEMİK ZƏRİFƏ ƏLİYEVANIN
ANADAN OLMASININ 87 İLLİYİNƏ HƏSR OLUNMUŞ
BEYNƏLXALQ ELMİ
28.04.2010






ЗАРИФА АЛИЕВА
Гусейнбала Мираламов
ЖИЗНЬ ЗАМЕЧАТЕЛЬНЫХ






21.05.2010












26.02.2008




26.02.2008


26.02.2008


26.02.2008












QIRXINCI OTAQ
Gəlinlik paltarı


26.02.2008


16.06.2011






06.05.2009


DSC 7659cc
DSC03774
DSC04004
DSC04023
DSC04026
DSC04241
DSC04254
DSC04400
DSC04450
DSC04458
DSC04494cc
DSC05893




25.06.2011




03.02.2009




01.10.2010










DİPLOM


THE INTERNATIONAL FESTIVAL OF PERFORMING ARTS
DIPLOMA
bitei
X
Awarded to
The State Academic Theatre in Baku, Azerbaidjan
for the performance
THE REPENTANCE directed by Bahram Osmanov
25th of May- 3rd of June2012, Chisinau, Republic of Moldova






YENİ AZƏRBAYCAN PARTİYASI
XƏTAİ RAYON TƏŞKİLATI
NEW AZERBAIJAN PARTY
THE ORGANIZATION OF KHATAI DISTRICT





***Əli MAHMUD***

# Son söz

## SƏDAQƏT RƏMZİ

***...Bizim Qarabağ dağlarında Şehdərən adlı güləbənzər bir ot bitir. Onun ləçəkləri arasındakı bir damla şeh yayın ən isti günlərində belə qurumur. Aylarla quraq keçən havalarla da Şehdərən öz təbiətinə sadiq qalır və həmin şeh damlasını***

***qoruyub-saxlayır. Yaşlıların dediyinə görə, aylarla göydən bir damcı düşməyəndə dağlardakı bütün canlıları susuzluqdan Şehdərən xilas edir. Bax, Hüseynbala Mirələmovun Qarabağa sədaqətini, Qarabağ yanğısının üstünə su çiləmək istəyini bu cür qiymətləndirmək olar.***

Nurəddin ƏDİLOĞLU

# HALALLIĞIN HALƏSİNDƏ YAŞAYAN İNSAN

...Lap qədim zamanlarda Ərdəbil mahalından – şah zülmündən canlarını qurtarmış iki qardaş bizim cənub elinə üz tutur. Qardaşlar bir əkir, bir biçir, dəni dəyirmanda bir üyüdür, bölgüyə gələndə hər kəs qədərincə götürüb bəsimdi deyərmiş. Bir gün qardaşlar xırmanda yenə dən bölürmüş. Böyük qardaş düşünür ki, mən evli-eşikli, güzaranım da kefimcə, kiçik qardaşım subay-salıxdı, yaxınlarda evlənib, iki baş, dörd əl-ayaq olacaqlar. Qoy məhsulun çoxu ona qismət olsun!

Elə bu fikirlə öz payından kiçiyinə pay qoşur. Kiçik qardaş da öz aləmində düşünür ki, ayə,

mən subay-salıx: yeyənim yox, dağıdanım yox, böyük qardaşımın bir çətən külfəti var, qoy məhsulun çoxu onunku olsun! Bu minvalla o da öz payından ayırıb böyük qardaşın payına qatır. Hə, Allah da qardaşların məhsuluna bir bərəkət verir. Qardaşlar gecə-gündüz məhsulu xırmandan daşıyıb qurtara bilmirlər ki, bilmirlər. El arasında söz yayılır ki, ayə, bəs filan qardaşların xırmanı aşıb-daşır. Hə, deyilənlərə görə, bu halallıq sevən qardaşları el-obada nişan verəndə deyərmişlər ki, xırmanı dolu olan filankəslər...

Deyilənlərə görə, bizim Xırmandalı kəndinin adı da bu əhvalatdan binə tutub...

...Məncə Hüseynbala müəllimin əsərlərinin də xeyirxahlığının da mayasında halallıq var. Halallığın haləsində yaşayıb-yaratmaqsa hər sənətkara nəsib olmayan xoşbəxtlikdir!

Eşq olsun sənə halal adam!

Nurəddin ƏDİLOĞLU

## MÜNDƏRİCAT

Ön söz...............................................................3
Bəşərə sevgisi tükənməyən yazar ..............3
Ömrün əbədiləşən tarixi ..............................32
Elmi və ədəbi yaradıcılığı ...........................37
Təltif və mükafatları ..................................45
"Xəcalət"in xofu Xalq şairi Bəxtiyar
Vahabzadəyə açıq məktub ...........................49
Ağrılarımizin zirvəsi ..................................63
Müasir Azərbaycan reallığını əks
etdirən roman ............................................77
Deputat kürsüsünə gedən yol ....................94
Deputatlıq səlahiyyəti ................................95
Seçicilərlə görüşlər ..................................105
Payızın son yeddi anı ...............................111
Birinci an ...................................................112
İkinci an ....................................................114
Üçüncü an .................................................117
Dördüncü an .............................................119
Beşinci an ..................................................121
Altıncı an ..................................................123
Yeddinci an ...............................................125

Hüseynbala Mirələmov haqqında .............127
Mən onu dağ çayına bənzədərdim ............130
Son söz əvəzi ............................................132
Ənvər Aslanov: "Mən namizədliyimi
Hüseynbala Mirələmovun xeyrinə
geri götürürəm" .......................................135
Ləyaqət ......................................................146
Hüseynbala Mirələmov: "Mənəviyyat
kasıblığının sonu faciədir" .......................151
Çingiz Aytmatov: "Biz nəhəng türk
ağacının qolları, budaqlarıyıq" ...............176
Çingiz Aytmatov: "Hüseynbala ilə hər
görüşəndə mənən bəhrələnirəm" .............201
Dərdimin şəriki .........................................221
"Xəcalət"–bəşəri xəcalət ..........................260
Şah əsəri yaxşılıq olan elçi ......................279
Sağlam düşüncəli gənclər Günəşin
zərrələridir ................................................292
"Sonuncu fateh" .......................................307

Son söz
Sədaqət rəmzi ...........................................361
Halallığın haləsində yaşayan insan ........363

Əli MAHMUD,
Nurəddin ƏDİLOĞLU
**"HALALLIĞIN HALİSİNDƏ"**
**(Publisisitik məqalələr,
ədəbi-bədi düşüncələr)**

Texniki redaktor:
Dizayner: **Ramiz ƏLƏKBƏROĞLU**
Korrektor:
Operator:

Çapa imzadanmış: 27.12.2013
Kağız formatı: 64/90, 1/16
Fiziki çap vərəqi:
Tiraj: 23
Qiyməti müqavilə yolu ilə